İRADƏ RƏHMANOVA

# MİKAYIL RZAQULUZADƏNİN YARADICILIĞI

İRADƏ RƏHMANOVA

# MİKAYIL RZAQULUZADƏNİN YARADICILIĞI

BAKI – 2001

REDAKTORU: professor Qara NAMAZOV

RƏ'YÇİLƏR: professor C.M.ABDULLAYEV,
professor Tofiq HÜSEYNOĞLU

**Rəhmanova İradə Fərzəli qızı. Mikayıl Rzaquluzadənin yaradıcılığı.** Bakı, "Ağrıdağ" nəşriyyatı, 2001, 132 səh.

R $\frac{4604000000}{064 (08) - 2001}$ Qrifli nəşr

© **İ.Rəhmanova**, 2001

## ZƏNGİN YARADICILIQ YOLU

***Mikayıl Manaf oğlu Rzaquluzadə çağdaş Azərbaycan ədəbiyyatında şair, nasir, ədəbiyyatşünas, dünya klassikasının kamil tərcüməçisi və nəhayət uşaq ədəbiyyatının yaradıcısı kimi tanınmış, 60 illik ardıcıl ədəbi fəaliyyəti dövründə zəngin bir irs qoyub getmişdir.***

***M.Rzaquluzadə dünya ədəbi irsinə dərindən bələd olan bir sənətkar kimi onun ən yaxşı nümunələrini dilimizə çevirmiş, özü də bu sərvətdən bəhrələnərək ədəbiyyatımızda yaşaya biləcək əsərlər yazmışdır. Azərbaycan xalq yaradıcılığına, klassik şərq ədəbiyyatına dərindən bələd olan ədib onların motivləri əsasında mənzum nağıllar, poemalar və hekayələr yazmışdır. O, ədəbiyyatımızda S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, S.S.Axundov və A.Şaiq ədəbi irsini ləyaqətlə davam etdirmişdir. Ədəbiyyatşünas M.Rzaquluzadə həm də məktəb dərsliklərinin müəllifi kimi tanınmışdır.***

***M.Rzaquluzadə haqqında qələm dostları mətbuatda bə'zi fikirlər söyləsələr də, kitabları haqqında rə'ylər yazılsa da, ümumən yaradıcılıq yolu araşdırılıb qiymətləndirilməmişdir. İ.Rəhmanova ədibin ədəbi irsinin ətraflı öyrənmək üçün dövlət arxivində, dövrü mətbuatda araşdırmalar aparmış, nəhayət ilk təşəbbüs olaraq onun həyat və yaradıcılığını ümumiləşdirən bir əsər yazmışdır.***

***Kitabda ədibin müxtəsər tərcümeyi-halı, şe'rləri, poemaları, hekayələri, xalq yaradıcılığının motivləri əsasında yazdığı hekayələr, görkəmli sənət adamları haqqında xatirələri, ədəbiyyatımızın müxtəlif problemlərinə dair ədəbi-tənqidi məqalələri mövzusuna, məzmununa, ədəbi dəyərlərinə görə təhlil edilmişdir.***

***İradə Rəhmanova hər bir əsəri təhlil edərkən onun üzərində ətraflı dayanmış, mövzunun ideya-məndəricəsi ilə yanaşı, bədii dil və ifadə vasitələrinə xüsusi diqqət yetirmişdir. Bə'zi əsərlərin arxivində saxlanan əlyazma nüsxəsi ilə müqayisə etmişdir.***

***M.Rzaquluzadə xalq yaradıcılığına, xalq bədii təfəkkürünə dərindən bələd olan sənətkar idi. Onun kiçik həcmli şe'rlərindən tutmuş, iri həcmli poema və povestlərinə qədər əksəriyyətində el ədəbiyyatının ruhu aydın duyulur. Ədib ədəbiyyatı-***

*mızda Dədə Qorqud boylarının motivlərindən ilkin istifadə edən və maraqlı hekayələr ("Ana ürəyi – dağ çiçəyi", "El gücü", "Dəli Ozan") yazan müəlliflərdən biridir. İradə xanım "Dədə Qorqud" eposunun yubileyi ərəfəsində bu problemə xüsusi diqqət yetirmiş, müqayisələr aparmışdır.*

*M.Rzaquluzadənin yaradıcılıq yolu zəngin və çoxşaxəlidir. O, ədəbi janrlardan demək olar hamısından istifadə eləmiş, yazdığı əsərlər də gəncliyin etik və estetik tərbiyəsinə yönəldilmişdir. Onun Azərbaycan şe'rinin tarixinə dair geniş həcmli sanballı elmi-nəzəri əsəri, 1917-20-ci illərdə Azərbaycan ədəbiyyatı haqqında, eləcə də Azərbaycan uşaq ədəbiyyatının keyfiyyəti məsələsinə dair irihəcmli məqalələri ümumi ədəbiyyat tariximiz üçün zəngin ədəbi qaynaq sayıla bilər.*

*İradə xanım həm çap etdirdiyi ayrı-ayrı məqalələrində, həm də həmin kitabda ədibin ədəbi fəaliyyətinin ən vacib xüsusiyyətlərini izləmiş, ədəbiyyatımızda onun mövqeyini və yerini dəyərləndirə bilmişdir.*

*Əlbəttə, həyat və yaradıcılığı sosializm quruculuğu ilə bağlı olan bir sənətkarların həyat yolu şübhəsiz mürəkkəb və mübarizələrlə dolu olmuş və bu yolun ziddiyyətlərini üzə çıxarmaq müəyyən çətinliklər törətmişdir. Ortaya müxtəlif süallar çıxır. Nə üçün 20-ci illərdə romantik-sentemental ruhlu, zəngin mündəricəli şe'rlər yazan bir şair 30-cu illərdə mətbuatda az-az görünür, uşaq ədəbiyyatına dair məqalələrlə kifayətlənir, yalnız müharibə illərindən başlayaraq bir-birinin ardınca şe'r, poema və hekayələrini çap etdirir. Eyni zamanda, dünya klassiklərinin ən nadir nümunələrini dilimizə çevirib xalqımıza çatdırır. Bu baxımdan onun ədəbi irsi gələcəkdə daha mükəmməl öyrəniləcəkdir. M.Rzaquluzadənin sənət dostları haqqında yazdığı xatirələr-memuar ədəbiyyatımızın kamil nümunələridir. Xüsusilə, A.Şaiq və S.Vurğun haqqında yazdığı iri həcmli xatirələri ədəbi fikrimizin dürüstləşməsində çox əhəmiyyətlidir.*

*M.Rzaquluzadənin yaradıcılıq yolu 1920-1980-ci illər Azərbaycan ədəbiyyatının yaradıcılıq yoludur. O, bu yolun ardıcıl, ləyaqətli, kamil yolçusu olmuşdur. Onun ədəbi irsinin çağdaş Azərbaycan ədəbiyyatı kon-teks-tində araşdırılıb öyrənilməsi mə'nəvi sərvətimizə layiqli töhfədir.*

*QARA NAMAZOV*



## GİRİŞ

Ədəbiyyat aləmində 60 il ardıcıl fəaliyyət göstərən, özünəməxsus yaradıcılıq yolu keçən Mikayıl Manaf oğlu Rzaquluzadə 1905-ci ildə Bakıda doğulmuşdur.[1] İbtidai təhsilini 1911-1913-cü illərdə yeni üsullu "Mədrəseyi-nur" məktəbində almışdır. Sonralar yeni üsullu 5 nömrəli "Rus-müsəlman" məktəbində, həm də xüsusi müəllim yanında hazırlaşıb, Bakı ticarət məktəbinə daxil olmuşdur. 1918-ci ildə Bakı birinci realnı məktəbi milliləşib "E'dadi" adını aldı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra həmin məktəb ikinci dərəcəli Şura zəhmət məktəbinə, daha sonra Birinci Azərbaycan Ali Pedaqoji İnstitutu nəzdində A.Şaiq adına nümunə məktəbinə çevrildi. Mikayıl həmin məktəbin son sinfində imtahan verib Ali Pedaqoji İnstitun tarix-ədəbiyyat fakültəsinə daxil olmuşdur.

Gənc Mikayıl həmin müddətdə oxumaqla yanaşı Azərbaycan hərbiyyə komissarlığında rabitəçi, Bakı vilayət hərbi komissarlığında jurnalist kimi fəaliyyət göstərmişdir. 1925-1927-ci illərdə Bakıda Sabir adına kitabxanada, fəhlə rayonlarının kitabxanalarında kitabxanaçı, şəhər mərkəzi kitabxanasında kollektor müdiri, Ali Pedaqoji İnstitut kitabxanasının müdir müavini, sonra isə müdiri vəzifələrində çalışmışdır.

M.Rzaquluzadə institutu bitirdikdən sonra 1927-1931-ci illərdə Gəncə Pedaqoji texnikumunda, həm də fəhlə fakültəsində ədəbiyyat və pedaqoqika-psixologiya müəllimi işləmişdir. Həmin illərdə Gəncə müəllimlər evində ədəbiyyat dərnəyinin rəhbəri, "Qızıl Gəncə" toplusu redaksiya hey'ətinin və Azərbaycan Proletar Yazıçıları İttifaqı Gəncə şö'bəsinin üzvü və b. işlərdə çalışmışdır.

M.Rzaquluzadə 1931-1934-cü illərdə Moskvada ikinci Dövlət Universiteti yanında Pedaqoji Psixologiya-Pedaqoqika Elmi tədqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. Həmin illərdə o, SSRİ Xalq Komissarları Şurası yanında və qərarlar nəşriyyatının Azərbaycan şö'bəsində tərcüməçi və ste-

---

1. M.Rzaquluzadənin həyağ və yaradıcılığı haqqında nisbətən geniş oçerk Q.Namazovun "Azərbaycan uşaq ədəbiyyatı" (Bakı. Maarif, 1984) dərsliyində verilmişdir. Həyatı haqqında bax: Teymur Əhmədov. Azərbaycan yazıçıları-Bakı. Azərbaycan Ensklopediyası, 1995, səh.324-325.

noqrafiya kurslarında ədəbiyyat müəllimi işləmişdir. 1934-cü ildə Bakıya qayıdan M.Rzaquluzadə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoqika İnstitutunda uşaq ədəbiyyatı üzrə elmi işçi, Azərnəşrdə tərcüməçi və redaktor olmuş, qısa fasilələrlə "İnqilab və mədəniyyət" məcmuəsinin mə'sul katibi, "Azərbaycanfilm" kinostudiyasında, xarici ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətində baş redaktor, "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində çalışmışdır.

M.Rzaquluzadə sonrakı illərdə "Gənclik" nəşriyyatının, "Göyərçin", "İnqilab və mədəniyyət" (sonralar "Azərbaycan") jurnallarının redaksiya hey'ətinin, "Azərbaycan dilinin izahlı lüğəti" redaksiyası hey'ətinin, Azərbaycan Yazıçılar İttifaqı qəbul komissiyasının üzvü olmuşdur. O, ədəbiyyat sahəsindəki xidmətlərinə görə mükafatlara layiq görülmüşdür.

Qocaman yazıçı 1984-cü ildə öz dünyasını dəyişdi, Bakıda dəfn olundu.

M.Rzaquluzadənin ilk mətbu şe'ri 1923-cü ildə "Abdulla Şaiq" kitabçasında çap olunmuşdur. İlk məqaləsi isə 1926-cı ildə "Maarif işçisi" jurnalında "Cocuq ədəbiyyatında üsul məsələsi" adı ilə dərc olunmuşdur. Bu illərdən başlayaraq dövri mətbuatda şe'rlərini, məqalə və hekayələrini çap etdirsə də, 1943-cü ildə çapdan çıxan kitabı - "Qaranquş yuvası" poeması ilə ədəbi aləmdə özünü tanıtdı. Bundan əlavə, M.Rzaquluzadənin 1940-cı ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı ongünlüyü münasibətilə yazıb çap etdirdiyi 45 səhifəlik "Azərbaycan şe'ri"[1] onun kamil bir ədəbiyyatşünas olduğunu təsdiq elədi. O, həmin əsərdə XII yüzildən XX yüzilin 40-cı ilinə qədərki dövrdə Azərbaycan şe'rinin keçdiyi tarixi yolu izləmiş, Xaqani, Nizami, Məhsəti, Nəsimi, Füzuli, Vaqif, Zakir, S.Ə. Şirvani, Sabir və əsrimizin 20-40-cı illərindən yazıb yaradan şairlərimizin poetik irsini dəyərləndirmişdir. 1945-ci ildən bədii yaradıcılıqla ardıcıl məşğul olan M.Rzaquluzadə "Qaranquş yuvası" (1943), "Leyla" (1943), "Ağ dana" (1945), "El gücü" (1948), "İstək" (1949), "Dan söküləndə" (1952), "Qu gölü" (1955), "Ovçu Elişlə Qoçaq Aytəkin nağılları" (1956), "Ölkəmin çiçəkləri" (1962) kitablarını çap etdirdi. Bu kitablarda onun

---------------------

1. Azərbaycan ədəbiyyatı dekadası – Bakı, Azərnəşr, 1940, s.12-57.



lirik və satirik əsərləri uşaqların bədii-estetik tərbiyəsinə xidmət edən didaktik şe'rləri, poemaları, xalq yaradıcılığının motivləri əsasında yazdığı mənzum nağılları və hekayələri toplanmışdır. Yazıçının 60 illik yubileyi münasibətilə 1965-ci ildə "Nəsillərdən nəsillərə" adlı bir cildlik seçilmiş əsərləri çap olundu. 500 səhifəlik bu kitaba onun ən yaxşı əsərləri, dünya klassikasından tərcümə etdiyi nümunələr daxil edilmiş, həmçinin "Canlı xatirələr" bölməsində M.Qorki, A.Şaiq, M.Y.Lermontov, C.Cabbarlı, S.Vurğun, Y.Məmmədəliyev, V.Mayakovski, R.Rza, N.Rəfibəyli. M.Dilbazi haqqında xatirə və məqalələri verilmişdir.

1970-80-ci illər M.Rzaquluzadə üçün daha uğurlu olmuşdur. Bu illərdə onun daha sanballı və məzmunlu kitabları - "Ürəkdə izlər" (1969), "Quş dili bilən Orxan"(1972), "Yaz günəşi" (1977), "İlin yazı-elin sazı" (1981) kitabları çapdan çıxdı.

M.Rzaquluzadə orijinal yaradıcılığı ilə yanaşı tərcümə ilə daha səmərəli fəaliyyət göstərmişdir. O, fars dilini, rus dilini mükəmməl bildiyi üçün Şərq və Qərb ədəbiyyatının nadir nümunələrini dilimizə çevirmişdir. Onun 50 tərcümə kitabı çap olunmuşdur.[1] Bu ədəbiyyat sahəsində onun ən böyük xidmətlərindən idi. M.Rzaquluzadənin çoxcəhətli və zəngin yaradıcılıq yolunu böyük ədəbi-elmi irsini araşdırmaq, tədqiq edib dəyərləndirmək xüsusi elmi aktuallıq tələb edir. Mə'lum olduğu kimi, sovet siyasi rejiminin iflası və Azərbaycanın istiqlaliyyət əldə etməsi yeni konsepsiya və baxışlar tələb edir. Çünki bu gün ən'ənəvi baxış və streotiplərlə ədəbi-mədəni irsimizi milli məfkurə işığında təhlil etmək və dəyərləndirmək mümkün deyildir. Bu mə'nada M.Rzaquluzadənin ədəbi irsinin milli məfkurə işığında araşdırılmasını şərtləndirir. Bu isə bilavasitə tədqiq olunan mövzunu aktuallaşdırır.

---------------------

1. Əhmədov T. Azərbaycan yazıçıları.-Bakı. 1995,s.325.

## POEZİYASI

### LİRİK ŞE'RLƏRİ

Respublika Dövlət Arxivinin "Ədəbiyyat və incəsənət" fondunda Mikayıl Rzaquluzadənin zəngin arxivi saxlanılır.[1] Burada yazıçının çoxsaylı şe'rlərinin, poemalarının və mənzum nağıllarının müxtəlif variantları vardır. Müəllif bu əsərlərin bədii cəhətdən ən kamillərini seçib ayrı-ayrı kitablarına daxil etmişdir. Biz bir sıra əsərlərin çap variantı ilə fondda saxlanan variantı tutuşdurduq, belə qənaətə gəldik ki, müəllifin kitablarına daxil etdiyi variant həm məzmunca, həm də bədii dəyəri baxımından daha keyfiyyətlidir.

Onu da xatırladaq ki, yazıçı ən yaxşı əsərlərini 60-cı illərdən sonra çap etdirdiyini seçilmiş əsərlərinə daxil etmişdir. Bu əsərlərdə əsrin birinci yarısında diktatura dövrünün ab-havası çox az hiss olunur. "Seçilmiş əsərlər" müəllifin yaradıcılıq yolu haqqında daha aydın təsəvvür yaradır.

M.Rzaquluzadə poeziyasında bədii təfəkkür, Vətən torpağına, onun əsrarəngiz təbiətinə məhəbbət və məftunluq hissi, yaşamaq və yaratmaq ehtirasının təbii tərənnümü, təbiətlə insan arasında ən gizli rabitəni görə bilmək, həyata və insana məhəbbət duyğularını zəngin ifadə üsulları ilə verə bilmək bacarığı onu oxucularına sevdirən ən mühüm keyfiyyətlərdir. Həyatdakı tipik cizgiləri görə bilmək və diqqəti fəal surətdə istiqamətləndirmək, hadisə və predmetin zəngin çalarları içərisində olan həqiqətləri poetik idrakın obyektinə çevirmək, varlığın müxtəlif tərəflərini romantik tutarla və emosionallıqla ifadə qabiliyyəti onun yaradıcılığına dərin bir mə'nalılıq və bütövlük gətirir.

M.Rzaquluzadə xalq ədəbiyyatının zəngin qaynaqlarına yaxşı bələd olan yazıçılarımızdandır. Təsadüfi deyil ki, folklorun tükənməz imkanlarından yaradıcılıqla bəhrələnərək xalq təxəyyülündən gələn ideyaları müasirlik duyğusu və yeni mə'-nalarla zəngilişdirib ifadə etmə, şifahi söz sənəti ən'ənələrindən bəhrələnərək həyatın və insan arzularının işıqlı nöqtələrini göstərə bilmək yaradıcılığının başlıca xüsusiyyətləridir. Ustad

---

1. Mümtaz S. adına Dövlət Ədəbiyyat İncəsənət Arxivi. Fond № 621, siyahı №1.



sənətkar incə lirikası ilə varlıq haqqındakı təsəvvürlərimizi məharətlə genişləndirə bilir. Bizim xəyalımızı uşaqlıq illərinə, onun poeziya ilə dolu xəyallarına aparır, duyğularımızı kövrəldir. Bizi gəncliyin qaynar və dəliqanlı dünyasına aparır, gəncliyin potensial, coşqun arzularını əyaniləşdirir və bə'zən də ömrün axırında bizim varlığımıza hakim kəsilən hiss və həyəcanların təzadlarını, əbədi bir hərəkətdə olan həyatın dialektikasını sadə və təbii bir dildə çatdıra bilir.

Bütün bunlar M.Rzaquluzadənin hər şeydən qabaq həyatı yaxşı bilməsindən, onun özünəməxsus sənətkar ilhamı və intuisiyasından, varlıq haqqındakı baxış və düşüncələrinin zənginliyindən həyatı idrak və poetik əks etdirmə iste'dadının gücündən və nəhayət, dilinin təbiiliyindən, şirinliyindən, müəllif münasibətinin səmimiliyindən irəli gəlir. Onu şe'rlərində bədii sözün əlvan çalarlarına rast gəlirik. Bu dil bə'zən onun hekayələrini mənsur şe'r səviyyəsinə yüksəldir, ürəkləri oxşayır. Yazıçıların təsvir və tərənnümündən onun ifadə imkanlarının genişliyi aşkar hiss edilir. Bə'zən gözəl bir fikir onun müəyyən bir əsərdəki ifadə üsullarından yüksəkdə dayana bilir, bə'zən də yazıçıda gözəl, təravətli duyğuların tərənnümü ilə bərabər, bir ümumiləşdirmə zəifliyi də nəzərə çarpır.

M.Hüseyn yazır: "Hər bir ədibin o birindən fərqi yalnız tip yaratmağında, kompozisiya qurmağında, təsvir xüsusiyyətlərində, lirik ric'ətlərində, psixoloji təhlilində və sairədə deyil, həm də onun dilində olmalıdır, zira ədibin dili - ədibin varlığı deməkdir".[1]

M.Rzaquluzadə bu mə'nada öz sənətkar qabiliyyətini göstərə bilir. Bədii dil, onun üsulları, daha doğrusu, hadisə və predmetlərin təsviri onun dilində şablona çevrilir. Hər bir mövzu üçün onda söz başlamaq və məqamında bitirmək bacarığı vardır. Ədibin dili elə bil ki, təbiətin dilidir. Bu dildə əyaniləşdirmək, konkretləşdirmək, təsəvvür yaratmaq, insan ruhunda təlatüm yaratmaq qabiliyyəti var ki, bu da təbii bir cazibə doğurur.

M.Hüseyn bu fikri daha gözəl deyir: "Rzaquluzadənin dilindəki sadəlik və qəhrəmanına olan məhəbbət, oxucuya da sirayət edir".[2]

Bu, həqiqətən belədir. O,təsvirlə poetik predmeti bizə doğ-

---

1.Hüseyn M. Ədəbiyyat və sənət məsələləri. - Bakı, Azərnəşr, 1958, s.333-334.

2. Yenə orada s.379

malaşdırmağa çalışır. Bizi təsvir obyektinin lap yaxınlığına aparır və biz tərənnüm edilən aləmlə təmasda ola bilirik. Şairin poetik təfəkkürü olduqca aydındır. Çünki şair yaxşı müşahidə edir, varlığın sonsuz əlamətləri içərisindən yaxşı ilə yamanı seçə bilir. M. Rzaquluzadə lirik şe'rlərində yaxşı bildiyi həyatı, predmet və hadisələri qələmə aldığı üçün aydın fikirləşir, onun hiss və düşüncələrinin ifadəsində də poetik bir aydınlıq duyulur:

**İllər ötsə, dağ başını**
**Qar alsada,**
**Gün batanda al şəfəqlər**
**Saralsa da,**
**Yaz ətirli ilk arzular**
**Gələr yada-**
**Bənövşələr açılanda,**
**Bənövşələr açılanda[1].**

Bu şe'r parçasında təbii bir lövhənin canlı müşahidəsindən doğan səmimi duyğular, insan ömrünün dialektik axarında gördüyümüz həqiqətlər, qocalıq illərində ürəkləri riqqətə gətirən bir həsrət bənövşələrin açılması mənzərəsi ilə bağlanmışdır. Bu şe'r güclü bir poetik assosiasiya yaradır. Uşaqlıq illərində ilk baharda bənövşə dərməyimiz, gənclik illərində ilk sevgi duyğularının bənövşə ətirli, bənövşə ömürlü olması, nəhayət, bənövşə ömrünün azlığı ilə, onun təbiətdən tez köçməsi, həyat həsrəti ilə qocalıq illəri arasında təbii bir bənzərlik görünür.

İlk qələm təcrübələri 20-ci illərin əvvəllərinə təsadüf edən M.Rzaquluzadə sözün tam və geniş mə'nasında öz aydın sənət yolunu tapa bilən bir sənətkar kimi sonrakı illərdə yaradıcılığını poetik tapıntılar və üslub rəngarəngliyi zənginləşdirmişdir. Bu illərdəki yaradıcılığında həm həyatın, yeni nəfəsli mühitin ortaya atdığı suallara realist mövqedən cavab vermək meyli, həm də bu sualların özündən doğan romantik duyğuları gənclik ehtirası ilə qələmə almaq bir vəhdət təşkil etmişdir.

M.Rzaquluzadənin yeni məzmun və forma axtarışları sahəsində keçdiyi ədəbi mərhələləri aydın başa düşmək üçün 1927-ci ildə yazdığı "Bəyaz gecələr" adlı şe'rini yada salaq:

---

1. Rzaquluzadə M.Yaz günəşi.-Bakı.Gənclik.1977, s.10



**Neçin belə hicranlıdır bu yaz gecələr?**
**Ah, dadlı bir əzab olan bəyaz gecələr!..**
**Gümüş aydan könüllərə nur axar kimi,**
**Dənizlər inlər, qəlbində bir dərdi var kimi,**
**Ayın sərin işığında par-par parlayan**
**Sədəf qumlar ağappaqdır, təzə qar kimi...[1]**

Bu şe'r parçasında klassik romantik poeziya üçün səciyyəvi olan obraz və epitetlər, ifadə üsulu, eyni zamanda şe'rin məzmunundan doğan könül iniltiləri, hicran gileyləri, məhəbbətin və romantik duğuların təzadlarından nəş'ələnmək ehtirası, ağlayan və kövrələn təbiət vardı.

Bəyaz gecələrin fonunda biz sevən və sevgisi yolunda əzab çəkən bir lirik qəhrəman təsəvvür edirik. Bu qəhrəmanın təsəvvüründə dəniz inildəyir, təbiət hicran nəğməsi oxuyur. Hər bir misrada romantikanın əlamətlərini şərtləndirən poetik elementlərin forma komponentlərinin şahidi oluruq. Hicranlı gecələr, inləyən dəniz, füsunkar ay işığı, bihuş təbiət, tənhalıq və bu kimi tərkiblər yalnız zahiri əlamətlər olmayıb, eyni zamanda məzmunun özünə də tə'sirsiz qalmır.

Lirik qəhrəman hicran əzablarından gileylənir, həm də bu əzablardan zövq alır.

Hicran-ümman, vəfa yelkən, vüsal - bir gəmi...[2]

Şairin bütün lirik-romantik düşüncələrindən doğan nəticə, həm də subyektiv nəticə budur: Hicran ümmandırsa, vüsal gəmidir. Lakin gəminin hansı sahilə, hansı mənzilə gedəcəyi aydın deyildir. Bu əlamətlərə yalnız M.Rzaquluzadə deyil, başqa şairlərimizin də yaradıcılığında təsadüf etmək mümkündür. Əsrlər boyu klassik qəzəl formasında yazan sənətkarların öz orijinal yazı maneraları, bədii idrak me'yarı, üslubu olmuşdur. Dahi Füzuli yüzlərlə başqa qəzəl şairlərinin müraciət etdiyi köhnə qəzəl formasında yazmış və özünü tamam orijinal bir şair, misilsiz sənətkar kimi tanıda bilmişdir. Məsələ həyata, onun hadisələrinə yanaşmaq tərzindədir. M.Rzaquluzadənin 1927-ci ildə yazdığı başqa əsərinə "Dənizdən çıxan Günəş" şe'rinə diqqət edək. Həmin şe'r iki hissədən ibarətdir.

---

1. Rzaquluzadə M. Nəsillərdən nəsillərə. -Bakı. Azərnəşr, 1965, s.83.
2. Yenə orada.

Şe'rin birinci hissəsində Ay və Günəş haqqında romantik təsəvvür, ikinci hissəsində isə bu romantik xəyalın poetik inkarı, real şüurun parlaq təzahürü vardır.

**Deyirlər ki, ay oğlanmış, gün-qızmış,**
**Günü heç vaxt çılpaq görmək olmazmış.**
**Hər kim baxsa, çılpaq göylərə qızınar,**
**Almaz iynə batırırmış gözünə.[1]**

İkinci hissədə isə:

**Dənizdə çimdi çıxdı,**
**Sulardan çıxan qızın**
**Çılpaq tənini gördüm.**
**Öz almaz örtüyünə**
**Bürünməmişdi hələ.[2]**

Bu parçada dünya və təbiətə, təbiətin hadisələrindən birinə obyektiv və real şair münasibəti vardır.

Şair "Avtobioqrafiya əvəzinə" adlı şe'rində keçdiyi ədəbi mübarizə mərhələləri yaradıcılığındakı təkamülü aydınca göstərə bilir. Bu şe'ri oxuyarkən onun müəllifinin həyatının 20-ci illərdən başlayaraq səhifələrini çevirir, yaradıcılığında poetik mövuları, əsas tendensiyaları təsəvvür edə bilirik. Şe'rdən mə'-lum olur ki, onun poetik yaradıcılıq dünyasında əsas ideyalar bunlardır: Xeyrə məhəbbət, şərə nifrət etmək. Xeyirlə şərin əbədi mübarizəsinə daim şairin öz sözü, öz fikri var. Biz onun hekayələrində, digər ədəbi növ və janrlarda yazdığı əsərlərində də bu ideyaları, bu çarpışan əqidələri görürük.

M.Rzaquluzadənin yaradıcılığının sonrakı mərhələsində də zəmanəsinin əks-sədası aydın eşidilir, hiss edilir. 30-cu illər Azərbaycan poeziyasının "yüksəliş dövrü" olmuşdur. Bu illərdəki poeziya sosialist realizmi metodunun prinsipləri əsasında inkişaf edir, "yeni sosialist varlığının tərənnümü", azadlıq uğrunda xalqın mübarizəsinin əks-sədası və başqa mövzular əsas yer tuturdu. Bu dövrdə vətən məhəbbəti, vətənə olan sədaqət, adamların öz vətəninə olan sonsuz minnətdarlıq hissi, vətəni qorumaq və onun qədrini bilmək arzuları poeziyanın başlıca leytmotivi idi.

------------------------

1. Rzaquluzadə M. Nəsillərdən nəsillərə. -Bakı.Azərnəşr, 1965, s.82
2. Yenə orada



M.Rzaquluzadənin "Vətən nəğməsi" (1937) şe'rində adamların vətənə bağlılığı, onun könüllərə bəxş etdiyi səadət hissi tərənnüm edilmişdir.

İkinci dünya müharibəsi tarixdə heç vaxt unudulmayacaq və gələcək nəsillərə ibrət dərsi ola biləcək bir müharibə kimi yazıçılarımızın yaradıcılığında əhəmiyyətli yer tutmuşdur. Elə bir sənətkarımız yoxdur ki, bu və ya başqa şəkildə müharibə mövzusuna toxunmasın, xalqın bu müharibədəki qəhrəmanlığını, nəcib duyğularını, mə'nəvi-psixoloji aləmini təsvir etməsin. M.Rzaquluzadənin də müharibə mövzusunda maraqlı, əhəmiyyətli əsərləri vardır. "Çağırış" (1941), "Ana öyüdü" (1941), "And" (1941), "Səadət və zəfər" (1944), "Yadındamı" (1944) və başqa bu kimi şe'rlərində yırtıcı faşizmə qarşı dərin nifrət hissi, alovlu bir çağırış vardır. Bu şe'rlərin ruhunda vətəndaş bir şairin səmimi və odlu duyğuları görünməkdədir.

"Çağırış" şe'rində şair öz oxucularına Cavanşirin, Babəkin, Koroğlunun əfsanəvi igidliklərindən dərs almağa, vətəni onlar kimi sevməyə, vətənin keşiyində onlar kimi ayıq, düşmənlərə qarşı bu qəhrəmanlar kimi amansız olmağa çağırır. Şe'rin nikbin bir ideyası vardır:

**"Zəfər bizimkidir, işimiz haqdır,**
**Faşizm öz qanında boğulacaqdır".**

"Ana öyüdü" şe'rində bir ananın simasında milyonlarla anaların ürək sözləri öz əsgər övladlarına olan öyüd və nəsihətləri məharətlə və səmimiyyətlə qələmə alınmışdır.

**Amandır, igidlər, bu azad elə,**
**Qoymayın yenidən qara gün gələ!**
**Qoymayın bu ana Vətən torpağı**
**Ola yad tapdağı, yağı tapdağı.**
**Qoymayın bu elin başı alçala,**
**Dostlar yas saxlaya, düşmən əl çala![1]**

Bu şe'rdə müəyyən mə'nada ifadə bəsitliyi olsa da, anaların vətənpərvərlik duyğuları, böyük eşqi səmimiyyətlə ifadə edilmişdir. Əsərin qəhrəmanı olan ana, müharibənin bütün dəhşət-

--------------------

1. Rzaquluzadə M. Yaz günəşi. -Bakı.1977. s.27

lərini törədəcəyi, müdhiş faciələri hiss edir, onun ürəyi sızıldayır,cəbhələrə gedən oğulları üçün dərin nigarançılıq hissi keçirir, bununla belə bu ananın duyğuları hüdudsuzdur. Onda böyük ana məhəbbəti ilə dərin Vətən məhəbbəti çarpazlaşır. Bunların hər ikisi müqəddəs və məğlubedilməzdir. Ana əsgər oğulları, döyüşçü cavanları vətən torpağını qorumağa, sevməyə çağırır.

M.Rzaquluzadənin şe'rlərinin ruhunda bir sənətkar yanğısı, həqiqi şair iste'dadından doğan bir təşnəlik vardır. Əslində sənət yanğısı olmadan heç bir həqiqi sənət əsərindən danışmaq mümkün deyildir. Əvvəlcə kitabın əvvəlində verilmiş "Xoş gördük" adlı şe'rə diqqət yetirək. Bu şe'r şairlə oxucu arasında səmimi söhbət, şairin müasirləri demək istədiyi ürək sözləridir.

**Nə qədərki, bunlar var,**
**Ey məni oğrun-oğrun**
**Güzgüdən**
**Güdən oğlun,-**
**Durmağı-dincəlməyi**
**Hələ yadından çıxar,**
**Hələ mənzilə çox var.**[1]

Şe'rdə yaratmaq eşqindən doya bilməyən bir sənətkarın obrazını görürük. Elə bir sənətkar ki, onun yaradıcılığı üçün gənclik və qocalıq sərhədləri deyilən hüdudlar yoxdur. Sənətkar yaş e'tibarilə qocala bilər, yorula bilər, sənət üçün isə həmişə yaratmaq eşqi ilə çırpınan bir insandır. O, bütün varlığı ilə gözəlliyə vurğundur, bu gözəlliyin insan mə'nəviyyatındakı tə'sir gücünü təbliğ edir, həyata gözəllik qanunları ilə baxır, bu gözəlliyi duymayanlara qarşı öz nifrətini gizlədə bilmir və oxucularını da bu nifrət və məhəbbətə şərik olmağa çağırır, təhrik edir. Lirik şe'r şairin poetik imkanlarından aşağıdır.

M.Rzaquluzadənin poeziyasında vətənə məhəbbət duyğuları ifadə edən şe'rlər ("Vətən nəğməsi", "And", "Bulvarda" və b.), fəlsəfi-didaktik ("Daha da yüksəklərə", "Yanğı", "Ürəkdə izlər", "Ürək yanır", "Həkim söhbəti", "İnsan ömrü", "Hərəkət", "Sürünənlər, uçanlar"), təbiət şe'rləri ("Bəyaz gecələr", "Bənövşələr açılanda", "Axşam günəşi") daha qabarıq nəzərə çarpır.

---

1. Rzaquluzadə M. Yaz günəşi. -Bakı.1977. s.27



"Vətən nəğməsi" şe'rində şairin vətənə olan məhəbbəti canlı və tə'sirli təşbehlərlə verilmiş, Azərbaycan torpağının müqəlddəsliyi fikri şe'rin əsas ideyasına çevrilmişdir. Şair böyük vətəndaşlıq duyğusu ilə vətən torpağını "sönməz ata ocağı" adlandırır."Ata ocağı" ifadəsi təsadüfi işlənməmişdir. Bu ifadədə müdrik bir ən'ənənin izləri görünməkdədir. Xalq arasında belə bir inam vardır ki, ata ocağını söndürmək naxələflik, atanın ruhuna biganəlik, bir sözlə, əsli-nəcabəti itirmək deməkdir.

**Azərbaycan!..**
**Müqəddəs odlar yurdu, ey Vətən!**
**Ey dünyanın əbədi odlu-nurlu çırağı!**
**Sən insana mehriban məskən olduğun əzəldən,**
**Ey qəhrəman elimin sönməz ata ocağı!**
**...Azad görmək istəmiş mərd övladın hər zaman**
**Cavanşirin, Babəkin alnıaçıq elini.**
**Səməndər tək yarandın alovlardan-odlardan**
**Qardaş ellər uzatdı sənə dostluq əlini!**[1]

Məhdud mə'nada "ata ocağı" ifadəsi bir evin ocağı, bir evin işığıdırsa, geniş mə'nada bu ifadə böyük vətən anlayışı ilə bağlıdır. Vətən sözün həqiqi mə'nasında böyük ata ocağıdır. Bu ocaq əcdadlarımızın ürəklərinin, arzularının yanğısından yaranmışdır. Bu yanğını qorumaq, bu atəşi yeni ürək yanğısı ilə alovlandırmaq, bu yanğının işığında öz həyat yolunu tapa bilmək lazımdır. Vətən ocağının atəşindən alışmaq və ürək yandırmaq, ürəklərə od olmaq lazımdır.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, ən'ənəyə bağlılıq, xalq ruhuna yaxınlıq M.Rzaquluzadə şe'rlərinin əksəriyyətində bu və ya başqa dərəcədə özünü hiss etdirməkdədir. Şair Vətənin keçmişinə bir qədər kədərlə, bir qədər sevinclə baxsa da, əsasən Vətənin şərəfli tarixindən, qəhrəmanlıq səhifələrindən fərəhlənir, iftixar hissi keçirir. Vətənin bu gününə bütün varlığı ilə bağlanır, gələcəyinə isə böyük inam bəsləyir.

Həm də Azərbaycanı - doğma vətəni "ata ocağı" adlandırmaqla şair, vətənimizin "odlar yurdu" kimi şərəfldi bir adını da xatırladır və vətən qarşısındakı borcumuzun nə dərəcədə böyük olduğunu yadımıza salır:

---

1. Rzaquluzadə M. Yaz günəşi. -Bakı, Gənclik, 1977, s.5

**Sən ey Şərqin üfüqündə azad həyat günəşi!**
**Parla, ucal, ellərə fərəh versin gələcək!**
**Başın üstə ucalan azadlığın bayrağı,**
**Daha da ucalacaq, daha da yüksələcək![1]**

Şairin həssas və səmimi duyğuları o qədər həqiqidir ki, bi bütün varlığımızla bu duyğuların yaratdığı nidalara səs veririk.

M.Rzaquluzadənin "And" şe'rində Vətən qarşısında həmiş bir övlad kimi borcluluq, Vətən qeyrəti naminə mə'nəvi cavab dehlik ideyası vardır. M.Rzaquluzadə şe'rdə Azərbaycana gö zəllik və əzəmət verən bütün təbii detalları sadalamaqla kifa yətlənmir, bunları öz şair düşüncəsinin süzgəcindən keçirir, sə mimi poeziya predmetinə çevirə bilir. Təsvir edilən təbii v mə'nəvi faktların arxasında Vətənimizin füsunkarlığını, qəhrə man oğullarını, misilsiz gözəllərini, bütün gözəlliklərini görü rük. Qəlbimiz xoş bir iftixar hissi ilə dolur. Eyni zamanda b gözəllikləri duyan sənətkarın zövqü utilitar səciyyə daşımı Gözəllik şairin mə'nəvi, vətəndaşlıq borcunu daha da artırı Şair bizi bu gözəlliklərin anası olan Azəprbaycanı sevməy çağırır. Şe'rdə qanlı cəllad Hitlerin lə'nətlənməsi də təsadü deyildir. Gözləri qandan doymayan cəlladların alçaqlığı bir d onunla bağlıdır ki, onlar bir insan kimi gözəlliyi dərk etmi ondan zövq almır. Onların mə'nəviyyatı, daxili dünyası boş v qaranlıq sərdabəni xatırladır.

Nəhayət, Vətən torpağının əsrarəngiz gözəlliyi qarşısınd kövrələn, böyüyən, iftixar hissi keçirən şair bu gözəllik qa şısında and içir. Bu and milyonlarla Vətən övladının and məslək hökmü kimi səslənir:

**Elimin pak, ləkəsiz**
**Vicdanına and olsun!**
**And olsun işıqların**
**Telli-sədəf sazına!**
**Sevib-sevilənlərin**
**Əhdinə-vəfasına!**
**Qoymarıq bu ana yurd,**
**Əziz Vətən torpağı**

------------------------

1. Rzaquluzadə M. Yaz günəşi. -Bakı, Gənclik, 1977, s.5



**Ola yadlar, yağılar**
**Ayağının tapdağı.[1]**

Bununla belə şe'rin özündə də yerinə düşməyən ifadələr, adi, prozaik ifadələr və qeyri-poetik hökmlər təəssüf doğurur.

Göründüyü kimi, bu misralarda ritorik bəsitlik aydın duyulur. Obrazlılıq əvəzinə təkrar olunmuş söz yığını vardır. Bəlkə də bu nöqsan predmetə-poetik obyektə konkret yanaşmamaqdan irəli gəlmişdir. Dərin hissiyatdan doğan duyğular rabitəsiz olduqda bu duyğuların ifadəsində də bir pərakəndəlik olur. Bununla belə, M.Rzaquluzadə vətənin böyüklüyünü, müqəddəsliyini ayrı-ayrı misralarında şirin, canlı poetik obrazlarla da ifadə edir.

Ömrünün çoxunu təbiətin qoynunda keçirən şair, təbiəti insanın mə'nəvi aləmi ilə, arzu və istəkləri, məhəbbəti ilə vəhdətdə götürür. Təbiətlə insan qarşılaşdırılır, üz-üzə gətirilir. İnsanın daxili aləmi təbiətdə, füsunkarlığı ilə insan arzularında dilə gəlir.

**Sərin-sərin meh əsəndə**
**Səhər-səhər**
**Üfüqləri bəzəyəndə**
**Al şəfəqlər,**
**Ürəklərdə ilk duyğular**
**Dilə gələr**
**Bənövşələr açılanda.[2]**

Təbiət-onun bənövşələri, füsunkar gözəllikləri sakit və coşqun dənizlər,gömgöy səmalar, parlaq günəş insanı, həyatı sevməyə, onun qədrini bilməyə çağırır. Təbiət bə'zən insan ömrünün dərinliklərində gizlənən duyğulara bir təravət gətirir, onları dirildir, həyatın axarına gətirir, onlara yaşamaq və yaşatmaq hüququ verir. Şe'rin ümumi pafosu belədir.

Təbiət şairin təsvirində bə'zən coşqun, təlatümlü, fırtınalıdır. Bu zaman bizdə mübarizlik duyğuları oyadır. Bə'zən də onun təsvirində sakit və laldır.

Təbiətin bu zahiri sükutunda lal axarında şair rahatlıq duyur. Bu sakit təbiətin qoynunda şair özü də elə bir dincəlir, nəfəs alır. Şair ürəyi məhəbbətlə, sevgi və nifrətlə, insana qayğı ilə

------------------------

1. Rzaquluzadə M. Yaz günəşi, s.31
2. Yenə orada.

doludur. Bu ürəkdə insan ehtiraslarının əzəli və əbədi çarpışması, insan ruhunun əlçatmazənginlikləri gizlənmişdir. M.Rzaquluzadənin belə şe'rlərində təbiət insanı, insan isə təbiəti tamamlayır. "Bəyaz gecələr" şe'rində həzin bir romantika, uyuyan poeziya vardır:

**Nə bir səs var, nə bir nəfəs,**
**Təbiət bihuş,**
**Hər yer sakit,**
**Şirin-şirin hamı uyumuş...**
**Ah bu gecə uyumayan tək bircə mənəm,**
**Bir də tənha sahillərdə inləyən bir quş...[1]**

Bu şe'rdəki həzinlik 20-ci illər üçün səciyyəvi olan "Ələmdən nəş'əyə" (S.Rüstəm) keçid dövrünün romantik hüznüdür. Bununla belə şe'rdə hər cür kədəri - vətəndaşlıq duyğularından, insan düşüncələrinin təzadlı aləmindən, insan məhəbbətinin sonsuzluğundan doğan kədəri rədd etmək poeziyanın qanunlarına zidd getmək deməkdir. Kədər düşüncələr selidir. Düşüncələrin isə öz aləmi, öz dialektikası var. Onun enişləri və yoxuşları olur. Həmişə sevinməyi normal hal hesab edib, qəmi sün'i surətdə poeziyadan uzaqlaşdırmaq klassik poeziya ən'ənələrinə, həm də realizmin özünə də zidd bir iddia olardı. Həyatın və insanın təbiətinin ziddiyətləri poeziyanın əbədi predmetidir. Məsələ sevincin, yaxud qəmin inandırıcı verilib-verilməməsindədir.

M.Rzaquluzadənin poeziyasında nikbinlik aparıcı əlamətlərdəndir. Lakin onun kədər saçan şe'rləri də var. "Axşam günəşi" belə şe'rlərdəndir. Bu şe'rdə həzinlik doğuran təsvirindən sonra nikbin bir final gəlir:

**Buna görə axşam**
**Günün batması mana**
**Nə qəm gətirir, nə qüssə, nə kədər.**
**Bilirəm ki, yenə**
**Açılacaq səhər![2]**

Deməli, həyatda bir uğursuz, təsadüfi, kədərli bir hadisəni görüb düşünmək, mütəəssir olmaq hələ bədbinliyə qapılmaq

---

1. Rzaquluzadə M. Yaz günəşi. s.22.
2. Rzaquluzadə M.Yaz günəşi, s.24



deyildir, həyata şairanə münasibətdən çıxarılan nəticədədir.

M.Rzaquluzadə ikinci dünya müharibəsi dövründə öz qələmini süngüyə çevirən şairlərimizdən olmuşdur. O sanki müharibədən qabaq içdiyi andlara müharibə dövründə əməl etmək üçün mübarizə çağırış ruhlu şe'rlər yazmış, xalqı, bəşəriyyəti ölüm və səfalətlə hədələyən düşmənə qarşı səfərbər olmağa çağırmışdır. Bu dövrdə yazdığı şe'rləri ruhən S.Vurğun, S.Rüstəm, R.Rza, Ə.Cəmil və başqa şairlərin əsərləri ilə səsləşsə də onun orijinal təsvir yolu var. Əslində əsərləri bu dövrdə yaradılan əsərlərin çox vaxt oxşarlığını bütün sənətkarların eyni bir mübarizəyə cəlb edilmələrilə əlaqələndirmək lazımdır. Zaman qısa, lakin həyəcanlı, çağırış ruhlu poeziya tələb edirdi. Bu poeziyada nifrətlə məhəbbətin qarşılaşması, xeyir qüvvələrlə şər qüvvələrin mübarizəsi, lakonik və emosional şəkildə verilməli idi. Şe'r döyüşçü üçün silaha, arxadakılar üçün mə'nəvi qüdrətə çevrilməli idi.

Bütün bunlarla yanaşı poeziyanın ruhunda vətən və xalq məhəbbəti durmalıdır. Müharibənin ağır günlərində Səməd Vurğun xalq məhəbbətini sənətkarın əsas qayəsi hesab edir və deyirdi: "Xalq məhəbbəti-bizim ilhamımızdır, məni sənət aləmində xarüqələr yaratmağa çağıran ən böyük və qadir bir amildir. Bu amil bizi yaşadır, bizə yeni yeni yaradıcılıq ilhamları və qüdrətləri verir. Sənətkarın nəfəsi xalq nəfəsi olduğu zaman həyat və tarix onun zəhmətini çiçəkləndirər və təqdir edər".[1]

Bədii əsər o zaman qüvvətli olur və o zaman ruhu, qəlbi tərpədə bilir ki, müəllifin hiss və duyğuları bilavasitə onun varlığı təmasından eyni zamanda dərin bir səmimiyyətdən doğsun. M.Rzaquluzadənin əsərlərində müəyyən hallarda zəifliyə rast gəlmək olur, lakin o həmişə səmimidir. Bu səmimiyyətlə o, bə'zən nöqsanlarından da yüksəkdə dayanır. Şairin müşahidələrində oxucunu tə'sirləndirən, real aləmin romantik güşələrinə səsləyən bir cazibə qüvvəsi vardır. Professor Camal Əhmədov yazır: "M.Rzaquluzadə təbiətə vurğun olan sənətkardır. O, Azərbaycan torpağını qarış-qarış gəzibdir. Təbiətə səyahət etdiyi günləri həmişə yada salır. S.Vurğunla gəzdiyi, gördüyü yerləri xoş xatirələr kimi heç vaxt unutmur. Axı, necə də unutsun. O, arxa-

---

1. Vurğun S. Ədəbiyyat qəzeti, 1944. №14

sınca gecəli-gündüzlü düşdüyü günlərdə heç vaxt həris ovçu olmamış, təbiətə düşmən kəsilmiş ona dost kimi yanaşmışdır. Təbiət də öz dostundan kömək əlini üzməmiş, onun poetik düşüncəsini cilalamış, ona yeni mövzular bəxş etmişdir".[1]

Lakin bu fikirlərdən belə səhv nəticə çıxarmaq olmaz ki, sənətkarın həqiqi sənət əsəri yarada bilməsi üçün yalnız təbiətin qoynunda olmaq, dərin müşahidə kifayət edə bilər. bu belə deyildir. Müşahidə hələ hissi prosesdir, duyğu mərhələsidir. Sənətkar bu duyğuları poeziya səviyyəsinə qaldırmaq üçün predmet və hadisələrin arxasında olan mahiyyəti görməli, yaxud onları mə'nalandırmağı bacarmalıdır.

M.Rzaquluzadənin "Günəş" adlı şe'rində belə bir ifadə var:

**Ey yandırıb-yaradan,**
**Ey yığıb - quran atəş![2]**

Bu sözlər gəlişi gözəl olduğu üçün deyilməmişdir. Günəşin qüdrəti, qiyməti onun hərəkətində, atəşindədir.

O şey ki, yandırır o, məhv edir. Adətən yanğı viranedici, dəhşətli bir anlayış kimi təsəvvürümüzdə həkk olunmuşdur. Lakin Günəş elə bir əbədi oddur ki, yandırıb yaradır, onun yanması bütün kainata həyat verir. Günəşsiz həyat yoxdur. Deməli yanğısız da həyat yoxdur.

M.Rzaquluzadə hadisə və faktları mə'nalandırarkən, təsvir obyektinə poetik mə'na verməyə çalışır. Bə'zən onun fikirlərində didaktik bir soyuqluq olsa da, tə'sirsiz olacağını iddia etmək olmaz. Ümumiyyətlə, müasir ədəbi tənqidə çox vaxt didaktika kor-korana rədd edilir, onun böyük tarixi-tərbiyəvi funksiyası unudulur.

Şərq ədəbiyyatı tarixini bütün dünyada məşhurlaşdıran onun fəlsəfi-didaktik qüdrətidir. Lakin didaktik fikrin tə'sirli olub-olmaması iste'dad dərəcəsindən asılıdır.

Əlbəttə, M.Rzaquluzadə yaradıcılığında klassik mə'nada fəlsəfi şe'r axtarmaq cəhdi yersiz olardı. Lakin, ümumiyyətlə, onun bir sıra şe'rlərində bütövlükdə, bə'zilərində isə tərkib halında fəlsəfi fikirlər, həyat hadisələrinə həssas intellektual münasibət, adi hadisələrdə insan ömrü üçün xarakterik olan fəlsəfi cizgiləri

---

1. Əhməd C. Uşaqlar sabahımız, gələcəyimiz. Ulduz, 1975 №7, s.51
2. Rzaquluzadə M. Yaz günəşi, s.6



görə bilmək bacarığı hiss edilməkdədir. Bir sözlə, şair həm tərənnüm edir, həm də onu bədii-fəlsəfi cəhətdən mə'nalandırır.

Bə'zən fəlsəfi duyum, düşüncə və fikirlər onun şe'rlərində assosiativ səciyyə daşıyır.

Şairin "Kim" adlı maraqlı bir şe'ri vardır. Şe'rin qısa məzmunu belədir: xəstə həkimin yanına gəlib yaxşı eşitməməsindən şikayətlənir. Həkim "nəyi eşitmirsən?", deyə sual verdikdə xəstə belə cavab verir:

**-Xırdaca quşların ötüşməsini,**
**İnci şeh damcılarının sədəf qumlara düşməsini,**
**Yarpaqların pıçıltısını,**
**Narın yağış çiləyəndə-**
**Otların xışıltısını,**
**Səba yelinin həzin təranəsini...**
**Bir sözlə,**
**Təbiətin nəğməsini...[1]**

Həkim bu izahata təəccüblənir və xəstəni "qəribə adam" adlandırır. Doğurdanmı, xəstə qəribə adamdır? Əslində xəstə normal, həm də yüksək dərəcədə həssas, romantik, həyatın mə'nasını yalnız yemək-içməkdə görməyən bir insandır.

Həkimin təsəvvüründə insan üçün bioloji kəsir yalnız adi məişət səslərini eşidə bilməmək, daha doğrusu eşitməkdən məhrum olmaq deməkdir. Şe'rin müsbət qəhrəmanı olan xəstə isə həyatı, insan anlayışını çox daha dərin mə'nada başa düşən insandır.

Əgər insan quşların ötüşməsini, onların poeziya ilə dolu nəğmələrini, qayğısını, səslərini eşitmirsə, xəstədir. Əgər insan inci şeh damcılarının sədəf qumlara düşməsini eşitmirsə, yarpaqların pıçıltısındakı əsrarəngiz mə'naları eşidib-duymursa, xəstədir. İnsan narın yağış çiləyəndə otların xışıltısını, səhər yelinin həzin təranəsini - bir sözlə, təbiətin sirli-soraqlı nəğməsini eşitmirsə, demək xəstədir, ürək öz həssaslığını, mə'nalı həyat funksiyasını itirmişdir. Əgər belədirsə, insan ömrü yarımçıq yaşayır. Hər cür gözəllikdən, hər cür poeziyadan məhrum olan həyatın isə heç bir fəlsəfi mə'nası ola bilməz. Onda bəs şe'rin ideyası nədir: insan bütöv, kamil varlıqdır. Onu xırdalamaq, yalnız

---

1. Rzaquluzadə M.Yaz günəşi, s.15.

instinktlərin əsirinə çevirmək olmaz! İnsan təbiəti bütünlükdə duyduqda, bütünlüklə təbiətlə qaynayıb qarışan, təbiətin əlavəsinə deyil, təbiətin canlı bir hissəsinə çevrildikdə insan hesab edilə bilər. İnsan üçün təbiət, onun səsləri, qaynarlığı ölübsə, insan özü də ölüm ayağındadır. Şe'rin fəlsəfi ideyası belədir.

Şair oxucusuna sual verir: "Kim qəribə adamdır?". Həkim, yoxsa əsl insan kimi yaşamaq istəyən xəstə? Şair bu suala cavab vermək istəmir. Çünki bu sualın cavabı aydındır. Göründüyü kimi, şair burada fəlsəfə dərsi açmamış, həyatın adi bir təzahüründə onun fəlsəfəsini bədii konkretliklə, əyaniliklə əks etdirmişdir. Fəlsəfi idrak öz zahiri dəbdəbəsini, hər cür parıltısını itirərək, adi həyat həqiqəti kimi səslənmişdir.

Bir də qeyd etmək lazımdır ki, sərbəst şe'r heç də qoruqqaytaq bilməyən, hər cür sistemdən məhrum bir bədii forma deyildir. Sərbəstlik dedikdə yalnız formanı nəzərdə tutmaq lazım deyil, şe'rin daxili ritminin, fikirlərin, şairanə mühakimələrin də sərbəstliyi nəzərdə tutulmalıdır. Sərbəst şe'rdə sərbəst intonasiya əvəzinə, gərəksiz patetika, hay-küy heç cür rəğbət qazana bilməz. Yaxşıdır ki, bə'zi şe'rlərini istisna etməklə, M.Rzaquluzadənin əsərlərində bu ritorikanı görmürük. Lakin onun sərbəst şe'rlərində bə'zən misraların tənasübü elə bil ki, sün'i surətdə pozulur. Bu da aydın bir həqiqətdir ki, şe'r hər şeydən insan fikirlərini gözəl bir formada sistemə salan, insan fikirlərindəki ahəngdarlığı bir ölçüyə salan sənətdir. Hər cür gözəl, mə'nalı fikir öz poetik qəlbini tapmadıqda dağılıb gedir.

M.Rzaquluzadənin "Həkimlə söhbət" şe'ri bu baxımdan onun uğuru hesab edilməlidir. Şairin fəlsəfi şe'rləri bilavasitə insanla, onun arzu və əməlləri ilə bağlıdır. Elə buna görədir ki, şair minarələrdə "insan göylərə ucalaraq daş olmuş əllərinni" görə bilər. Onun poeziyasında insana, onun yaradıcı əməyinə inam güclüdür:

**İnan, insana inan!**
**Nə qədər bərkə düşsə, sönməz qəlbində vicdan.**
**Doğru deyən dili, düzü görən gözü var![1]**

Bizim poeziyamızın çox qədim ən,ənələrindən biri də humanizm, insana inam hissi ilə möhkəm bağlı olmuşdur. Bu inam

----------------------

1. Rzaquluzadə M.Yaz günəşi.s.64



poeziyamıza ömür vermiş, onun fəlsəfi siqlətini artırmışdır.

M.Rzaquluzadə poeziyasında insana inam müxtəlif bədii aspektlərdə təzahür edir. Şair insana inamı təbliğ edərkən insan qəlbinin ənginliklərini də unutmur, onu da məhəbbətlə tərənnüm edir:

**Ürək qranitdən möhkəm olsa da,**
**Yanan şamlar kimi bə'zən yumşalır.**
**Onda məhəbbətin, səmimiyyətin,**
**Qəzəbin, nifrətin izləri qalır.[1]**

İnsanın böyüklüyü, əzəməti bu misralarda çox təbii şəkildə verilmişdir.

Hərəkət həyatın əbədi mənbəyi, əbədi varlıq forması, mahiyyətidir. Dünyanı hərəkətsiz təsəvvür etmək mümkün deyildir. "Bizim canımız, diriliyimiz hərəkətdədir". Göründüyü kimi, şair də bu fəlsəfi hökmü təsdiq edir.

Dayanmaq, susmaq, hərəkətsiz olmaq diriliyin, həyatın yoxluğu deməkdir. Bütün bunlar aydın, çox deyilmiş həqiqətlərdir. Lakin şair mə'lum həqiqəti elə bir hadisə fonunda göstərə bilərdi ki, orijinal bir sənət əsəri meydana çıxardı. Təəssüf ki, "hərəkət" şe'ri başdan ayağa mə'lum fəlsəfi mühakimələrin deklarativ deyinməsindən ibarətdir. Burada poeziya əvəzinə soyuq mühakimə, canlı şairanə hökmlər, emosional təfərrüatlar əvəzinə, məntiqi və fəlsəfi sillogizmlər vardır.

"Hərəkət" şe'ri uğursuz, təkrar tə'siri bağışlayan bir sonluqla bitir:

**Hər şey həmişə**
**Hərəkətdədir![2]**

Folkloru dərindən bilən şairə yaxşı mə'lumdur ki, xalq dünyanın dialektikasını çox sadə və təbii, obrazlı şəkildə belə ifadə etmişdir:

**Dünya bir pəncərədir,**
**Hər gələn baxar gedər.**

Lakin əbədi hərəkət, əbədi metamorfoza fikri şairin "İnsan ömrü" şe'rində daha konkret, daha tə'sirlidir.

----------------------

1. Rzaquluzadə M.Yaz günəşi.s.11
2. Rzaquluzadə M.Yaz günəşi, s.17.

**İnsan ömrü**
**Ən uzun ömürdür bu dünyada:**
**Keçsə də min-min illər.**
**Yox olsa da bu dünyadan**
**Neçə-neçə nəsillər-**
**Kalizey dağılsa da,**
**Dante həmişə sağdır.**
**Qocaman Olimp bir gün**
**Yerlə yeksan olsa da**
**Homer yaşayacaqdır![1]**

Həyatda varlıq formaları həmişə bir-birini əvəz edir. Bir varlığın sonu başqa varlığın əvvəli deməkdir. Heç şey yox olmur, hərəkət edir, bir hərəkətin sonu başqa hərəkətin varlığını yaradır. İnsanın ölümə qədərki ömrü qurtardıqdan sonra bu ömrün başqa yaşamaq forması meydana çıxır. Olimp, Kalizey dağılsa da, Dante ölməz sənət əsərində əbədi olaraq əbədiləşir.

Daha sonra konkret desək, insanın öz yaratdıqları ilə əbədiləşir, sonsuzlaşır və ömür çərçivəsinin hdudlarını aşır. İnsanın əzəmət və qüdrətini tərənnüm edərkən şair belə mə'nalı ştrixlər tapa bilir. Lakin bə'zən gözəl bir fəlsəfi fikir üçün münasib ifadə tərzi, münasib forma, fon tapa bilmir. Bu vaxt özlüyündə yaxşı olan fikir bəsitləşir, soyuq mühakiməyə çevrilir. Şairin "Sürünənlər, uçanlar" şe'ri bu qəbildəndir. Şe'r üçün müəllif M.Qorkinin məşhur aforizmini epiqraf gətirmişdir. "Sürünmək üçün yaranan uça bilməz". Belə dərin aforizmlə başlanan şe'rin elə məzmunu, hissi əsası olmalıdır ki, ideyası məşhur aforizmi xatırlatmaqla yeni bir çalarda, yeni mə'na intonasiyasında səslənə bilsin, təkrarı olmasın.

**Şahin ölsə də hətta**
**Yerdə sürünüb ölməz.**
**Uçar, uçar, ucalar-**
**Şimşəklərin qoynunda,**
**Ucada, göydə ölər!.[2]**

Burada ideya şe'rin epiqrafını eynilə təkrar edir. Qeyd etmək lazımdır ki, M.Rzaquluzadənin şe'rlərində bə'zən sözlər, ifadə

---

1. Rzaquluzadə M.Yaz günəşi. s.19.
2. Rzaquluzadə M. Yaz günəşi. s.21



və tərkiblər lazımi emosiyanı yarada bilmir. Adi, prozaik, soyuq ifadələr şe'rin ümumi ahənginə uymur. Onun üçün yamağa çevrilir, bir yeknəsəklik yaradır. Yuxarıda misal gətirdiyimiz şe'r parçasındakı ifadələr obrazlıqdan məhrum soyuq və tə'sirsizdir. Mə'lum aforistlik fikrin zəif şəkildə şərhindən başqa bir şey deyildir.

M.Rzaquluzadə fərdi üslubu, özünəməxsus sənətkarlıq xüsusiyyətləri olan şairdir. İlk baxışda sadə görünən obyektlər deyək ki, Xəzər, minarə, bulvar və sairə onun uğurlu şe'rlərində poetik təhlil predmetinə çevrilir və bu predmetlərin görünməyən tərəfləri müvəffəqiyyətlə istifadə edilir. Nəticədə dəli xəzrinin gö- rümlü obrazı yaranır, yağışın-yağmurun təbii və şairanə səsi eşidilir.

"Yaz günəşi" kitabında şair xitablardan, bədii nidalardan, təkrirlərdən və başqa ifadə vasitələrindən geniş istifadə edir. Lakin bə'zən təkrir təkrara, xitablar isə ritorikaya çevrilir və əsərin ümumi ahəngdarlığına xələl gətirir.

"Günəş", "Yanğı", "And" və başqa bu kimi şe'rlərdə dediklərimizi sübut edən misallar tapmaq olar.

M.Rzaquluzadənin sənətkarlıq xüsusiyyətlərindən danışarkən qeyd etmək lazımdır ki, şairin bütünlüklə üslubu onun sənətkar fərdiyyətini təsdiq edir, lakin bu üslub yazıçının geniş diapazonlu yaradıcılığında passiv vərdişə, yazıçılıq ştampına, etalona çevrilir. Hər hansı bir yazıçının üslubi zahirən, formal cəhətdən artıq tamamlanmış, dəyişməz görünsə də, bu üslubun köz daxili potensial imkanı vardır, yə'ni üslub zahirən sabitləşir, əslində isə hər bir fərdi üslubun çox cəhətli qol-budaqları, çalarları vardır. Üslub vahidliyi yazıçını başqalarından ayırır. Onun həyata baxışlarını, analitik təfəkkürünü, bədii idrak məntiqini müəyyən mə'nada sistemə salır. Üslub sənətkar qəlbində yanan yaradıcılıq atəşidir. Lakin bu atəşin saysız-hesabsız şüaları vardır.

Bir var ki, yazıçının hadisələrə münasibətindən doğan sənətkar dünyagörünüşünü sabitləşdirən və onun fərdi duyma bacarığının ümumi əlaməti, bir də var ki, hər detalın, hər fikrin ifadəsi üçün üslubun özündən doğan stilistik imkanlar. Üslub ümumi magistral, ondan doğan ifadə imkanları isə cığırlardır. Bunların hamısı birləşib ideyanın, əsərin ümumi pafosunun izahına xidmət edir.

Dil və dil vahidi olan söz yazıçının əsas silahı, əsas vasitəsidir. Mə'lumdur ki, fikir yalnız gözəl ifadə edildikdə mə'nalı olur. Çünki söz fikrin qəlibidir. Söz çiçək, fikir isə onun ətridir.

Bunları bir-birindən ayrı təsəvvür etmək olmaz. Eyni sözlə müxtəlif münasibətləri ifadə etmək olar. Bunun üçün yalnız sənətkar qüdrəti tələb olunur. Bu qüdrət görkəmli sənətkarımız M.Rzaquluzadənin yaradıcılığında da aydın hiss olunur.

M.Rzaquluzadənin imkan daxilində təhlil etdiyimiz şe'rləri sübut edir ki, onun poeziyası insana məhəbbət, təbiətə sevgi, dünya hadisələrinə, bəşəri duyğulara ayıq münasibət, vətəndaşlıq yanğısı, doğma torpağa sədaqət, mə'nalı yaşamaq ehtirası kimi qiymətli əlamət və duyğuları təsvir və tərənnüm edir, oxucunun estetik zövqünün tələblərinə cavab verir.

Şairin poeziyasında konkret obrazlarla verilən bədii, estetik duyumlar oxucuda belə bir qənaət yaradır ki, M.Rzaquluzadənin poeziyası sevilməyə, təqdir edilməyə, təhlil və tədqiq edilməyə layiqdir.

## SATİRİK ŞE'RLƏRİ

M.Rzaquluzadə bir çox illər ərzində öz qələmini satira sahəsində də sınamış və bu janrın uğurlu nümunələrini yarada bilmişdir.

Mə'lumdur ki, "satirik əsərdə çox vaxt yazıçı həyatın mənfi tərəflərini qəsdən qabarıq təsvir edir ki, mübaliğəli, gülməli, bə'zən də eybəcər şəkildə təsvir edir ki, bunun nəticəsində həmin mənfiliklərin şərəfli insan həyatına yüksək qayələrə zidd olduğu, bu mənfiliklərin dözülməzliyi daha aydın meydana çıxır. Odur ki, realistcəsinə yaradılan satirik surətlər həyatdakı mənfi hadisələrə qarşı dərin nifrət və qəzəb hissi oyadır, oxucunu bu cür hadisələrlə mübarizəyə çağırır".[1]

Ciddi şe'rlərində həyatdakı müsbət və işıqlı idealları konkret bədii vasitələrlə təsdiq edən şair, öz satiralarında bu idealların antipotlarını ifşa edir, müsbət fikri tənqid olunan hədəflərin fövqünə qaldırır.

Onun tənqid hədəfləri zahiri gözəlliyə aludə olanlar (Kamal və Camal), nadanlıq və cəhalət ("Adam-alim"), əqidəsizlik ("Məsləkbaz timsah"), natəmizlik ("Tovuz və dəniz"), öz nöqsanını görməmək ("Uşaq, at və həyat"), kobudluq ("Qorucu") və sair bu kimi normal əxlaqa zidd məsələlərdir.

Bu satiralarda şair faydalı didaktik nəticələr çıxarır və oxucuya düzgün istiqamət verir.



M.Rzaquluzadə öz satiralarında da birinci növbədə müasir həyatın tələblərini eşidir, müasirlərini ifşa etdiyi hədəflərdən uzaq durmağa, onlara qarşı mübarizə aparmağa çağırır.

Şairin "Kamal və Camal" satirasında zahiri gözəlliyi məqsəd hesab edən, ona aludə olub, mə'nəvi kamilliyi unudanları tənqid hədəfinə çevirmişdir. Yazıçı xalq ədəbiyyatının gözəl bilicisi, rəvayətlərə yaxşı bələd olan bir sənətkar kimi, eşitdiyi rəvayətlərdən ibrətli olanları seçir və bu rəvayətlərdəki gülüşü, yumor və satiranı əsərinin məğzinə xidmətə yönəldir. Onun satiraları bədii ümumiləşdirmə əksər hallarda uğurlu olur.

"Kamal və Camal" satirasında göstərilir ki, naz-ne'mət içərisində yaşayan bir gözəl, nəhayət həyatdan doyur, guya fədakarlıq etmək istəyərkən, zahirən gözəl olmayan, mə'nəvi kamillik dərəcəsinə görə isə misilsiz bir insan olan filosofa ərə getmək istəyir. Filosof dünya görmüş müdrik bir insan olduğu üçün gözəlin mə'nasız təklifi qarşısında əyilmir. Gözəlin fikrincə əgər filosofa ərə gedirsə, onlardan olan uşaq gözəllikdə ona, ağıl-kamalda isə atasına çəkər. Filosof isə qısaca belə cavab verir:

**Düzü, qorxuram ki,**
**O yazıq səhvən**
**Hüsnü məndən ala,**
**Kamalı səndən![1]**

Beləliklə, müəllif belə bir sağlam ideyanın tərəfində durur ki, ağıl-kamal həyatın özündə qazanılır və o, adama hazır şəkildə verilmir. İkinci tərəfdən ağıllı insanlar əsil gözəlliyi insanın zahirində deyil, daxilində axtarır. Mə'nəvi gözəllik ən uzun ömürlü gözəllikdir.

"Uzun və böyük" satirasında isə şair yenə də rəvayətdən istifadə edərək incə bir mətləbə işarə vurur: "Böyüklük" anlayışı insanın mə'nəvi aləminin zənginliyi, əzəməti ilə bağlıdır. Bədəncə uzun olanlar yox, ağılca dərin olanlar böyük hesab edilməlidirlər. Lakin müəllif bu fikirlə də məhdudlaşmır, ideyanı inkişaf etdirərək, onu daha da müasirləşdirir, bu fikri sənət və sənətkar problemi ilə bağlayır: sənət əsəri həcminin böyüklüyünə, hadisələrin uzun təsvirinə görə deyil, məzmununa,

---

1. Rzaquluzadə M. Yaz günəşi. s.69

ifadə etdiyi fikirlərin dəyərinə görə qiymətləndirilir. Deməli, şair mə'lum bir rəvayətin məzmununu gözəl bir ideya ilə məharətlə bağlaya bilmişdir:

**Qoy bilsin-eşitsin uzun yazanlar,**
**Uzunla**
**böyüyün**
**Böyük fərqi var![1]**

Şairin "Adam-alim" şe'rində nadanlıq, cəhalət, qədirbilməzlik tənqid olunur və şe'rdən belə obyektiv nəticə çıxır ki, nadan və cahil adam hansı səviyyəyə çıxırsa-çıxsın öz nadanlığını saxlayır. "Adam olmaq çətin, alim olmaq asanmış".

Müəllif nadanlığa, mə'nəvi kasadlığa güldüyü kimi, məsləksizliyi də rədd edir, onu eybəcər bir antipot kimi ifşa edir. Timsah surətində yazıçı gündə bir dona girən, gündə bir məsləkə qulluq edən prinsipsiz adamları tənqid hədəfinə çevirir.

"Gözəllik barəsində" adlı şe'rində müəllif ceyranın timsalında çirkinliyi və eybəcərliyi nəzərdə tutaraq onları qarşılaşdırır. Yazıçının demək istədiyi mətləb aydın olur: həyatda bə'zən öz kamilliyi ilə şöhrət tapan insan eybəcər xarakterli adamla yanaşı qoyulur, lovğa, xudpəsənd, riyakar bir adam gözəl bir insanla yol getməli, yaşamalı olur. Gözəl mə'nəviyyatlı bir insan bə'zən nadan və cahil bir adamın qurbanı olur. Bə'zən çirkin ehtiraslar, işıqlı fikirləri olan insana qubar verib, onun həyatını zəhərləyir.

Lakin şairə iradımız budur ki, bu şe'rdə də mətləb uzadılmış, xüsusilə əsərin sonunda tənqid atəşinin hədəfə sərrast dəyməsinə mane olan artıq sözlər işlədilmişdir.

M.Rzaquluzadə satiralarında bə'zən lövhə yaradaraq fikirlərini daha qabarıq çatdırır. "Səxavətli xanım" adlı şe'rində mə'nasız moda, ədabazlıq, özündən müştəbehlik, özü ləyaqətsiz olduğu halda başqalarına çox yuxarıdan baxan meşşanlar ifşa edilir. Bulvarda gedən bir xanım trolleybusda bilet satan geyimli, ənlik-kirşansız qızdan pul verib bilet almaq istəmir. Bununla özünü səxavətli göstərmək istəyir. Şair bu xanımın zahiri eybəcərliyi ilə daxili boşluğunu vəhdətdə götürür:

---

1. Rzaquluzadə M. Yaz günəşi. s.78



**Gözlərinin altı-üstü qapqara**
**Kipriklər bir qarış,**
**(sintetika yapışdırılmış)**
**bir aptek boyaqdan suvaq çəkilmiş**
**üzünə,**
**gözünə,**
**yanaqlarına, dodaqlarına..**
**Bircə şey çatmır ancaq.**
**"Diqqət, diqqət**
**Rənglənmişdir!"[1]**

Yaxşı və sərrast deyilmişdir. Həyat elə bir təbii qanunla axır ki, bütün canlı varlıqlar özlərini təsdiq üçün can atır. Hər kəs öz ətrafındakılara varlığını sübut etmək istəyir. Lakin hərə bir yolla: kimi zahiri təmtəraq və bər-bəzəklə, kimi yalançı səxavətlə, kimi də öz zəhməti, əqli-kamalı ilə! Əslində sadə zəhmət adamları heç özlərini nümayiş də etdirmirlər. Buna ehtiyac da yoxdur. Çünki onların sadə əməlləri gez-tez onları tanıdacaqdır. Şairin gəldiyi nəticə məhz belədir!

M.Rzaquluzadənin tənqid hədəflərindən biri də həmişə yerli-yersiz başqalarını günahlandırmaq istəyən adamlardır. Belə adamları tənqid etməklə şairin oxucuya demək istədiyi fikir də aydındır: başqasını dərhal günahlandırmağa can atma, bir öz daxilində də, öz nöqsanlarına diqqətlə bax!

M.Rzaquluzadənin satiralarında da fikir həmişə müasirdir.

Onun tənqid və inkar etdiyi nöqsan və eybəcərliklər həyatda inkişafa mane olur: Belələrini ifşa etmək etmək üçün həmişə sərvaxt olmaq lazımdır.

Şair "Qorucu" şe'rində kobudluğu, "Dozanqurdu və sair həşərat" əsərində əməldə və dildə olan natəmizliyi tənqid edirsə, "Aslan ürəyi" şe'rində mərdlik və namərdlik qarşılaşdırılıb müqayisə edilir. Əsərin qısa məzmunu belədir: bir aslanın ürəyini bir çaqqala calayırlar. Çaqqal sağalır, sağalan kimi vüqarla gəzməyə başlıyır, özünü bütün hərəkətlərində aslana oxşatmaq üçün cəhd edir. Lakin bir gün meşədə bir canavara rast gəlir və dərhal yenə öz əslinə qayıdır, yenə tülküləşir və qorxudan ürəyi partlayır. Mətləb aydındır. Cəsarət, vüqar, mərdlik, həmçinin namərdlik,

---

1. Rzaquluzadə M. Yaz günəşi. s.78

qorxaqlıq və yaltaqlıq xislətlə, təbiətlə bağlıdır. Bütün bunları sün'i dəyişmək olmaz. Bu şe'r bir vaxt qəzetlərdə sensasiyaya səbəb olmuş bir xəbərlə səsləşir. Bir adamın ürəyinin başqasına köçürülməsi barədə şair B.Vahabzadənin də bir şe'ri vardır.

B.Vahabzadə Amerika alimi R.Uaytın meymunun beynini bədəndən ayrı uzun müddət yaşatması xəbərini eşidib dünya filosoflarının beynin göçürülməsilə bağlı mübahisələrə "Baş" adlı şe'rlə münasibətini bildirir.

Əlbəttə, alimlərin laboratoriyalarda apardıqları elmi eksperimentlər, şübhəsiz, təbiətin sirlərini öyrənməyə yönəldilir. Meyvə ağaclarını alaq etməklə yeni meyvə növü almaq, eləcə də canlıların üzərində aparılan analizlər bə'zən ağlagəlməz nəticələrə gətirib çıxarır. Lakin filosofun, yaxud şairin bu qəbil kəşflərə münasibəti şübhəsiz sənət meyarı ilə ölçülür. B.Vahabzadə də, M.Rzaquluzadə də həmin sensasiyalı hadisəyə hər biri özlüyündə poetik bir münasibət bildirmişlər. B.Vahabzadə "idrakın təbiətlə yarışa girməsinə" ehtiyatla yanaşmağı məsləhət görür və deyir:

**Böyrəyi, ürəyi dəyişmək asan.**
**Bəs başı?**
**Bu yerdə bir qədər dayan!**
**Hər şeyi dəyişir axı baş, beyin!**
**Baş özü başları necə dəyişsin?**[1]

Bu qənaətdən sonra şair özü başın dəyişilməsinə dair bir "eksperiment" aparır:

**...Dahinin beyninə qan sızdı birdən**
**Cahil də qəzaya düşdü həmin gün.**
**Cahilin başını öz bədənindən**
**Ayıraq, dahini yaşatmaq üçün?**

Və özü özünə suallar verir:

**Nə deyək?**
**Kim öldü?**
**Dahi, ya cahil?**
**Hansına yas tutsun qohum-qardaşı?**
**...Dahi yaşayacaq bir nadan kimi?**

---

1. Vahabzadə B.Bir baharın qaranquşu. -Bakı:1971.s.74.



**Kimi aldadırıq burda, biz kimi?**
**Cahilin başıyla, düşüncəsilə**
**Yaşayan o dahi, yenə dahimi?**

Bütün bu mülahizələrdən sonra şair özü poetik bir nəticəyə gəlir:

**Hanı o əvvəlki əqidə, məslək?**
**Əgər fikri yoxsa özü sağmıdır?**
**Yaşamaq xətrnə fikri dəyişmək**
**Məslək dəyişmək yaşamaqmıdır?..**[1]

M.Rzaquluzadə isə poetik "eksperimenti" aslanla çaqqalın ürəklərinin dəyişdirilməsində aparır. Dahi və nadan beyni! Aslan və çaqqal ürəyi! Məqsəd eynidir, çıxarılan nəticə də eynidir. Hər iki şairin poetik qənaətləri təbiət və cəmiyyət üçün daha əhəmiyyətlidir.

M.Rzaquluzadə bu fikri özünə məxsus yazı tərzində verir və şe'rin finalında deyir:

**Mərd ürəyi**
**Namərdliyə tab gətirməz!**[2]

Mərdlik və namərdlik kimi iki zidd qütbü şair müxtəlif vəziyyətlərdə qarşılaşdırır, müxtəlif hadisələr fonunda öz fikirlərini ümumiləşdirir. "Mərd və namərd" şe'rində "mərdi qova-qova namərd edərlər" məsələsindən istifadə edir, lakin bu dəfə həmin fikrin inkarı olan başqa bir nəticəyə gəlir:

**Namərdlik eləməz qovulmaqla mərd**
**Mənsəblə, rütbəylə mərd olmaz namərd.**
**Qılınc sınar, əyilməz...**
**Mərd namərd ola bilməz!**[3]

Beləliklə, şair mə'lum atalar sözündən başqa bir ibrətamiz nəticə çıxarmağı bacarır: adam əgər doğurdan da mərddirsə, onu zamanın heç bir gərdişi dəyişə bilməz. Xalq məsələlərinə məftunluq hissi ilə yanaşı şair heç də həmişə zərbi məsəllərin

---

1. Vahabzadə B.Bir baharın qaranquşu. -Bakı:1971.s.74.
2. Rzaquluzadə M. Yaz günəşi, s.78.
3. Yenə orada.

passiv əsiri olmur, əslində bu məsəlləri inkar etmir. Bu məsəllərdə olan mə'naları haçalayır, atalar sözləri və məsəllərin öz daxili məntiqindən başqa bir nəticə də çıxır.

Şairin ciddi şe'rlərində olduğu kimi, satirik əsərlərində də mövzu rəngarəngliyi var. Onun üçün meydan geniş, tiplər də, tiplərə qarşı tənqid üsulları da çoxdur.

M.Rzaquluzadə "Bədbin-nikbin" adlı şe'rində inkar və nifrət etdiyi obyektə orijinal münasibət bildirir.

Bir milyoner Fransanın ə'la konyakını Venetsiya qədəhənə tökərək içir və birdən üz-gözünü turşudaraq deyir: "konyakdan taxtabiti qoxusu gəlir". Şe'rin ikinci hissəsində şair həmin ölkədə başqa bir lövhəni təsvir edir.

Bir barda xidmət edən yoxsul tələbə oğlan taxtapuşda gəzən taxtabitiləri əzərək deyir: "Taxtapuşda ə'la konyak qoxuyur". Müəllif bu iki lövhəni qarşılaşdıraraq belə bir mətləb ifadə edir: milyonçular içərisində yaşayanların mə'nəvi zövqü bayağıdır, bu harınlamış adamlar həyatdakı gözəllikləri görə bilmirlər. Çünki harınlıq onlarda həssaslığı məhv etmişdir. Əksinə, yoxsullar isə mə'nəvi cəhətdən zəngin və təmizdirlər. Onların gözü iti, düşüncələri dərindir. Odur ki, həyatın gözəlliklərini daha yaxşı görür və dərk edirlər. Harınlar gözəlliyin özündə çirkinlik axtarırlarsa, yoxsullar çirkinlikdə gözəllik tapırlar. Gözəllik varlılar üçün bir əyləncədir, deməli, onlar bu gözəllikdən bir zaman doya bilərlər, bu gözəlliyə nifrət ifadə edə bilərlər. Yoxsullar üçün isə gözəllik həyatı tamamlayan əsas şərtlərdən biridir. Onlar üçün gözəllik əyləncə deyil, təbii bir ehtiyacdır.

M.Rzaquluzadənin satirik təmsillərində müqayisə yolu ilə ideyanı açmaq bir bədii priyomdur. "Canavarlar" adlı şe'r məhz belədir. Gözəlliyə - ceyrana düşmən kəsilən tamahkar adamlardan canavar üstün tutulur.

"Dağ gəlinin heykəli" adlı şe'rdə dovğalıq, despotluq tənqid edilir. Şe'rin finalında elə bil ki, xalqın özünü ifadə edir:

**Ay yazıq kəl!**
**Yazıq heykəl!**
**Həm qorxunc,**
**Həm gülünc sənsən.**
**Axı gülünc sənsən.**
**Axı mən özüm yaratmışam səni mən.**



Məsələ aydındır: Heç bir avtoritet xalqdan yüksəkdə dayana bilməz. Çünki xalq hər şeyin yaradıcısıdır.

Bir şəxsiyyət nə qədər ucalırsa-ucalsın, o xalqa minnətdar olmalıdır. Çünki o öz xalqının çiyinlərində yüksəlmişdir.

"Torağıyın nəğməsi" şe'rində həmişə aktual olan bir məsələyə toxunulmuşdur. Bə'zən ləyaqətsiz, öz yerində olmayan adamları sıxışdırmaq, gözdən salmaq istəyir, ağıllı adamlar isə belə mə'nəviyyatsız adamlar qarşısında öz mənliklərini kiçiltmir, vüqarlarını sındırmırlar. Onlar bilirlər ki, həqiqi iste'dadları qiymətləndirənlər vardır və həmişə olacaq.

Şairin "Tikanlı sözlər" başlığı altında verilmiş yığcam şe'rlərində də ibrətamiz fikirlər çoxdur. Burada xəsislik, tamahkarlıq, yaltaqlıq və sair kimi mənfi sifətlər tənqid edilir. "Tikanlı sözlər" adlı şe'rində atalar sözləri və zərb məsəllərdən istifadə olunmuşdur. Bu şe'rlərindən bir neçəsinə diqqət yetirək:

Şairin iki misralıq miniatür şe'rində deyilir:

**Ana – yaxşı ana olarsa əgər,**
**Ağlamayan uşağa da süd verər.**[1]

El arasında belə bir məsəl vardır ki, "Ağlamayan uşağa süd verməzlər". Bu məsələnin mə–nası ondan ibarətdir ki, əgər çalışmasan, öz haqqını tələb etməsən, dinib-danışmasan, sənin dərdindən baş açan olmaz.

Müəllif bu məsəlin əksinə çıxmır, lakin məsəlin özündən başqa bir ibrətamiz nəticə çıxarır ki, ağıllı ixtiyar sahibləri doğurdan da həqiqi insandırsa, hər kəsin haqqını özünə verməli, dilsizlərin ürəyindən keçən arzuları başa düşüb onlara kömək əlini uzatmalıdır. Yalnız böyük minnətdən sonra yaxşılıq edənlər pis adamlardır. Beləliklə, müəllif tez-tez müraciət etdiyi atalar sözlərinə müxtəlif tərəflərdən yanaşır və həyatın tamam başqa tərəflərini görməyi bacarır.

Pulun insanın mə'nəviyyatında oynadığı rolu klassiklərdən tutmuş bugünkü sənətkarlara qədər çoxu tənqid etmiş, göztoxluğu pul ehtirasına qarşı qoymuşlar. Lakin M.Rzaquluzadə bu məsələyə də orijinal yanaşır, maraqlı nəticəyə gəlir:

---

1. Rzaquluzadə M. Yaz günəşi. s.98

**Pul deyib:**
**"Saxla məni,-**
**Mən də saxlaram səni".**
**Ancaq bu vaxta qədər**
**Saxlamayıb kimsəni![1]**

Müəllif atalar sözünün hamıya mə'lum olan mə'nasını saxlayır. Yə'ni pulu ehtiyatla xərcləyənlər, bədxərclik etməyənlər müflis olmazlar. Şairi isə başqa bir məsələ düşündürür. Pul hələ heç kəsi ölümdən xilas edə bilməmişdir. Bu cür əsərlərində müəllif atalar sözlərini bə'zən mə'naca tamamlayır, onların daha yaxşı başa düşülməsinə nail olur. Müəllifin atalar sözlərinə belə yanaşması təqdirəlayiqdir. "Tikanlı sözlər" silsiləsindən olan başqa bir şe'rdə şair yenə də mə'lum atalar sözündən istifadə edib, onun mə'nasını haçalamışdır. Atalar sözlərindən bir ideya üçün istifadə edən müəllif sanki paradoksal fikirlər yaradır:

**"Az ver,**
**Çox yalvar-**
**Çox ver,**
**Az yalvar"-**
**deyib babalar...**
**Nə ver! Nə yalvar!**

Atalar sözlərinin mənası budur ki, öz işinə görə çox minnət, çox işinə görə az minnət çəkəcəksən. Müəllif isə bu məsələdən başqa bir ibrətamiz nəticə çıxarır. "Nə ver, nə yalvar". Yə'ni vüqarını heç vaxt aşağı salma. Özün öz taleyinin ağası, öz hərəkətlərinin nəzarətçisi ol. Özünü elə bir vəziyyətə salma ki, başqalarından asılı vəziyyətə düşəsən. Yaxud "Ağıllı düşmən ağılsız dostdan yaxşıdır" məsəlində müəllif elə bil ki, incə bir ziddiyət tapır:

**Guya ağıllı düşmən**
**Yaxşıdır yaman dostdan.**
**Düşmənə vermə aman**
**Hansından olursa olsun,**
**Ya ağıllı, ya nadan...**

Beləliklə, belə bir ibrətamiz fikir ifadə olunur ki, düşmən həmişə düşməndir. Onun ağıllı olması sənin ehtiyatlı olmağına mane olmamalıdır. M.Rzaquluzadənin satiralarında zahiri gözəlliyə aludəlik, qədir bilməzlik, məsləksizlik, nadürüstlük, namərdlik, vəhşilik kimi sifətlər inkar edilir, pislənir.

---
1. Rzaquluzadə M. Yaz günəşi. s.98



Şairin satiraları nöqsansız da deyildir. Bu şe'rlərdə bə'zən prozaiklik, bəsitlik, bə'zən də dəqiq olmayan ifadələrlə rastlaşırıq. Bu nöqsanlar heç də şe'rlərin mə'na siqlətini azaltmır, onların məziyyətlərini aşağı salmır.

M.Rzaquluzadənin satiralarında rədd və inkar edilən mənfi sifətlərin əksinə olaraq mərdlik, yaxşılıq, gözütoxluq, mə'nəvi təmizlik, təvazökarlıq kimi gözəl sifətlər təbliğ edilir.

Ümumiyyətlə, şairin istər ciddi şe'rlərində, istərsə də satiralarında insanları mə'nalı həyatın gözəlliklərini dərk etməyə, bu gözəlliklərin qədrini bilməyə bir vətəndaş çağırışı vardır. Şair oxucuların öz vətəninin həqiqi vətəndaşları kimi tərbiyə etmək üçün bədii sözün bütün qüdrətindən istifadə edir, tə'sirli, ibrətamiz nəticələr çıxarır.

Ədəbiyyat və incəsənət arxivində müəllifin yüzlərlə lirik və satirik şe'rləri saxlanılır. Onların əksəriyyəti 1920-40cı illərdə yazıldığından bədii cəhətdən zəif, həm də diktatura dövrünün siyasətini təbliğ edən əsərlər olduğundan müəllif özü də onları kitablarına daxil etməmişdir.[1]

Məhz buna görə də biz daha çox şairin 1960-cı illərdən sonra çap etdirdiyi kitablarına müraciət etmişik.

## UŞAQ ŞE'RLƏRİ

Uşaqlarda gözəl hisslər tərbiyə etmək, onlarda kiçik yaşlarından zəhmətə sevgi, biliyə həvəs oyatmaq, əhatə olunduqları mühiti düzgün dərk etdirmək və s. bu kimi nəcib keyfiyyətlər, şübhəsiz, klassik ədəbiyyatımızdan başlamış və bu günə qədər də davam etməkdədir. Biz bu xüsusiyyəti Nizami Gəncəvinin "Sirlər xəzinəsi", "Yeddi gözəl" və "İsgəndərnamə"sində, M.Füzulinin alleqorik əsərlərində, A.A.Bakıxanovun, Q.Zakirin, S.Ə.Şirvaninin təmsillərində görürük.

Azərbaycan uşaq ədəbiyatının xəzinəsini ölməz əsərləri ilə zənginləşdirən və bu sahədə çalışan sənətkarlarımızdan M.Ə.Sabirin, A.Səhhətin, S.S.Axundovun, M.Seyidzadənin, A.Şaiqin, S.Vurğunun, M.Müşviqin, R.Rzanın, M.Dilbazinin,

---
1. DƏİA. Fond №621, siyahı №1.

N.Rəfibəylinin və başqalarının xidmətləri xüsusilə böyükdür.

Mikayıl Rzaquluzadə uşaq ədəbiyyatı yaradıcılığı sahəsində həm bədii, həm də elmi-nəzəri əsərləri ilə müntəzəm iştirak etmişdir. Onun "Şura cocuq ədəbiyyatı uğrunda", "Azərbaycan şura cocuq ədəbiyyatının nailiyyətləri", "Folklor və cocuq ədəbiyyatı", "Uşaqlar üçün və uşaqlar haqqında ədəbiyyat" və başqa bu kimi qiymətli məqalələri hələ vaxtı ilə geniş oxucu kütləsinin diqqətini cəlb etmişdir.[1]

Ədib həmişə yığcam süjet, sual-cavab, sadə hadisə, lövhə, epizod vasitəsilə uşaqların mə'nəviyyatına, fikirlərinə, düşüncələrinə tə'sir göstərməyə, onların xəyallarını zənginləşdirməyə çalışmışdır. O, "Ədəbiyyat və tərbiyə" adlı məqaləsində yazırdı: "Uşaq yazıçısından, uşaq rəssamından və uşaq tərbiyəsi ilə məşğul olan hər bir sənətkardan əlavə olaraq, bir də xüsusi pedaqoji iste'dad, tərbiyəçilik iste'dadı və uşaqlara böyük qayğı və məhəbbət tələb olunur. Bundan başqa uşaq yazıçısı "uşaq dilində" yazmağı bacarmalıdır. Lakin bu uşaq dili bə'zi yazıçıların yanlış başadüşdükləri kimi, heç də "r" əvəzinə "y", "ş" əvəzinə isə "s", "k" əvəzinə isə "ç" işlətməkdən, yə'ni uşaq tələffüzünü yamsılamaqdan ibarət deyil. Həm də uşaqlar üçün yazılan əsərlərdə sadəliyi dayazlıqla, dərinliyi səthiliklə, məzmunu sözçülüklə, təbiiliyi saxta təqlidçiliklə əvəz etmək olmaz. Uşaq ədəbiyyatının dili canlı, dolğun, düzgün, oynaq, məzəli olmalıdır".[2]

M.Rzaquluzadə uşaqlar üçün yazdığı əsərlərində konkretliyi və aydınlığı saxlayır, uşaqlarla onların dilində danışır, fakt və hadisələri uşaq yaşlarına uyğun surətdə ifadə edir. Az sözlü misralar, qoşa misralarda müvəffəqiyyətlə seçilmiş qafiyələr onun uşaq şe'rləri üçün xarakterik cizgilərdəndir.

M.Rzaquluzadənin gözəllik duyğusunun tə'sir gücünə inandığı üçün əsərlərində ondan istifadə etməyə çalışır. Şairin fikrincə gözəllik yalnız əməklə bağlı veriləndə uşaq onu tez başa düşür və asanlıqla mənimsəyir. Müəllif belə qənaətə gəlir ki, əsil gözəllik əmək və zəhmətlə bağlı gözəllikdir.

Zəhmətlə qazanılan çörək dadlı olur. Dediklərimizə nümunə olaraq "Ən dadlı meyvə" şe'rini misal göstərə bilərik.

-----------------------

1. DƏİA, Fond №621, siyahı №1.
2. Rzaquluzadə M. Seçilmiş əsərləri, I cild.-Bakı, Azərnəşr, 1965, s.413-414.



**Ən dadlı meyvə nədir?**
**Ən dadlı meyvə, ancaq,**
**Sən öz zəhmətinlə**
**Yetirdiyin meyvədir...**[1]

M.Rzaquluzadənin əsərlərində müasirlik hissi də çox qüvvətlidir. O, nədən və nə vaxt yazmaq zərurətini vaxtında duyur. Uşaq mühitini həssaslıqla müşahidə edir. Məhz buna görədir ki, onun kitabları uşaqlar tərfindən maraq və həvəslə oxunur.

Onun uşaq ədəbiyyatına sevgi ilə dolu səmimi söhbəti həmişə öz təravəti ilə seçilmiş, gənc oxucuların neçə-neçə tərbiyəsində mühüm rol oynamışdır. Uşaqlar üçün yaranan poeziyanın bəlkə də ilk və çox zəruri tələbi inamdır. Bunu biz, M.Rzaquluzadənin şe'rlərinin məzmun və formasında görürük. Onun şe'rlərinin əsas leytmotivini də dediyimiz cəhətlər təşkil edir, uşaqlarda dərin inam hissi və bəşəri ideyalar aşılayır.

**Saat işləyir**
**O sənə deyir:**
**-Qiymətini bil**
**Hər dəqiqənin.**
**Getməsin hədər**
**Heç vaxtın sənin**
**Vaxtında işlə,**
**Vaxtında dincəl**
**Əməklə, işlə**
**yaşa**
**art**
**yüksəl.**[2]

Hər şeydən əvvəl şe'r mövzunun tələbinə uyğun şəkildə işlənmişdir. Şairin fikrini qol-budaqlı misralarla yox, yığcam və lakonik şəkildə oxucusuna çatdıra bilmişdir. O, təkcə saat haqqında uşaqlarda səthi təsəvvür yaratmır, bir saat ərzində ölkəmizdə görülən işlərin ümumi mənzərəsinə şair gözü ilə baxır, uşaqlarda belə fikir oyadır ki, bir saat ərzində yerin dərin qatlarından min tonlarda neft çıxarılır, min hektarlarla xam torpaqlar şumlanır, milyonlarla adamlar iş başında böyük xarüqələr yaradırlar.

-----------------------

1. Rzaquluzadə M. İlin yazı -elin sazı. -Bakı, Gənclik, 1981.s.35
2. Rzaquluzadə M.İlin yazı-elin sazı. 1981, s.42

Ümumiyyətlə M.Rzaquluzadə şe'rlərində bir simmetriya vardır. Bundan əlavə əsərlərindəki yığcamlıq və ifadə tərzinin rəvanlığı özünü əsasən mövzunun daxilində göstərir, sözlərin aydınlığı və yığcamlığı diqqəti cəlb edir. Şair oxucu ilə ünsiyyətə girməyi, onunla həmsöhbət olmağı bacarır. Bu onun şe'rlərindəki səmimiyyətdən doğur. O, yerli-yersiz epitetlərlə yazılarını yükləmir, nə də mə'nasız sözçülüyə meyl etmir. Onun şe'rləri oxucunu sadə, aydın bir müdrikliyə aparır.

M.Rzaquluzadənin əsərlərinin maraqlı cəhətlərindən biri də odur ki, hər şe'rdə bir konkretlik var. Hər şe'r bir ideyanın dəqiq ifadəsinə həsr edilir. "Ölkəmizin çiçəkləri" şe'rinə nəzər salaq. Burada Vətənin müqəddəsliyindən, onun geniş qoynunda məskən salmış uca dağların, bərəkətli torpağından söhbət açılır. Böyük Füzulinin, Sabirin, Vurğunun adını çəkən şair onların unudulmaz nəğmələrini öyrənməyi tövsiyə edir və sonra da sanki uca səslə belə deyir:

**Ölkəmizin çiçəkləri,-**
**ay qızlar, ay uşaqlar.**
**Bu əziz ana Vətən,**
**bu qəlbli odlu diyar**
**Mərd-igid babalardan**
**Qalıb sizə yadigar.**
**Sizdən də gələcəyə**
**qalacaqdır yadigar.**[1]

Öz idealına, sarsılmaz inamına həmişə sadiq qalan və bir vətəndaş kimi gəncliyi aydın və ali məqsədlərə namusla xidmət etməyə çağıran şair "Qoruyaq gələcəyi" şe'rində maraqlı məsələyə toxunur, dünyamızın gələcəyindən, habelə gözəlliyindən, onun qoynunda həyat quran adamlarımızın güzəranından söhbət açır.

Uşaqları canlı çiçəyə bənzədir. Dünyanı abad edən insanlara xoşbəxtlik arzulayır və şe'ri belə tamamlayır:

**Ey analar, atalar!**
**Qoruyaq hər çiçəyi**
**Gəlin verək əl-ələ,**
**Qoruyaq gələcəyi.**[2]

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı. 1981. S.10-11.
2. Rzaquluzadə M. İlin yazı, elin sazı, 1981, s.10-11.



"Anaların bayramı" şe'rində söhbət müxtəlif sənət sahibi olan müxtəlif taleli analardan gedir. "Onların qüdrətli əlləriilə möcüzələr yaradılır"-deyə şair ana laylasını günəşdən-aydan uca tutur, onu ən müqəddəs ülviyyət sanır. Bütün analara xoşbəxtlik və bəxtiyarlıq arzulayır. Şe'rdə deyilir:

**Ana var ki, həkimdir,**
**dərdlərə dərman verir.**
**Ürəyinin qanından**
**xəstələrə can verir.**
**Ana var ki, neftçidir,**
**yerin bağrını yarır.**
**Dənizin ortasında**
**Sulardan neft çıxarır.**
**Ana var pambıqçıdır,**
**ağ pambıqdan dağ qalar**
**Gücünə hünərinə**
**Hər görən heyran qalar.**
**Ana var ki, kosmonavt,**
**yol açır ulduzlara.**
**Yol açır igid-qoçaq**
**Oğlanlar-qızlara.**
**Anaların bayramı-**
**gözəl Martın səkkizi**
**Əziz analar, hamı**
**təbrik edirik sizi.**[1]

M.Rzaquluzadə quru öyüd-nəsihət verən mürəbbiyə oxşamır. O, həmişə balaca həmkarları ilə yaxın yoldaş, sirdaş kimi söhbət edir. Elə bunun nəticəsidir ki, onun şe'rləri kiçik yaşlı oxucularını düşündürür və tə'sirləndirir.

"İllər, nəsillər, əsrlər..." adlı məqaləsində M.Rzaquluzadə yazır: "Elə sənətkarlar var ki, öz məharətləri sayəsində , öz sənətlərini insanlara sevdirir, öyrədir, özlərindən sonra məsələn, gözəl rəssamlar, heykəltəraşlar, şairlər yetişdirirlər. Əlbəttə, bunlar hər cür hörmət və qiymətə layiq böyük sənətkarlarıdır. Lakin Abdulla Şaiq nəsillərə yalnız öz sənətini sevdirməklə

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı. 1981. S.15-16

qalmayıb, öz misilsiz, pak, təmiz, fədakar qəlbi və şəxsi həy
nümunəsi ilə nəsillərə həyatı, həqiqəti, gözəlliyi, doğruluğ
sədaqəti, səmimiyyəti sevdirmişdir. Buna görədir ki, o nəsi
lərin qəlbində əbədi yaşayacaqdır".[1] Doğrudan da Azərbayca
uşaq ədəbiyyatının inkişafında elə böyük şəxsiyyətlər vardır k
yeri gələndə onların adlarını çəkmək, əsərlərini xatırlamama
olmur. M.Rzaquluzadənin A.Şaiq haqqında dediyi bu ci
qiymətli sözləri məhz onun özü haqqında demək olar.

M.Rzaquluzadə uşaqlarımız üçün gözəl əsərlər yaradan bir şa
kimi tariximizin, keçmişimizin, qəhrəmanlığımızın şahidi olan b
salnaməçiyə bənzəyir. O, zəngin adət və ən'ənələrimizir
incəsənətimizin, folklorumuzun dərin bilicisi və eyni zamand
xalqımızın inqilabi salnaməsini yazan iste'dadlı bir sənətkardır.

M.Rzaquluzadə Vətən üçün, xalq üçün xidmət etməkdən yo
rulmamış, doğma millətinə xidməti özünə mə'nəvi borc bilmiş
dir. O, sənətin oduna, közünə yana-yana gəncliyə məxsus coş
ğun bir həvəslə işləmiş, yazıb-yaratmışdır. Əsərlərində, sadə
poetik, ürəyə yatımlı bir səslə gənc oxucularına müraciət edə
şair onlara həyatdan alınmış, lakin əsil nağıl qədər təravətl
cazibədar hadisələr danışır, onların gözləri qarşısında doğm
yurdun al-əlvan təbiətinin təkrarsız mənzərəsini canlandırırdı.

Burada görkəmli bəstəkar Fikrət Əmirovun çıxışlarının birind
dediyi sözlər yada düşür. O yazır ki, hər dəfə təzə əsər işləyənd
elə bilirəm ki, birinci dəfə yazıram. Sonra o sözünə davam edi
fikrini belə tamlayır. "Otuz ildir musiqi ilə başımı qatıram. N
qədər qəribə olsa da, yeni əsər yazmağa başlarkən, həmişə mən
bir fikir narahat edir, düşünürəm ki, əgər bunu da ürəyim istəyə
kimi tamamlaya bilsəm, özümü bəstəkar adlandırmağa haqqı
çatar". "Bizcə çox səmimi şəkildə deyilmiş bu sözləri qocama
şairimiz M.Rzaquluzadə haqqında da demək yerinə düşər".

M.Rzaquluzadə uşaq şe'rlərində də parlaq lövhələr, canlı su
rətlər yaradır, balaca oxuculara fikrini obrazlar vasitəsilə çatdı
mağa çalışır. Şair tülkü və qurdu, qarışqa və milçəyi, gün və kü
ləyi, gülləri dilə gətirir, özü isə sanki hadisələrin arxasında giz
lənib gözə görünmür. "İki quş", "Yuva davası", "Quşlarla nə işi
var", "Ağ göyərçin", "Ağ dana", "Canavarlar", "Aslan ürəyi" və

---

1. Rzaquluzadə M. İllər, nəsillər, əsrlər... Ədəbiyyat və incəsənə
1971, 8 may. s.8



onlarca şe'rləri bu səpgidə yazılmışdır. Bu qəbildən olan şe'rlər balaca oxucuların dünyagörüşünü genişləndirməkdə, onlara müsbət əxlaqi keyfiyyətlər aşılamaqda böyük əhəmiyyət kəsb edir.

M.Rzaquluzadə kənd və ya şəhər mövzularında çox yazmışdır. O həyatın ritmlərini yaxşı duyur. O, gündə təsadüf etdiyimiz ən adi fakt və hadisələri şe'rə gətirə bilir, gördüklərinə poetik mə'na verməyi bacarır.

"Bakının axşamları", "Məktəbə gedir Tokay", "Almaz", "Aytac və yoldaşları", "Çimən sərçələr", "Uşaq, at və həyat", "İlk addımlar", "Bulvarda", "Səxavətli xanım" və s. şe'rləri kənd və şəhər mühitindən, onların özünəməxsus spesifik xüsusiyyətlərindən danışır. Deməli, şairin ən yaxşı əsərlərində müasir həyatın dinamizmi, dövrün irəli sürdüyü vəzifələr duyulur. Bütün bunlar onun yeniliyi ilə seçilən, böyük zövqlə oxunan əsərlərindəki yüksək ideyalılıqdan irəli gəlir. Bu əsərlər gənc oxucuların ürəyinə böyük inam hissi doğurur.

M.Rzaquluzadə uşaqların duyum və düşüncə tərzinə yaxşı bələd olan, onlara qaynayıb-qarışan şairlərimizdəndir. O, uşaq psixologiyasını yaxşı bilmiş, uşaqlar üçün əsərlərində yerinə düşməyən ifadələrdən, yalançı pafosdan qaçmışdır.

M.Rzaquluzadənin yaradıcılığında müvəffəqiyyətli cəhətlərdən biri də onun əsərlərində ilin fəsillərinin, zəngin Azərbaycan təbiətinin real təsviridir. Şair bu əsərləri ilə uşaqların əqli qabiliyyətlərini və estetik zövqlərini inkişaf etdirir. Bu baxımdan "Bəyaz gecələr", "Qar yağır", "Yaz gələndə", "Yaz bayramı", "Ağ göyərçin", "Bizim yay", "Qış gəlir" və s. onlarca şe'rləri xüsusilə səciyyəvidir.

Şairin uşaqlar üçün bu vaxta qədər "Qaranquş yuvası", "Ağ dana", "İstək", "Sirli saz", "El gücü", "Dan söküləndə", "Qu gölü", "Ölkəmin çiçəkləri", "Yaz günəşi", "İlin yazı, elin sazı" və s. kitabları çap olunmuşdur. Müxtəlif illərdə nəşr olunan bu kitablar göstərir ki, M.Rzaquluzadə uşaq ədəbiyyatına ciddi yaradıcılıq həvəsi və ilhamla gəlmişdir.

M.Rzaquluzadə başqa sahələrdə olduğu kimi, tərcümə sahəsində də geniş və səmərəli fəaliyyət göstərmişdir. Homer, Aristofan, Heyne, Puşkin, Lermontov, Şiller, Bayron, Belinski, Mayakovski, Sereteli, Krılov, Qorki, Uşinski, Tixonov, Surkov, Brovka, Simonov, Marşak, Namik Kamal, Tofiq Fikrət, Abay

və başqalarının əsərləri onun tərcüməsində Azərbaycan oxucularının dərin rəğbətini qazanmışdır. Böyük sənətkarlardan etdiyi tərcümələri üzərində yaradıcı ilhamla işləmiş, ana dilimizin zəngin söz xəzinəsindən, mə'na incəliklərindən, aforistik ifadələrindən geniş istifadə yolu ilə xəlqiliyi, obrazlığı, incə zərif yumoru qoruyub saxlamağa çalışmışdır. Özü belə yazmışdır:

**Öz gücüm çatmayanda,**
**Homerin, Nizaminin,**
**Puşkinin, ya Fikrətin**
**Köməyilə deyirəm**
**Ürəyimin sözünü.**
**Sözlərin gözəlini,**
**Sözlərin ən düzünü...**[1]

Bu günkü oxucular şair-tərcüməçi M.Rzaquluzadəni bir müəllimi kimi tanıyırlar. M.Rzaquluzadənin tərcümələri də bədii səviyyəsinə görə, orijinallığa sədaqəti, gözəl dili ilə fərqlənir.

M.Rzaquluzadə dövrümüzün mürəkkəb, vacib, aktual problemlərini həll etməyi, vicdanlı olmağı, bəşərin taleyini düşünməyi gəncləoin qarşısında əsas məqsəd kimi qoyur. Məsələn, onun "Bayram sovqatı" şe'rinə diqqət edək. Bu şe'rdə dili, irqi müxtəlif olan, müxtəlif ölkələrdə yaşayan xalqları birliyə çağırır, sülhə səsləyir:

**Ölkə ayrı, dil ayrı,**
**el ayrı olsanız da,**
**Həmişə əlbir olun.**
**Əlbir-könlü bir olun.**
**Həmişə bir-birilə**
**Dinclik, şənlik gətirin**
**Hər ölkəyə, hər elə.**[2]

Belə şe'rlər oxunduqca mə'lum olur ki, M.Rzaquluzadənin əsərlərindəki ictimai motivlərdən biri də yer üzərindəki bütün insanlara bəşər övladı kimi bir gözlə baxmaqdır.

İnsanları dostluğa, sülhə çağırış şairin uşaqlar üçün yazdığı şe'rlərində də mühüm yer tutur. Əsərlərində insanları dostluğa çağıran şair xatirələrdə insanların dostu, uşaqların və gənclərin müəllimi kimi yaşamaq haqqını qazanıbdır.

---

1. Rzaquluzadə M. İlin yazı, elin sazı. 1981 s.5
2. Yenə orada, s,117





M.Rzaquluzadənin müharibə illərində ciddi, ardıcıl yaradıcılıq axtarışları güclənir. Bu dövrdə o, həm də poema janrına müraciət edir.

Mə'lumdur ki, İkinci dünya müharibəsi və onun gedişi barədə az əsər yazılmamışdır. Ədəbiyyatşünaslar da, tarixçilər və filosoflar da, şair və yazıçılar da, sosioloqlar da bu tarixi və unudulmaz mövzuya bir çox əsərlər həsr etmiş, həmin dövrün canlı mənzərəsini yaratmağa çalışmışlar. Görkəmli uşaq şairimiz M.Rzaquluzadənin poemalarının da bir qismi bu mövzuya həsr olunmuşdur. Həmin əsərlər mövzu müxtəlifliyi, fikir və intonasiya zənginliyi ilə diqqəti cəlb edir.

Müharibə dövrünün hadisələrindən yazdığı əsərlərində şair sadə əmək adamlarının gördükləri böyük işlərdən, uşaqlarımızın müharibəyə münasibətindən, vətənpərvərliyindən danışır, öz sinəsi ilə xalqımızın böyük nailiyyətlərini qoruyan Vətən döyüşçülərinin qəhrəmanlığından, habelə uşaqlarımızın fədakar işindən bəhs edir.

Müharibə dəhşətli bəla kimi öz qara pərdəsini ölkənin üzərinə salanda əli silah tutanlar Vətənin hər qarış torpağını yağı düşməndən qorumaq üçün cəhbəyə yollandılar. Müharibə adamların dincliyini pozdu. Uşaqlar vaxtından əvvəl böyüdülər, arxada fəhləyə, əkinçiyə, cəbhədə balaca döyüşçülərə, balaca əsgərlərə çevrildilər. Onun da qəhrəmanları da bax, beləcə vaxtından əvvəl böyüyüb düşmənə qarşı amansız oldular.

Müharibənin insanlara vurduğu yara, gətirdiyi fəlakət hamıya yaxşı mə'lumdur, indi də unudulmur. Müəllifin 1943-cü ildə yazdığı "Qaranquş yuvası", "Leyla", "Məktublar" poemalarında bu cəhət qabarıq verilir. İlk baxışda poemaların adları adamda elə təsəvvür oyadır ki, həmin əsərlərdə dinc quruculuq dövrünün qaynar həyatından bəhs olunur. Lakin poemalar oxunduqca insanın gözləri qarşısında faciəli səhnələr müharibə illərinin dəhşətli günləri canlanır. Mə'lum olur ki, böyükdən kiçiyə qədər hamı düşməndən intiqam almağa can atır. "Qaranquş yuvası" müharibə dövrünün aktual məsələlərinə, partizanlarla əlaqə saxlayan gənclərin mübarizəsinə həsr olunmuşdur. Bu poemada Vətənin azadlığı və səadəti uğrunda çarpışan, atalarından, qardaş və

bacılarından geri qalmayan gənclərin mərdlik və şücaəti diqqəti cəlb edir. Əsərin qəhrəmanı Arslan belə gənclərdən biridir.

Arslan azad və xoşbəxt, qayğısız və şən həyat yolunda faşistlərə qarşı amansız mübarizə aparır, yaşına uyğun olmayan igidlik göstərir. Bu igidlik hər şeydən əvvəl Arslanın ağıllı tədbiri və əvvəlcədən düşünüb gördüyü hazırlıq işlərinin sayəsində həyata keçirilir. Poemanın qısa məzmunu belədir: dəniz sahilində Balıqçı adlı bir kənd vardır. Kəndin adamları əmin-amanlıq şəraitində yaşayırlar. Lakin tezliklə onların dinc həyatı pozulur. Çünki faşizm qara taun kimi yer üzünü bürüyür. Hitlerin sərsəm xəyalı vətənimiz üzərində qara kabus kimi dolaşır, xalqımız faşizmə qarşı ölüm-dirim mübarizəsinə başlayır. Vətənin bütün namuslu oğulları düşmənlə mübarizəyə girişir. Bu zaman yüz minlərlə mərd oğul könüllü surətdə müharibəyə yola düşür.

Əsərin əsas surətlərindən Arslan da başqaları kimi doğma kəndlərində mərd, həm də igid kimi böyümüşdü. Faşistlər onların kəndlərini müvəqqəti işğal edəndən sonra Arslanın atası partizanlara qoşulur, anası isə sahibsiz qalmış körpələri götürüb kənddən çıxır. Bir gün faşistlər onların evlərini tutur, özünü də möhkəmcə döyürlər. Quduzlaşmış faşistlər bununla da kifayətlənmir, Arslana bir maşın yük boşaltdırırlar. O, yükü boşaltdıqca başa düşür ki, bunlar qumbaradır, düşmən onu anbarda gizlədir. Arslan qəti qərara gəlir ki, anbarı partlatsın. Nəhayət, o çətinliklə üz-üzə gəlsə də, məqsədinə nail olur.

Düşmənə qarşı nifrət hissinin necə yarandığını kokret həyati hadisələrlə göstərməyə müvəffəq olan şair, oxucusunu inandırır ki, vətən övladları torpağını coşğun məhəbbətlə sevən fədakar ata-babalarının tutduğu yoldan heç bir zaman çıxmayacaq, həmişə ona sadiq qalacaqlar. Vətənin şən günündə olduğu kimi, ağır dəqiqələrində də onlar böyüklərtək ümumi işə qoşulacaq, eyni məslək uğrunda canlarından belə keçməyə hazır olacaqlar. Biz deyilənləri əsər boyu Arslanın simasında görür və onların bir daha canlı şahidi oluruq. Poemanın "Kin" adlı fəslində verilən bu lövhəyə diqqət edək:

**Xəstə qarını tutub,**
**tulladılar həyətə,**
**Arslan dözə bilmədi**



**bu vəhşi cinayətə.**
**Onları qandırmağa**
**çalışdısa nə qədər-**
**Faşistlər yaman döyüb**
**onu yerə sərdilər.**
**Yıxıldı qaldı yerdə,**
**Arslanı qan apardı...**
**Həyətdə bir kənarda**
**Köhnə bir mətbəx vardı.**
**Qarı götürüb ora**
**apardı nəvəsini.**
**Ağlayıb yalvarmadı**
**Çıxarmadı səsini.**[1]

Uşaq qəlbini və psixologiyasını, onun düşüncə tərzini, əxlaq və tərbiyəsini yaxşı təsvir edən şair, bu hərəktədən sonra sanki Arslanı ayılddır, onu mübarizləşdirir, dözümlü döyüşçüyə çevirir.

**Meydanın ortasında**
**Qudurğan Hitlerçilər**
**tutub kolxozçulardan**
**asmışdılar üç nəfər.**
**Məktəb tövlə olmuşdu,**
**klub da bir meyxana...**
**Arslan kinli nəzərlə**
**göz yetirdi hər yana.**[2]

Bu cür acınacaqlı səhnələr, xarabaya çevrilmiş kənd, sakini Arslanı intiqama səsləyir, düşməndən qisas almağa çağırır. Hətta qoca nənəsi kənddən çıxmağı, yağı düşməni görməmək üçün hara gəldi getməyi məsləhət görəndə Arslan nənəsini başa salır ki, getmək yox, düşməndən intiqam almaq, onu məhv etmək, axırına çıxmaq lazımdır.

Arslan görür ki, doğma kəndi od-alov içərisində yanır, qocaları dar ağacından asılır, anaların qarnını süngü ilə deşir, körpə uşaqları ayaqlayırlar. Bir sözlə, yağı düşmən hər yerə sahib

1. Rzaquluzadə M. Yüz günəşi, 1977. S.103
2. Yenə orada.

olur, günahsız adamları güllələyir, başlarına olmazın müsibətlər gətirir. Odur ki, Arslan faşistlərin yerləşdiyi qərargahı partlat- maq istəyindən dönmür. Yaxınlıqdakı susuz quyudan anbara lağım atır, gecə ikən binanı partladır, düşməni məhv edir. Poemanın "Azad həyat yolunda" adlanan son fəsli doğrudan da gözəl və mə'nalı final kimi yaddan çıxmır:

**Özü quyudan çıxdı.**
**Güllə kimi bir anda...**
**Arslan səssiz yürüyüb**
**qayalığa çatanda,**
**dəhşətli bir partlayış**
**yeri-göyü titrətdi.**
**Bir yığın canavarı**
**bircə anda məhv etdi.**[1]

Nəticədə şair göstərir ki, Arslan kimi gənc qəhrəmanlar düş- mənə qarşı yeni, coşğun qəzəb hissi ilə mübarizəyə girişirlər, düşmənlə ölüm-dirim mübarizəsində bir an da olsa, inadların- dan dönmürlər.

M.Rzaquluzadənin bu cür əsərləri oxucuda qələbəyə inam hissi aşılayır. Əsərin müharibə dövründə yazıldığını nəzərə al- saq, bu xüsusiyyətin əhəmiyyətini daha aydın dərk etmiş olarıq.

Bu günki oxucu yarım əsr bundan əvvəl yazılmış belə əsər- lərdə xəyalən o illəri görür, o dövrdəki çətinlikləri hiss edir, Və- tənə sədaqət və məhəbbəti daha da artırır. Bütün bunlar M.Rza- quluzadənin müvəffəqiyyətli cəhətidir. Axı, müəyyən tarixi hadi- sələrlə əlaqədar olaraq yazılmış əsərlər bə'zən bir müddətdən sonra unudulur. Yalnız həqiqi sənətkar qələmindən çıxan və də- rin duyğu ilə yazılan əsərlər həmişə tə'sirli və uzunömürlü olur.

M.Rzaquluzadənin müharibə mövzusunda yazdığı əsərlə- rəngarəngliyi, mövzu müxtəlifliyi, süjet və kompozisiy- orijinallığı ilə diqqəti cəlb edir. "Qaranquş yuvası", "Leyla" və "Məktublar" poemaları məhz belə əsərlərdəndir.

Evindən-eşiyindən didərgin düşüb, müharibə yollarının işgəncələrinə mə'ruz qalmış uşaqlar -Arslan, Leyla və eləcə də başqalarının başlarına gələn min bir fəlakəti və onların keçi-

---

1. Rzaquluzadə M. Yaz günəşi, s.115



dikləri psixoloji sarsıntıları həyəcansız oxumaq olmur.Bu uşaq- larda vətənə böyük məhəbbət hissi vardır. Onlar da igid oğullara xas olan mə'nəvi keyfiyyətləri özlərində tərbiyə edə bilmişlər.

"Leyla" poemasında mükəmməl süjet bitginliyi var. Odur ki, gənc oxuculara güclü tə'sir edir və onları mübarizəyə çağırır. Əsərdə təsvir edilir ki, balaca Leyla partizan dəstəsi ilə əlaqə saxlaması nəticəsində bir kənd düşməndən azad edilir.

Dağların ətəklərində yerləşən qədim bir kənddə müxtəlif millətlərin nümayəndələri əl-ələ verib cahangirləri bu yurddan qovmuşlar. Lakin bir-neçə ay olar ki, faşistlər bu kəndə soxul- muşdur. Əllərinə keçən günahsız adamları ya dar ağacından asır- lar, ya da acından öldürürlər. bütün bu çətinliklərə baxmayaraq, kənd adamları ruhdan düşmür, fürsət düşən kimi, düşmənə ağır zərbələr vururlar. Quduz düşməni bir məsələ narahat edir. Kəndə nə gələn var, nə də gedən, bəs görəsən bu hadisələri kim törədir? Faşistlər öyrənirlər ki, bu on iki yaşlı Leylanın işidir. O, meşədə gizlənən partizanlarla əlaqə saxlayır. Qız növbəti tapşırığını yerinə yetirərkən tutulur. Zabitlər balaca Leylanı döyüb hədələyir, sonra da hiyləyə əl atırlar. Bunların heç biri fayda vermir. Çünki partizan Leyla düşmənin alçaq niyyətini ba- şa düşür. O, ürəyindən keçən kin və küdurətini belə ifadə edir:

**Kimsən bilmirəm:**
**bilirəm zabitsən,**
**Sən də qana susamış**
**quduz, azğın bir itsən.**
**Sən "mələksənmiş", onda**
**bəs burda kim hakimdir?**
**Arvadları saçından**
**asdıran cəllad kimdir?**
**Sən kimsən, neçin gəldin,**
**Söylə, bu əziz yurda?**
**Babanın kəlləsimi**
**basdırılmışdır burda?**[1]

Leylanın bu sözləri faşist cəlladlarını daha da vəhşiləşdirir. On- lar insanlıq simalarını itirirlər, günahsız qızı komendantlıq bina- sına salıb diri-diri yandırmaq istəyirlər. Ancaq gənc döyüşçü Xas- polad bu işdən xəbər tutan kimi Leylanı ölümdən qurtara bilir.

---

1. Rzaquluzadə M. Leyla. Yaz günəşi. s.125-126.

Poemanın əsas qəhrəmanı olan bu balaca qız Vətənə xidmə etmək, onu düşməndən qorumaq kimi böyük və bəşəri hisslərl yaşayır. Şair sevə-sevə yaratdığı bu kiçik və qəhrəman qız oxuculara sevdirə bilir.

Deyilənləri şərtləndirən amillərdən biri də Leylanı temperamentli və istiqanlı olmasıdır. Bunu ona-vətən məhəb bəti bəxş etmişdir. Poemanın əvvəlindən bir çağırış kim səslənən misralar elə bil sonrakı günlər üçün Leylanı cəsur bi döyüşçü olmağa hazırlayır.

Bədii əsərdə ikinci dərəcəli surətlərin mühüm rola və əhə miyyətə malik olduğu mə'lumdur. Onlar əsas qəhrəmanların xarakterlərinin tam açılmasına bərabər, obrazları bir-biri ilə əla qələndirir. Hadisələrin inkişafını əsaslandırır, əhvalatın, surət dərin daha gərgin və maraqlı təsvirinə kömək edir. Xaspolad surəti belələrindəndir. O əsərdə özünəməxsus bir yer tutur cəsur döyüşçü kimi verilir. Xaspolad hadisələri əvvəlcədən izlədiyi üçün Leylanı faşist cəlladlarının əlindən xilas edir:

**Xaspolad ildırımtək**
**Cumdu oda bir anda**
**Çıxdı bir azdan sonra**
**Leyla da qucağında.**[1]

Bu obrazla tanışlıqdan sonra oxucu özü də keçdiyi həyat yolu hvqqında düşünür, sabahı barədə, ödənilmiş ictimai borclar barədə düşünür, balaca qəhrəman Leyla kimi Vətən qarşısında mə'nəvi borcunu ödəmək istəyi ilə yaşayır.

Yuxarıda adlarını çəkdiyimiz və öz münasibətimizi bildir diyimiz "Qaranquş yuvası" və "Leyla" poemalarından aydın olu ki, M.Rzaquluzadə sənətkarlığını aşkar edən cəhətlərdən biri nis bətən çox yazılmış mövzulara müraciət edəndə onu özünəməx sus cizgilərlə işləməsidir. Doğrudur, İkinci dünya müharibəs mövzusunda çox əsərlər yazılmışdır. Bütün bunların içərisində M.Rzaquluzadənin əsərlərindəki orijinallıq diqqəti cəlb edir.

Müharibə böyük fəlakətlər, ağır nəticələr törədir, atanı övlad dan, bacını qardaşdan, sevgililəri bir-birindən ayrı salır. M.Rza quluzadə "Məktublar" poemasında körpəsinin üzünü görmədən

----------------------
1. Rzaquluzadə M.Leyla.Yaz günəşi. s.128



cəbhəyə yola düşən ataların qəlb ağrısından bəhs edir. Süjet və kompozisiyasına görə bu poema müharibə mövzusunda yazılmış başqa əsərlərdən fərqlənir və dediklərimizi təsdiqləyir.

Məktublar cürbəcür olur, insanların qəlbindən xəbər verir, onların simasını açır, gözəlini, çirkinini üzə çıxarır.

Məktublar oxunanda hər kəsin duyğusu, düşüncəsi, kini, qəzəbi aşkar olur, dost və ya düşmən olduğu aydınlaşır. "Məktublar" poeması M.Rzaquluzadənin müharibə mövzusunda yazılmış üçüncü poemasıdır. Bundan əvvəlki əsərlərindən fərqli olaraq, burada hadisələr məktublardan bilinir. Doğrudur, poemanın qəhrəmanı Arslan və Leyla kimi düşmənlə üz-üzə gəlmir, əlbəyaxa olmur, nə də əlinə silah alıb döyüşə getmir. Ancaq burada iki qızın Solmazla Bertanın eləcə də onların atalarının xarakteri məktub vasitəsilə açılır. Müəyyən priyomla birinin Vətənə, xalqa bağlı olduğu göstərilirsə, o birinin düşmən sifəti, maska altında gizləndiyi aydınlaşır. Poema girişdən sonra Solmazın atasına məktubu ilə başlayır. Məktəbli Solmaz yazır: əziz atam, arzumuz budur ki, düşmənə qalib gələsən, qələbə ilə evimizə qayıdasan, bir də onu yazım ki, cəbhəyə yola düşəndən sonra bir qardaşım doğuldu, adını Zəfər qoyduq. İndi o, beşiyində dərin yuxudadır, gərək elə vuruşasan ki, Zəfərə ilk hədiyyən zəfər olsun. Kolxozumuzda işin qızğın çağıdır, qocalarla uşaqlar yarışırlar, indi kənddə bir nəfər də olsun işləməyən tapılmaz. Sən cəbhəyə gedəndən sonra mən də boş vaxtlarımda kolxozçulara kömək edirəm. Bütün məktəblilər səfərbərliyə alınıb, kolxozun hər işinə kömək edirlər. Cəbhədə baş verən xəbərləri eşidir və oxuyuruq. Tez olun, düşməni məhv edin, onları doğma toopağımızdan qovun, rədd olb getsinlər.

Poemanın ikinci hissəsi "Bertadan atasına" məktubla başlanır. Burada oxucu tamamilə başqa söhbətin şahidi olur. Acgöz, qaraxəbər, əsl mə'nado riyakar Berta atasına yazır: dünən qardaşım Fridrixi basdırdıq. Qaldıq anamla mən, əgər belə getsə biz də çox yaşamarıq. Eh, atacan bizə bol-bol və'dlər verirsən, ancaq heç birinə əməl etmirsən. Onu bil ki, boş və'dlərlə qarın dolmur. Gah yazırsan ordumuz qalib gələr, Rusiyanı qul edərik, bu hələ xəyaldır. Anam deyir, özünü oda vursun, hər necə olsa da bizə corab. çəkmə göndərsin. Keçən dəfə bir qutu yağlı kolbasa, pendir göndərmişdin, onunla qarın doydurmaq olmaz.

Ata, hamı soyur, sən də soy, bizə bir şey göndər, tezliklə səndən sovqat gözləyirik. Başqaları kimi əlinə düşdükcə fürsəti əldən vermə, çap, tala, bizə göndər.

Solmazın məktubu ilə oxucunun nəzərində gözləri yaşlı, sözlü-söhbətli, ancaq dolğun simalı, atası üçün, Vətən üçün dili-dodağı titrəyən, ehtiyacla yaşayan, yaşlı adamlar kimi dərd çəkən, hər dəqiqə atasını düşünmədən intiqam almağa səsləyən vətənpərvər bir qız canlanırsa, Bertanın məktubu oxunanda heç nədən ehtiyacı olmayan, soyğunçu, acgöz, yalançı, insanlıq simasını itirmiş, vəhşi təbiətli bir ailədə böyümüş faşist övladının murdar siması açılır, oxucu onun alçaq niyyətinə nifrət edir. Fikrimizi əsaslandırmaq üçün əsərdən gətirilmiş nümunəyə diqqət edək:

Solmazdan atasına:

**Əzizim, gözüm, ata,**
**Ən şirin sözüm ata.**
**Qalib gəl, qabağında**
**Oynayım- süzüm, ata.**[1]

Bertadan atasına:

**Ata, quru məktubla**
**Adamın qarnı doymaz.**
**Hamı soyur, sən də soy,**
**Bizə şey göndər bir az.**[2]

Göründüyü kimi, Vətən müharibəsi illərində M.Rzaquluzadə bu cür mövzuya həsr etdiyi əsərləri canlı hadisələrin şahidi ola-ola yazırdı. O, belə əsərlər üçün materialı arxivlərdən deyil, həyatın özündən, hər gün gördüyü insanlardan, yaxından duyduğu hadisələrdən alırdı.

Poemanın sonrakı fəsilləri daha maraqlıdır. "Atasından Solmaza" adlı hissədə qəhrəman Ayaz qızına yazır: əziz qızım, qələbə günümüzə az qalıb, məndən şad xəbər istəyirsən, onu deyim ki, snayperəm, faşistləri bir-bir vurub, canavartək ovlayıram. Burda yoldaşlarımla yarışıram, bu gün faşist cəlladını məhv etmişəm. Bir faşist təyyarəsini nişan alıb vurdum. Bax, mənim sizə şad xəbərim budur.

---

1. Rzaquluzadə M. Ölkəmin çiçəkləri.-Bakı. Uşaqgəncnəşr, 1962, s.70
2. Yenə orada, s.75



Bir də qızım, anana söylə ki, aldığım medalı öz əlimlə anana təqdim edəcəyəm.

Əziz qızım, sənə bir dostum vasitəsilə məktub göndərirəm, içərisində çiçək var. Onu əziz tut, əzəz saxla, çünki o çiçəyin üzərində qan ləkəsidir. O ləkə faşist cəlladlarının öldürdükləri günahsız qızın qanıdır. Biz cəbhəçilər qanlı çiçəkləri dərib siz məktəblilərə göndəririk. Siz isə qoruyub saxlayın. Qızım, bütün məktəblilərə, dostlarına salam söylə, tezliklə görüşərik.

"Atasından Bertaya" məktubunda oxuyuruq: qızım, burada vəziyyət yaxşı deyil, partizanların əlində öləcəkdim, balaca uşaqlar daxmamıza od vurmuşdular, az qala hamımız məhv olmuşduq.

Mən burada qəssablıq, aşpazlıq edirəm, talançılıqdan əlim çıxıb, bir təhər özümü qoruyub saxlayıram. Ancan Allaha şükür bir gün əlimə fürsət düşdü, kəndə girəndə gördüm bir cavan qızı vurublar, ayağında çəkmə, əynində yaxşı bahalı paltar var, düzdür, onlar qana bulanıblar, eybi yoxdur yuyarsan gedər. Bir də qızım, mənə araq göndərin, onda sizə bol-bol sovqat göndərərəm. Ancaq ruslar bütün cəbhə boyu hücuma keçiblər. Deyəsən, əcəlim yetişib.

Poemanın üçüncü və dördüncü hissələri snayperçi Ayazın və yefreytor Fris Ştarkın məktublarından bəhs olunur. Bu məktublardan aydın görünür ki, övladları hər cəhətdən atalarına bənzəyirlər.

Ayaz cəbhədə igidlik göstərir, düşmən ordusunun yolunu kəsir, qələbədən qələbəyə can atır, döyüş meydanında qəhrəmanlıq göstərir. Xarabazarlığa çevrilmiş şəhər və kəndləri, yandırılmış, susuz qalmış bağları gördükcə, düşmənə qarşı amansız olur, nifrəti birə-beş artır.

Frisştarkın qızına yazdığı məktub isə faşistlərə qarşı nifrət hissi doğurur. Burada cəlladların bəd və yaramaz əməlləri açılır, işğalçı, tamahkar heç bir məqsədə nail ola bilmir. Axırda öz gülləsinin qurbanı olur.

Maraqlı, bədii bir üsulla düşmənin qəddarlığını gənc oxucuya başa salan gənc şair uşaqların anlayacağı sadə bir dillə alman faşistlərinin törətdiyi vəhşiliklərdən söhbət açır. Uşaqları vətənin qədrini bilməyə, sayıq olmağa, cəbhəyə kömək etməyə çağırır, demək istəyir ki, vətəni sevən hər kəs onun ağrılı-acılı və çətin gününə biganə qala bilməz.

"Məktublar" poemasında şairin yığcam və dinamik süjet qurmaq bacarığı aydın görünür.

Ayazın ayrılıq həsrətini, övlad məhəbbətini, habelə onun vətəndaşlıq duyğularını əks etdirən səhifələri yadda qalan canlı səhnələrdəndir. Poemanın məzmununa uyğun təsvir üsulu tapan müəllif, hər bir fikri, ideyanı müvafiq forma və biçimdə əks etdirməyə çalışmışdır. Əsər belə tamamlanır:

**Kəndə yaxın, pusquda**
**Durmuş snayper Ayaz.**
**Kənarda yol tərəfdən**
**Birdən səsləndi bir qaz.**
**Yefreytor Fris Ştark**
**-"ova" çıxmışdı gecə.**
**Oğurlamışdı qazı,**
**Aparırdı gizlicə.**
**Birdən açıldı güllə,**
**Frisin qazı qaçdı,**
**Özü də yumbalandı.**
**Ayağı başdan aşdı.**
**Saymazca baxdı Ayaz,**
**Yerinə yatdı yenə.**
**Bir rəqəm də artırdı,**
**Öz hesab dəftərinə![1]**

Şair Ayazın keçirdiyi iztirabları, güllələnən yoldaşlarının, yandırılan kəndlərin intiqamını almaq üçün ciddi-cəhdlərini, yüksək mə'nəviyyatını inandırıcı ştrixlərlə verməyə müvəffəq olmuşdur.

M.Rzaquluzadənin müharibə mövzusunda yazdığı əsərlərinin uğurlu cəhətlərindən biri də onun mənfi surətlərə qəsdən tünd və sün'i boyalar vurmamasıdır. Belə ki, o həmin obrazları daxili sarsıntı və büdrəmələrinə, həyatdakı əməllərinə görə cəzalandırır, sonra onları özünə məxsus hiss və həyəcanla təsvir edir.

Bura qədər deyilənlərdən belə nəticəyə gəlirik ki, adamlarımız vətənpərvərlik duyğuları Böyük Vətən müharibəsinə həsr olunmuş əsərlərdə xüsusilə parlaq şəkildə təsvir olunmuşdur. Burada döyüşçülərimiz doğma yurdumuzun xilaskarı kimi tərənnüm olunur.

-------------------------

1. Rzaquluzadə M. Ölkəmizin çiçəkləri. 1962. s.81-82



Adamların vətənpərvərlik qeyrəti, ümumiyyətlə, müharibə haqqında yaranmış kitablarda daha böyük miqyasda təsvir edilir. Bu əsərlərdə döyüşçülərimiz mütəfəkkir və xilasedici kimi göstərilir.

Vətən övladları müharibədə nəinki özünün bütün ictimai və mə'nəvi keyfiyyətlərini aşkara çıxardı, eyni zamanda, formalaşdı və cəmiyyətimizin fəxri vətəndaşı kimi məşhurlaşdı.

Qəhrəmanlıq, qələbəyə inam pafosu ilə yoğrulmuş uşaq ədəbiyyatımız müharibə illərində xalqımızın fikir və düşüncəsini əks etdirərək həm ideya, həm də bədii sənətkarlıq cəhətdən kamilləşdi. Lirik və satirik şe'rlərdə, hekayə və povestlərdə adamlarımızın qorxmazlığından, rəşadət, əmək fəallığından, ölkənin xeyri üçün çalışqanlığından danışılmış, uşaqlarımızın həyatından bəhs olunmuşdur. Bununla da, oxucular aparılan müharibənin mə'nasını başa düşmüş, haqq və ədalətlə haqsızlığın və özbaşınalığın nisbətini yaxşı ayırd edə bilmişlər.

Doğma vətənimizin valehedici təbiətinin gözəlliklərini poetik bir dillə tərənnüm etmək, onu hər hansı bir əsərin ictimai-siyasi mə'nası ilə bağlamaq Azərbaycan uşaq ədəbiyyatının yaxşı xüsusiyyətlərindən sayılmalıdır.

Mə'lumdur ki, hər bir yazıçının öz müşahidələrinə əsaslandığı, qəlbinə hakim kəsilən, onu daim narahat edən mövzusu vardır, yurdmuzun dünəninə, bu gününə, respublikamızın tərəqqisinə həsr olunmuş əsərlər təşkil edir.

Onun tərənnüm etdiyi təbiət lövhələri hadisəni, əhvalatı, bə'zən də insan xarakterini açmaq üçün zəmin yaradır, onlarla həmahəng olur və çox vaxt da onları tamamlayır.

Şair oxucularında dərin inam yaratmaq istəyir ki, təbiət və onun gözəlliklərini sevmək, onları qorumaq, hər bir vətəndaşın borcudur.

Şair yaxşı bilir ki, gənc nəslin əxlaqi və estetik tərbiyəsində, onların gümrah böyüməsində, hiss və duyğularının inkişafında təbiət təsvirinə həsr olunmuş əsərlərin xüsusi yeri vardır.

V.Q.Belinski təsadüfi olaraq yazmırdı ki, uşaqlar üçün təbiətdən yazan müəllif gərək təbiəti və psixologiyanı yaxşı bilsin. Öz fikrini quru dillə yox, maraqlı nağılla, lövhələr, şəkillər, hərəkətlərlə, hiss və həyəcanla çatdırsın, Onda uşaqlar Vətəni, təbiəti yaxşı duyar, onun gözəlliklərindən estetik zövq ala bilərlər.[1]

-------------------------

1.Belinski V.Q., Uşaq psixologiyası haqqında (Sem□□ i şkola) 1961, №6

M.Rzaquluzadə Vətənimizin füsunkar gözəlliklərini oxucularına sevdirmək, onlarda vətənpərvərlik hissini, təbiəti dərindən duymaq və onun gözəlliklərindən zövq almaq üçün ciddi sə'y göstərmiş, əmək və zəhmətdən çəkinməmişdir. Onun təbiət aləminə həsr etdiyi "Yaz gələndə", "Yaz bayramı", "Gül-çiçək əkək", "Xəzri, gilavar", "Təbiəti sevənlər mahnısı", "Bayram sovqatı", "Yaz yuxusu" və başqa əsərlərini buna misal gös-tərmək olar.

Ümumən, bu poemalarda müəllif bahar fəslinin gəlişi ilə təbiətin cana gəlməsinin, bütün aləmin yaşıllığa bürünməsinin, köçəri quşların bu yurda qonaq gəlməsinin bədii təsvirini vermişdir.

Bahar müjdəçiləri olan köçəri quşların gəlişi hamını sevindirir. Elə bil bu gəlişə şair özü hamıdan çox sevinir:

**Çəmən-düzən çiçək-çiçək,**
**Yer də, göy də gözəl-göyçək.**
**Arzularla dolar ürək**
**Yaz gələndə, yaz gələndə.**
**Yaz gələndə, saz gələndə...**
**Quşlar bizə qonaq gələr,**
**Hər tərəfə şən nəğmələr-**
**Aşar-daşar səhər-səhər**
**Yaz gələndə,**
**Yaz gələndə,**
**Yaz gələndə, saz gələndə.**[1]

Bahar müjdəçisi ilk dəfə çöllərə qonaq gəlir. Bu gəliş çöllərə böyük fərəh gətirir. Onlar bu əziz qonaqlarını qarşılamaq üçün bütün aləmi nura boyamaq istəyirlər. Elə bil hamı, hətta təbiətin özü də quşların gəlişini gözləyir, çünki yazın gəlməsini ilk dəfə onlar xəbər verirlər.

"Yaz gələndə" poemasındakı səmimiyyət və hərarət oxucuları ruhlandırır, onları həyatda faydalı olmağa çağırır.

Burada ustad Ələsgərin bir sözü yada düşür: "İnsan payız ölə, yaz dirilə". Qəribədir, adama elə gəlir ki, yazda bütün sinirlərdən, bütün əzalardan təkcə özünün güclə eşidə biləcəyin bir gizilti, bir uğultu gəlir. Badam çiçəyinə, gilanar puçuruna, ərik tumurcuğuna baxdıqca sanki ürəyinə bənövşəyi, ağımtıl

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı, 1981, s.



işıq şüaları düşür, bütün varlığın işıqlanır, o şüanın altında adama elə gəlir insanın qanı təzələnir, nəfəsi, səsi durulur. Elə bil ki, dünyanı, yaxşılı-yamanlı bütün insanları sevmək, özü də hamısına xoş söz demək istəyirsən.

**Mən də yaza vurulmuşam,**
**Saza-sözə vurulmuşam,**
**Axı anadan olmuşam**
**Yaz gələndə,**
**Yaz gələndə,**
**Yazın kefi saz gələndə.**[1]

M.Rzaquluzadə torpağın ətrini duyan, onun qədrini bilən zəhmət adamlarının əməyini tərənnüm edən iste'dadlı aşirlərimizdəndir. Onun bu mövzuda onlarca əsərlərinin adını çəkə bilərik. Şairə görə ömrü uzadan, cana qüvvə, həyata min bir bəzək verən, ürəkləri fərəhləndirən yaşıllığı qorumaq, bir sözlə, təbiətin qeydinə qalmaq hamının borcudur. Xüsusilə də, məktəblilər bu işlə daha çox maraqlanmalıdır. Bu da hər şeydən əvvəl onlardan diqqət, səbr və mə'sulliyyət hissi tələb edir.

Oxucuya mə'lumdur ki, meşəni canlı edən və gözəlləşdirən onun daimi sakinləridir. Bu sakinlər olmasa, insana meşələr kədərli və cansıxıcı görünər. Bu məsələ üçün sanki hamıdan da çox şairin özü narahat olur. Çünki şair yaxşı bilir ki, meşələrin canı olan, onları aləmə sevdirən, tanıtdıran heyvanlar və quşlar olmasa, onu heç kim bu qədər sevməz.

**Ay qılquyruq qırqovullar,**
**A kəkilli torağaylar,**
**Xallı turac, boz dovşanlar,**
**A cüyürlər, a ceyranlar,**
**Heç qorxmayın, heç qorxmayın.**
**Ay əzizlər, mehribanlar,**
**Nə oxatan–tüfəngatan**
**Deyilik biz,**
**-Nə quşvuran, heyvantutan**
**Deyilik biz,**
**Sizə dostuq, sizə düşmən**
**Deyilik biz...**[2]

---

1. Rzaquluzadə M. İlin yazı, elin sazı. 1981. S.9
2. Rzaquluzadə M. İlin yazı-elin sazı.1981.s.235

Həyatın daima qaynar, nəğməli, səsli-küylü olmasın arzulayan, bir təbiətin sevilməsini əsas şərtlərdən biri kimi götürür. Meşənin, bağın gözəlliyini tamamlayan, onu daha d gözəlləşdirən heyvanat aləminin ürəkoxşayan nəğmələrini təbiətin, meşələrin sevilməsində böyük xidmətləri vardır, deyir. Şairə görə insanlar meşələri onun yalınz ağaclar aləmini yox, həm də quşlar və heyvanlar aləminə görə sevməlidirlər. Bu cəhətdən "Qorxunc qorxaq poeması" daha xarakterikdir.

**Ayıların, meymunların,**
**Çaqqaların cır səsləri**
**Bir-birinə qatışır.**
**Heyvanlar da,**
**İnsanlar da**
**Çığırışır-qaçışır**
**Kürən tülkü,**
**Boz canavar,**
**Çəpgöz dovşan,**
**Xallı maral,**
**Kafir kaftar,**
**Gözəl ceyran, Qaçır hərə bir yana**
**Çölə, düzə, ormana.**[1]

Şairin poemada bir sıra heyvanların adlarını sadalayır, sonra də onların həyat tərzi barədə uşaqlarda müəyyən təsəvvür oyadır. B də oxucularını başa salır ki, heyvanlar dağlarda, dərələrdə, çə mənliklərdə, meşələrdə yaşasalar da insanlar üçün çox xeyirlidi

M.Rzaquluzadə ilin fəsillərinin özünəməxsus gözəlliyin təsvir etmək üçün təbiət təsvirinə tez-tez müraciət edir. Keçi diyi hiss və həyəcanı əsərlərinin leytmotivinə çevirə bilir. Tə biətin oyanan, qaynayıb-coşan çağı olan baharın, qızıl payızın eləcə də qış fəslinin obrazları dərin ekspressiya gücünə mali olur. Əlbəttə, bu, hər şeydən əvvəl, fəsillərinin simvolik obra zının verilməsində görünür. məsələn, bunu biz "Payız gedir, q gəlir", "Qar yağır", "Qış gəlir", "Bayram sovqatı" və başqa poe malarında görürük. Nümunə üçün aşağıdakı parçalara diqqə edək:

----------------------

1. Rzaquluzadə M. İlin yazı-elin sazı,1981.s.144



**Hər fəslin gözəl-göyçək**
**Barı-sovqatı vardır.**
**Yazın sovqatı-çiçək**
**Qışın sovqatı-qardır.**[1]

Yaxud,

**Payız gedir, qış gəlir,**
**Qar gəlir, yağış gəlir.**[2]

Bu poemaları oxuduqca adamın gözləri qarşısında sanki bir rəssamın çəkdiyi təbiət lövhələri canlanır. M.Rzaquluzadə şe'r-lərində adi məsələlərə o qədər həssas və zəifliklə yanaşır ki, oxucunun nəzərindən ilin fəsillərinə aid heç bir səciyyəvi detal yayınmır. Kiçik oxucular qəlbən inanır, hiss edir və öyrənirlər ki, qışda nələr olur, yazda təbiət öz donunu necə dəyişir, bərli-bəhrəli payızda yetişmiş məhsul toplanır, yay nə üçün isti olur. Uşaq psixologiyasının formalaşmasında mühüm əhəmiyyəti və rolu olan məsələlərin bədii üsullarla həllini verməkdə şairin iste'dad və ilhamının gücü bu əsərlərdə aydın hiss edilir.

M.Rzaquluzadənin yaradıcılığnda tə'lim tərbiyə, əxlaq, məktəb və ailə məsələləri xüsusi yer tutur. Mə'lumdur ki, ailə və məktəb tərbiyəsi vətənpərvərlik hisslərini daha da gücləndirmək, dostluq, yoldaşlıq münasibətlərinin inkişafı və sair cəhətlər üçün çox əhəmiyyətlidir.

Oxucusuna nəcib hisslər aşılamağa çalışan şair istəyir ki, uşaqlar faydalı işlər görsünlər və əməyin mə'nasını, nə dərəcədə şərəfli olduğunu başa düşsünlər, gördükləri işdən zövq alsınlar. Bu baxımdan "Düymə" poeması maraq doğurur. Məktəbli Elman qırılmış düyməsini pencəyinə tikə bilmir. Çünki o bilmir ki, ağ sapla, yoxsa qara sapla tikmək olar. Anası oğlunu başa salandan sonra o, düymə tikməyi öyrənir.

**Elman üçüncü dəfə**
**Tikdi bircə düyməni**
**Düzdür, bir-iki dəfə**
**İynə əlinə batdı.**
**Düzdür bir-iki dəfə**

----------------------

1. Yenə orada, s.111.
2. Rzaquluzadə M. İlin yazı, elin sazı.1981,s.126.

**Barmağını qanatdı,**
**Ancaq öyrəndi-bildi**
**Bildi ki, düymə tikmək**
**Oğlan üçün nə ayıb,**
**Nə də çətin deyildir.**[1]

Ümumiyyətlə, müəllif əsərlərində belə nəticələrə gəlir ki, gələcək nəslin sağlam böyüməsində, ailə tərbiyəsindən çox şey asılıdır. Ailənin möhkəm və düzgün qurulması, uşaqların da tərbiyəsinə, onların həyata baxışlarına öz müsbət tə'sirini göstərir. Belə olduqda uşaqların valideynlərə hörməti və məhəbbəti də artar. "Düymə" poemasında Elmanın anasına bir övlad kimi səmimiyyəti və məhəbbəti nümunəvidir.

M.Rzaquluzadənin "Bayram sovqatı", "Bayramlar" və başqa əsərlərində anaya məhəbbət, habelə ana qayğısı çox tə'sirli və maraqlı bir dillə qələmə alınmışdır. Uşaqlar həmişə ana nəvazişinə, ana qayğısına ehtiyac duyurlar. Bu hissləri dərindən duyan şair poemalarında ürək sözlərini poetik dillə oxucusuna çatdıra bilir.

M.Rzaquluzadənin bir sıra əsərlərində olduğu kimi, "Qoruqçu" poemasında da əmək mövzusu mühüm yer tutur. Şair yazır:

**Ağac əkmək,**
**Gül-çiçək becərmək,**
**Talvar qurmaq,**
**Həyətləri, küçələri yaşıllıqla,**
**Gül-çiçəklə bəzəmək**
**Və bunları qorumaq**
**Yaxşı işdir, şübhəsiz,**
**Hər kim belə iş görsə, gərək**
**Sağ ol-deyək**
**Ona biz...**[2]

Poemadan çıxan ümumi nəticə budur ki, uşaqlara ağac əkdirmək, yaşıllıqlar saldırmaq, salınmış bağ-baxçaya qulluq etmək vacib şərtlərdən biridir.

M.Rzaquluzadənin əməyə, Vətənə daha çox məhəbbət duyğuları aşılamaq istədiyi poemalaradan biri də "Yaz yuxusu"dur

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı. Bakı.Gənclik,1981,s.188
2. Rzaquluzadə M. İlin yazı-elin sazı.1981. s.198.



Burada şair fikrini əyani surətdə oxucusuna çatdırmaq istəyir. Məktəbli Tokayın əməyə, zəhmətə sonsuz məhəbbətini vermək üçün ibrətamiz misallar çəkir, onu həyati və faydalı işlər görməyə ruhlandırır.

**Tokay həvəsə gəlib,**
**Bostan salmaq istədi.**
**Ölçüb-biçib fikrində,**
**Öz-özünə dedi:**
**"Bax burda gül əkərəm,**
**Burda qərənfil, mixək,**
**Burda reyhan, ətirşah,**
**Burda cürbəcür çiçək.**
**Bir cərgə qarığdalı,**
**Bir cərgə günəbaxan.**
**Bura gülüstan olar,**
**Bu tərəf dirrik-bostan**
**Qovun, qarpız, yelpənək,**
**Şamama, kahı, bibər...**
**Qoy mənə "sağ ol" desin**
**Bağça-bağı görənlər".**[1]

Poemada belə fikri uşaqlara aşılayıb təbliğ etmək, əlbəttə çox faydalı, xeyirxah bir işdir. Şairə görə görə uşağı kiçik yaşlarından əməyə alışdırasan, zərərli işlərdən uzaqlaşdırıb, nəcib və xeyirxah əməllər dalınca getməyə ruhlandırasan. Belə olduqda əmək uşaqların formalaşmasında şübhəsiz, çox böyük rol oynayır.

M.Rzaquluzadə bir sıra əsərlərində, o cümlədən "Kosmosda ilk heykəl", "Daha da yüksəklərə", "Bizim günəş", "Planetdaş" və başqa əsərlərində dövrün elmi-texniki tərəqqisi və günün tələbləri səviyyəsindən çıxış edir, uşaqlarda əsrimizin mədəni-elmi nailiyyətlərindən bəhrələnməyə maraq və həvəs doğurmağa çalışır.

**Bu yeni əsrdə**
**kosmosda ilk planetə**
**ilk qədəm qoyan insan sən olacaqsan, sən.**
**Orada da quracaq, yaradacaq sənin əlin.**

---

1. Yenə orada.s.134-135

Orada qoyulacaq ilk heykəl,-
Sənin heykəlin.[1]

1981-ci ildə Azərbaycan dövlətinin rəhbəri H.Ə.Əliyev Re publika yazıçılarının VII qurultayındakı nitqində demişdir: " ( dövrünü tam dolğunluğu ilə göstərməyin, ictimai inkişaf dialel tikasını bədii formada canlandırmağın, onun ən mühüm meyllər və qanunauyğunluqlarını açmağın necə məs'ul vəzifə olduğu hər bir sənətkarın dərk etməsi çox böyük əhəmiyyətə malikdir".

Doğrudan da bütün nailiyyətlərimiz və əldə edilmiş qələbə lərimiz sənətkarlığımızı həmin bu məsələyə aid bədii əsərl yazmağa ruhlandırdığı kimi, M.Rzaquluzadəni də bu məsəl həmişə çox ciddi və məs'ul bir iş kimi düşündürmüşdür.

Ümumiyyətlə, M.Rzaquluzadənin əsərldəri gənc oxucul üçün əsil tərbiyə məktəbi olmuşdur. Ona görə də uşaqlar on hər bir əsərini həvəslə oxuyurlar. Çünki onları maraqlandıra düşündürən bütün məsələlərin cavablarını qocaman şairimiz əsərlərinidə tapırlar.

Dövlət ədəbiyyat və incəsənət arxivində bəhs etdiyimiz po malarla yanaşı "Mahnigar", "Qan sarayı", "Nizami", "Qoşa ç nar" mənzumələrinin də avtoqrafı saxlanılır.[3]

---

1. Rzaquluzadə M. Yaz günəşi, 1977,s.41
2. Əliyev H. Sovet ədəbiyyatının yüksək borcu və amalı.-Bakı, Az nəşr, 1981, s.23
3. DƏİƏ. Fond №621, siyahı №1. Qeyd: "Qan sarayı" poemasının i variantından bə'zi parçalar 30-cü illərin əvvəllərində "Mahnigar" adı i "İnqilab və mədəniyyət" məcmuəsində çap edilmişdir. Fond. №621, siy hı №1, sax. Vah.2



## BƏDİİ NƏSRİ VƏ PUBLİSİSTİKASI

### HEKAYƏLƏRİ

M.Rzaquluzadə bədii nəsrin bir sıra gözəl, lakonik nümunələrini yaratmışdır. Onun hekayələrində poeziyaya məxsus bir şirinlik var. Bunun bir neçə səbəbi vardır. Əvvəlcə onu qeyd etmək dazımdır ki, M.Rzaquluzadə xalq nağıllarını, xalq rəvayətlərini gözəl bilir, buna görə də xalq təfəkküründən gələn rəvan təhkiyə üsulu, obrazlılıq onun hekayə yaradıcılığına tə'sirsiz qalmır. Digər bir tərəfdən müəllif təbiəti dərindən duyduğu və yaxşı bildiyi üçünı, hekayələrində təbiilik güclüdür. Dilindəki aydınlıq və cazibədarlığı da məhz onunla izah etmək lazımdır. Yazıçı vurğun olduğu təbiətin şe'riyyətini-onun dağlarını, meşələrini, büllur çeşmələrini, çiçəklərini, otlarını-kitablardan gələn köhnə təşbehlərlə deyil, özünün duyduğu, bildiyi kimi təsvir edir. Daha sonra yazıçı canlı, tipik hadisələri seçib, bu hadisələr fonunda canlı obrazlar yarada bilir. Yazıçının "Xan Çinarın bir yarpağı" adlı hekayəsindən kiçik bir parçaya nəzər salaq:

"Al şəfəqdə işım-işım işıldar xan çinarın yarpaqları,
Quşlar yuva qurar, bala böyüdər xan çinarın qucağında.
Dan yelləri əsəndə, ilk civiltilərə qarışar, səhər nəğməsi kimi səslənər xan çinarın yarpaqları.
Gün qızanda, qayadan fışqıran buz bulaq suları kimi şırıldar, ürəkləri sərinlədər yarpaqların xışıltısı.
Xan çinarın yarpaqlarına zərli naxışlar çəkər
batan Günəşin son işıqları".

Bu parçada canlı bir rəsm edilmiş, füsunkar bir şe'riyyət tablosu yaradılmışdır. "Xan Çinarın yarpağı" mənsur şe'rdir. Əsər bir həzin musiqi kimi qəlbimizi titrədir.

Lakin əsərlər bizə yalnız estetik zövq vermir. Burada həyatın adicə təzahüründə yazıçı gözəlliyin ölməzliyini, əbədiliyini tərənnüm edir. Bizi həyatın deyil, ölümün keçici, müvəqqəti olduğuna inandırır. Təsvir olunan Xan Çinarı biz baharda da, payızda da görürük. Onu bizə yazıçının canlı təsviri göstərir. Yarpaqları tökülən çinarın altında bir qızcığaz dayanıb təbiətin şe'riyyətinə heyran qalmışdır. O, yarpaqlardan birini əlinə alır. Saralan yarpaq onda mübhəm bir həsrət və kədər hissi oyadır, qız kövrəlir, doluxur. Çünki o. həyatın və təbiətin qanunlarını yaxşı

dərk etmir. Qızcığazın əlindəki Xan Çinarın yarpağı dilə gəlir:

"Mən bu qocalan Xan Çinarın bir yarpağıyam, balacan, yalnız bircə yarpağı.

Biz yarpaqlar gəldi gedərik, balacan, Çinar sağ olsun, var olsun.

Mən də bu solğun yarpaq kimi, ana torpağın qoynunda günəşin həsrətinə, yağışın rütubətinə qarışacağam, yenə də Xan Çinara qovuşacağam..."[1]

Bu əsərdə qüvvətli bir metamorfoza vardır. Həyatın ölməməsi, bir rəngdən başqa rəngə, bir haldan başqa hala çevrilməsi, fəlsəfi fikir müvəffəqiyyətlə əyaniləşdirilmişdir. Əsərin əsas ideyası da budur. Həyatda heç şey ölmür. Gözəllik ölmür, şəkildən-şəkilə düşür. Həyatın gözəlliklərini sevmək və qorumaq lazımdır.

Yazıçının nəsr dili son dərəcə rəvan və təbiidir. Müəllifin leksikonu, dialoqları lakonikdir.

M.Rzaquluzadənin "İşıqlar yandı" hekayəsində də biz coşub-daşan həyat sevincini, təbiət gözəlliyini, zəhmətin romantikasını hiss edirik. Yazıçı hekayəni çox təbii və maraqlı bir zəmində başlayır. Ov məsələsi əslində bu hekayədə əsas mətləbi demək üçün gözəl bir vasitədir. Hekayə qəhrəmanlarının ov haqqında ehtiraslı söhbətləri həyat və yaşamaq sevincinin məntiqi nəticəsidir.

Neft ustası Rəşidin öz işindən məhəbbətlə danışması, onun arzu və xəyalları xoşbəxt bir həyatın insanlara verdiyi imkanların canlı ifadəsidir. Rəşidin dostu Aleksey haqqındakı söhbətləri zəhmət adamlarının nəcib sifətlərini ümumiləşdirir. Qısa bir söhbətdə biz neft mə'dənlərindəki coşqun həyat və əmək tərzi, insanların bir-birinə sağlam və şüurlu münasibəti haqqında böyük çətinliklərlə qarşılaşan insanlar mə'nalı istirahət üçün də vaxt tapır, dincələ bilirlər. Adamların işə məhəbbəti onların həyat tərzindən doğan bir duyğudur. Mə'dən müdirinin dediyi sözlərdə böyük bir həqiqət vardır.

"Ancaq bə'ziləri bizim nailiyyətlərimizi, xüsusən bir fədakar zəhmət nümunələrini göstərəndə, işin bu cəhətini tamam yaddan çıxarırlar. Bu yaxınlarda bizim adlı-sanlı neft ustalarından biri barəsində yazılmış bir kitab oxudum. Düzü, lap acığım tutdu. Kitabdan belə çıxır ki, həmin neft ustası gündüz istirahət nə olduğunu bilmir".[1]

---

1. Rzaquluzadə M. Yaz günəşi.-Bakı, Gənclik, 1977.s.205-206.
2. Rzaquluzadə M. Yaz günəşi.-Bakı, Gənclik, 1977, s.212-213



Müdirin bu sözləri onu sübut edir ki, bizdə zəhmət meydanı insanların həyat enerjisini bütünlüklə onlardan almır, istirahət etməyə, dincəlməyə, öz fərdi duyğu və arzularının istəyinə cavab verməyə, onları tə'min etməyə vaxt da, imkan da qalır. "İşıqlar yandı" hekayəsində də biz birinci hekayədə tərənnüm olunan gözəlliyi görür və ondan zövq alırıq. "Xan Çinarın bir yarpağı" hekayəsində bir başa saf fəlsəfəsi verilmişdisə, burada insanla təbiət, onların arasındakı münasibət ahəngi doğur, bir-birinin gözəlliyini tamamlaya bilir.

M.Rzaquluzadənin "Düşərgədə" adlı hekayəsində belə bir fikir qabarıq şəkildə nəzərə çatdırırlar ki, təbiət yalnız zövq və gözəllik mənbəyi deyildir. Təbiət həm də insan üçün müdrik bir müəllimdir. Yazıçının təsvir etdiyi məktəbli uşaqlar bütün varlığı ilə təbiəti sevir, onun gözəlliklərini öyrənməyə, qorumağa çalışırlar.

M.Rzaquluzadə uşaq psixologiyasını dərindən bilir və bu psixologiyanın ən adi detallardakı təzahürünü məharətlə verə bilir. Yazıçının təsvir etdiyi məktəbli uşaqlar təbiət hadisələrini maraqla izləyən, öyrənən və öyrəndiklərini ümumi işin xeyri üçün istifadə etmək istəyən gələcək qəhrəmanlardır. Bu uşaqların hər biri gələcəkdə həyatın müxtəlif sahələrində xarüqələr yaradacaq, təbiətin daha da gözəlləşməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

M.Rzaquluzadənin təbiət haqqındakı əsərlərini oxuduqca oxucu özünü təbiətin qoynunda hiss edir, elə bil ki, təbiətin ətri ilə nəfəs alır, adamın ürəyi yaşamaq və yaratmaq eşqi ilə döyünür. Onun əsərlərində təbiətin təsviri tipik və canlı olanların əks-sədasıdır. M.Rzaquluzadənin poeziyasında olduğu kimi, hekayələrində də təbiət olduqca canlı və gözəldir, insanla dil açıb danışır, adamı sevindirir, təəssüfləndirir, düşündürür. Düşündürən, dəyişdirən təbiət bizi, hiss və duyğularımızı da dəyişməyə, həyatda düzgün istiqamət almağa məcbur edir.

Təbiəti öyrənmək, böyük bir kitabın vərəqlərini çevirmək deməkdir, insan həyatını da öyrənmək deməkdir.

"Təbiətin kitabı o qədər geniş, o qədər maraqlıdır ki, nə qədər oxusan, hər dəfə yeni-yeni şeylər görür, öyrənir və ləzzət alırsan...

Yaradıcı insan zəhmətin təbiəti daha da zənginləşdirib gözəlləşdirdiyini gördükcə, adamın ürəyi qürur və iftixarla dolur".[1]

---

1. Rzaquluzadə M. Yaz günəşi.1977.s.224

Yazıçının əsas qayəsi də budur.

M.Rzaquluzadə gözəlliyə çağırışla bərabər bir həqiqəti də demək istəyir ki, təbiəti yaxşı öyrənmədikdə, onun sirlərini dərindən dərk etmədikdə təbiət insan üçün vahimə, qorxu doğurur. Yazıçı bu fikri konkret şəkildə "Boş qorxular" adlı maraqlı hekayəsində daha qabarıq şəkildə verə bilmişdir. Hekayənin birinci bölməsində ("Cin şeytan toyu") mövhumi təsəvvürlər real faktlarla təkzib edilir. Gecə vaxtı yola çıxan üç yoldaşdan birisi qlağına qəribə toy səsi gəldiyini bildirir. O biri yoldaşlara da elə gəlir ki, bu həqiqətdir. Lakin səs gələn və işıq yanan xarabalığa gedəndən sonra onlar bu səslərin nədən yarandığını aydınca dərk edirlər.

Mə'lum olur ki, gecə yanan işıq fosforlu balıq sürsümüyündəndir. Köhnə qapının cırıltısı, köhnə borulara dolan küləklərin vıyıltısı isə qəribə səslər çıxarırmış.

Biz Salman kişinin söhbətində də mövhumi qüvvələr haqqında yaranan təsəvvürlərin, insan duyğularını boş xülyalarla çuğlayan və sarsıdan mistik xəyali qüvvələrin bir vax insan taleləri üərindəki mə'şum təntənəsini fikrimizə gətirdikcə, müasir insanların ayıq və sağlam düşüncələrinə sevinirik. Bu fikirlər yeni bədii və flsəfi kəşf olmasa da yazıçı orijinal deyim tərzi ilə oxucuların öz təsəvvürlərinin ardınca apara bilir.

Xüsusilə, gənc nəslin gözüaçıq tərbiyələnməsi, dünya hadisələrinə, əsrarəngiz qüvvələrə iti nəzərlə baxa bilməsi üçün bu fikirlər bu gün də aktuallığını saxlayır.

Yazıçı bədii sübut, bədii fakt və lövhələrlə köhnə təsəvvürləri tənqid etdikcə real şüurun böyük imkanları bizi sevindirir. Fikrimizin hər cür mistikadan yüksəkdə dayandığını hiss edib, təbiəti, dünyanı dərindən dərk etməyə hələ nə qədər ehtiyac olduğunu öyrənmək, öyrənmək üçün isə axtarmaq lazımdır. İnsanı təbiətin fövqündə saxlayan amillər bunlardır. Bu ruhda olan silsilə hadisələrin əsas ideyasını konkret olaraq hekayədəki surətlərin dili ilə yazıçı ustalıqla ifadə edir:

"Boş qorxular və vahimə deyilən şey budur, belə əmələ gəlir. Bunlar doğru-düzgün izah edilməyəndə mövhumata çevrilir".[1]

Yazıçının "Gözəlliyin keşiyində" hekayəsində gözəlliyi qorumağa, yaşatmağa ehtiraslı bir çağırış vardır.

---

1. Rzaquluzadə M. Yaz günəşi.1977.s.235.



Müəllif xüsusilə gənc nəslin təbiət qarşısında nə qədər borclu olduğunu maraqlı lövhələrlə izah edir: Ucal, Elman və Qantay kimi məktəbli gənclərin simasında təbiətin e'tibarlı keşikçilərinin obrazlarını yaradır. Hekayədə gözəl bir fikir var ki, normal şüura və duyğuya malik olan hər kəs təbiətin, Vətənin gözəlliklərini göz bəbəyi kimi qorumalıdır. Gözəllik bizə yaşamaq üçün ümid və təskinlik verir, onu sevmək və insan kimi başa düşmək lazımdır. Yazıçı hekayənin mərkəzində elə dərin bir konflikt qoymur. Lakin çox sadə və şirin təsvirdən hamımız başa düşürük ki, təbiətin də canlı və şüurlu düşmənləri vardır. Təbiətə düşmən kəsilənlər elə cəmiyyətin düşmənləridir.

M.Rzaquluzadənin təbiət haqqındakı hekayələrində real təsvirlə romantik xəyal birləşir. Onun təsvir etdiyi təbiətdə passiv idilliya yoxdur. Zahirən sakit görünən təbiətdəki mübarizəni, dramatizmi yazıçı bizə aça bilir.

Buna görə də bu hekayələrdə çox zaman bizi narahat edən suallara cavab tapır, yazıçının iste'dadını alqışlayırıq.

Ədibin "Şahin" hekayəsini oxuduqca xəyalımız uşaqlıq illərinə uçur, şirin məktəb xatirələri bizi qoynuna alır. Axı, biz hələ məktəbli ikən, "Şahin" hekayəsindəki Kamalın xəyallarında uçar, dünya bizim üçün şirin nağıllara çevrilərdi. Buna görə də ömrün hansı çağında "Şahin", "Ana ürəyi-dağ çiçəyi", "Babəkin andı" kimi hekayələri oxuyuruqsa, bu əsərlər bizə uşaq xəyalı kimi şirin görünür.

"Şahin" hekayəsində qəhrəmanlığın formalaşması prosesi təsvir edilmişdir. Xəyaldan həqiqətə qədər olan yol ardıcıl bir inkişafda verilir və həyat yollarının mürəkkəbliyi uşaqların psixologiyasına uyğun şəkildə göstərilir. Kamalın uçan xalçalar, divlər, pərilər haqqındakı xəyalları nə qədər romantikdirsə, onun düzəltdiyi "Şahin"lə qartalın toqquşması hadisəsi realistcəsinə mə'nalandırılmışdır. Göylərin sultanı olan qartal bu vaxta qədər geniş fəzalarda belə qorxulu rəqibə rast gəlməmişdi. Bu rəqib insan ağlı, insan əməlləridir. Sonralar, müharibə başlananda artıq gənc təyyarəçi olan Kamalla komissarın söhbətində biz "Şahinlə" qartalın əhvalatının mə'nalandırılmasında da insan ağlının təntənəsini görürük. Komissar deyir: ağlının təntənəsini görürük. Komissar deyir:

"Bilin ki, faşist quzğunları da belədir. Onlar da Avropa üfüq-

lərində özlərini göylər sultanı görüblər. İndi isə bizim şahinlər rast gəliblər. Tükü didilmiş faşist quzğunu qızıl şahinlərin önün-dən qaçacaq, məğlub olacaqdır".[1]

Təcrübəli, vəhşi faşist təyyarəsi ilə Kamalın vuruşması onun böyük qabiliyyəti bu fikirləri təsdiq edir. Kamal misilsiz bir igidlik göstərərək faşist quzğununu vurub yerə salır, düşmən təyyarçisi paraşütlə yerə enir. Onu döyüşçülər komissarın ya-nına gətirirlər. Düşmən 18-19 yaşlı Kamalı gördükdə, ağzında süd iyi gələn bir uşağa məğlub olduğu üçün hiddətindən do-daqlarını gəmirir.

Yazıçı belə bir həqiqəti təsdiq edir ki, bizdə xəyalla həqiqət arasında uçurum yoxdur. Kamalın təyyarəçi olmaq, qəhrəman-lıq göstərmək xəyalı həqiqətə çverilir. Əhvalat bu hekayədə çox inandırıcı təsvir edilmişdir.

M.Rzaquluzadənin vətənpərvərlik duyğularının bədii təza-hürü onun bütün əsərlərində əlvan obraz və tipik hadisələrlə müşayət olunur. "Adaşlar" hekayəsində yazıçı mübaliğəyə, bəsit təsvirlərə yol vermir. Tipik və canlı hadisələri təsvir edir. Budur, gənc dənizçilərdən ibarət olan gəmi hey'əti Bəsrə kör-fəzinə yaxınlaşır. Azad min bir gecə nağıllarındakı əsrarəngiz hadisələrin tə'siri altında ikən sahildən vəhşi musiqi sədaları eşidir. Qəribədir ki, bu təhrif olunmuş, eybəcərləşdirilmiş mu-siqi Azadın pərəstiş etdiyi "Şəhrizad" simfonik musiqisidir. Azadın vətənində bu musiqi insanı şirin xəyallara aparır, onu yaşamaq və gözəllikləri duymaq üçün qol-qanad verir. Burada çalınan "şəhrizad" isə həyatı eybəcər bir şəkildə gözdən salır, insanı ümidsizliyə çağırır.

Hekayənin "Qanlı əyləncələr" adlı hissəsində ərəb ölkə-lərindəki uşaqların dəhşətli aqibətləri, tükürpədici taleləri gös-tərilir. Bağdadın bütün ne'mətlərini Avropaya çəkib aparan kapital nökərləri yerli xalqın uşaqlarına, onların səfil, sərgərdan həyatlarına bir əyləncə kimi baxırlar. Yedikləri şeylərin artığını uşaqların arasına atır, onların bir-birilə didişməsinə ləzzətlə tamaşa edirlər. Onlar daha vəhşi bir oyuna əl atırlar. Konfet şəklində bükülmüş sabunu uşaqlara tullayaraq uşaqların keçirdikləri dəhşətli ağrılara xoş bir əyləncə kimi baxırlar.

---------------------

1. Rzaquluzadə M. Yaz günəşi.1977,s.260.



Zavallı uşaq əzab çəkə-çəkə getdiyi üçün ağası onu təpiklə vu-rur. Uşaq dənizə yıxılır. Azad və Kolya onu dənizdən – ölümün pəncəsindən xilas edirlər. Gəminin həkimi onu cana gətirir. Uşaq üçün yemək gətirəndə o, yeməyə əl vurmaq istəmir. Gözlərində yaş gilələnir, çünki onun ata-anası, bacıları aclıqdan taqətdən düşüblər.

Gəimçilər onu yaxşıca yuyundurub-geyindirdikdən sonra mə'lum olur ki, bu uşağın da adı Azaddır. Deməli, iki Azad.

M.Rzaquluzadənin "Səhər şəfəqi" hekayəsində Koreya xalqının Yapon işğalçılarına qarşı mübarizəsindən tipik hadisələr, Kim adlı koreyalı uşağın timsalında xalqın düşmənə qarşı nifrəti bədii sözün bütün qüdrətilə təsvir edilmişdir. Kim partizan oğludur.Onun atası çörək pulu qazanmaq üçün janq-lyorluq edir. Ata sənətini oğlu Kimə də öyrədir. Kim getdikcə məşhurlaşır. Bıçaqları uzaqdan qoyulan nişanlara istədiyi yerindən sanca bilir. Kim Qarabatdaq quşunu elə öyrədibmiş ki, dənizdə balıqları tutub Kimə gətirərmiş. Bir gün düşmənlər Kimin yaşadığı kəndə basqın edib, xarabazara çevirirlər. Kənd əhalisi mağaralarda yaşayır. Kim bir gün Qarabatdaq quşu ilə balıq ovuna gedərkən iki düşmənə rast gəlir. Düşmənlər onu sevimli Qarabatdağını güllə ilə vururlar. Kim iki bıçağı məharətlə tullayaraq düşmənlərin sinəsinə sancır. Bu bıçaqlar xalqın nifrəti, qəzəbidir. M.Rzaquluzadə bu hekayəsində də əvvəlkilərdə olduğu kimi hadisələri bədii faktların məntiqinə əsasən inkişaf etdirir, böyük hadisələr axınından ibrətli olanlarını seçib üzə çıxara bilir. Yazıçı öz müsbət qəhrəmanını, xüsusilə, uşaq və gənc obrazlarını oxucuya sevdirə bilir. Oxucu qəhrəmanların tale yollarını həyəcanla izləyir.

"Obrazları yaradarkən müəllif qəhrəmanlarının mə'nəvi aləminin dərinliklərinə nüfuz edir, xarakterlərində gizlənən fərdi keyfiyyətləri tapıb üzə çıxarmaqla kifayətlənmir, həm də bu qəhrəmanlarının təsvirində vacib cəhətləri seçir və bədii cəhətdən əsaslandırır".[1]

Ədibin bütün bədii yaradıcılığında olduğu kimi, hekayələrin-də də təbiət təsviri gözəl bədii üslubunun tərkib hissələrindəndir. Onun bədii kontrastları gözümüz qarşısında bütün təbiəti can-landırır. Təsvir edilən hadisələr son dərəcə inandırıcı görünür.

---------------------

1. Əhmədov C. Uşaqlar sabahımız, gələcəyimizdir. Ulduz.1975,№7, s.52

M.Rzaquluzadənin "Aclar–toxlar, çoxlar–azlar" hekayəsində məkan namə'lumdur. Lakin oxucu üçün bunun fərqi yoxdur. Hələ də istismar və zülm altında inləyən, azadlığa həsrət qalan nə qədər ölkələr var. Bu hekayədə Adil və Amir iki simvolik obrazla müəllif ədalətlə amirlik, qoluzorluluq arasındakı əbədi barışmazlığı aydın və sadə bir dildə verə bilmişdir.

"Babəkin andı" adlı lakonik hekayədə Azərbaycan xalqının igid oğlu Babəkin ərəb işğalçılarına qarşı mübarizəsinin ilk mərhələsi təsvir edilir. Babəkin andı bütöv bir xalqın andı kimi səslənir.

M.Rzaquluzadənin təhlil edilən hekayələrində xeyirlə-şərin, ədalətlə zorakılığın mübarizəsi və bu mübarizələrdə həmişə işıqlı amalların qalib gəlməsi fikri bədii cəhətdən möhkəm surətdə əsaslandırılmışdır. Bu hekayələrdə kolorit güclüdür. Obrazlar və xarakterlər yarımçıq, sxem şəklində deyildir. Bu hekayələrdə belə bir ölməz inam hissi ifadə edilmişdir ki, həyat gözəlliyi duyanların, onu qoruyanların, halal zəhməti ilə yaradanların, xoşbəxtlik və azadlıq uğrunda mübarizə aparanlarındır. Yaşamaq, yaşatmaq eşqini heç bir qara qüvvə əbədi olaraq məhv edə bilməz.

Yazıçının hekayələrinin bir qismi "Dan söküləndə", "Qu gölü" və "Nəsillərdən nəsillərə" kitabında toplanmışdır.

"Dan söküləndə" kitabına "Səhər şəfəqi", "Braziliya ovçusu", "İşıqlar yandı", "Boş qorxular", "Ehtiyat" və "Təzə tüfəngin siftəsi" adlı hekayələr daxil edilmişdir.

Yazıçının "Dan söküləndə"[1] və "Qu gölü"[2] kitablarına toplanmış hekayələr əsasən ovçuluq həyatına həsr edilmişdir. Bu kitablardakı hekayələri sadəcə ov hekayələri kimi də qiymətləndirmək doğru olmazdı. Çünki M.Rzaquluzadə təkcə təbiətin gözəlliyini, ov səhnələrini təsvir etməklə kifayətlənməyib, uşaqlarda təbiətə, heyvanlar aləminə məhəbbət oyadır, hər bir hekayəni ictimai məsləlelərlə bağlamağa çalışır. "Qu gölü" kitabında təsvir olunan adamlar təbiətin passiv seyrçiləri, "təbiət mö'cüzələrinə" valeh olan insanlar deyil, bəlkə təbiətə tə'sir göstərməyə, onu dəyişdirməyə çalışan fəal zəhmət adamlarıdır.

M.Rzaquluzadə bu hekayələrin çoxunda insanın təbiət qüvvələrinə qalib gəlməsini, susuz çöllərə həyat verməsini, bir sözlə, zəhmət adamlarının qüdrətini təsvir etməyə çalışmışdır. "Qu gölü" kitabındakı hekayələr həm mövzu, həm də kompozisiya cəhətdən maraqlıdır. Buradakı hekayələrin mövzusu arasında yaxınlıq vardır. Xüsusilə, "Yaxşı ovçu", "Düşərgədə", "İki güllə" və "Qurdvuran" hekayələrində bu yaxınlıq aydın hiss olunur.

--------------------

1. Rzaquluzadə M. Dan söküləndə.-Bakı. 1952.
2. Qu gölü.-Bakı.1955



"Yaxşı ovçu" hekayəsində yeddi il bir yerdə oxuyan Elçinlə Tofiq adlı iki dost təsvir olunur. Yazıçı ovçuluğa həvəs göstərən, səhər idmanı ilə məşğul olan, şaxtaya, soyuğa baxmayaraq atası ilə ova gedən Elçini sağlam bir uşaq kimi göstərir. Soyuqdan qorxan, çox yatmağı sevən Tofiqə yoldaşları "mimoza" adı vermişlər. Elçinin tə'siri ilə Tofiqin həyatında da dönüş yaranır. Ov həvəsi onu tənbəllikdən uzaqlaşdırır, şaxtaya, soyuğa dözümlü edir. Tofiqin vurduğu ilk ov, onda ovçuluğa həvəs oyadır.

Lakin hekayədə ov səhnələrinin təsviri sxematikdir. Tofiqi ərmənazik böyüdən bir ailənin qışın soyuğunda birdən-birə oğlanı ova buraxmağa razılıq verməsi inandırıcı deyil, bu məsələ hekayədə tez həll olunmuşdur. Hekayədə bir-birinə zidd fikirlər vardır. Məsələn on doqquzuncu səhifədə yol gedən uşaqların istidən qızışmaqları təsvir olunur. Buna baxmayaraq Elçinin atası deyir: "Qoçaqlar, indi yaxalarınızı düyməleyin. Yol gəlib qızışmısınız". Bir az sonra onlara çay verir və "isti çaydan için, qarnınız qızsın", -deyir.

M.Rzaquluzadə hekayələrində düşərgə həyatının məktəblilər üzərindəki tə'sirini, onların dünyagörüşünü genişləndirməkdə mühüm rol oynadığını göstərmişdir.

"Düşərgə"[1] hekayəsində məktəblilərin təbiətə marağından, canlı təbiət guşələri düzəltmələrindən danışılır. Hekayədə müxtəlif quşlar haqqında mə'lumat verilir, xüsusilə, Binəqədi gölünün bir hekayədə hər şeydən həm müxtəlif heyvanlardan, həm də quşlardan, naturalistlər dərnəyindən, gənc aviamodelçilər otağından bəhs etdiyi üçün hadisələrin mahiyyətini açа bilməmiş, canlı hadisələri göstərmək əvəzinə, müəllifin mücərrədliyə meyli və hadisələrin çoxluğu, uşaqların onları qavramağa mane olur, hekayəyə olan marağı azaldır.

M.Rzaquluzadə yeknəsəklik olmaması üçün ov səhnələrini müxtəlif iqlim şəraitində təsvir edilir. O, rus yazıçısı Prişvinin yaradıcılıq ən'ənələrindən bəhrələnir. Bu cəhət özünü "Qurdvuran" və "İki güllə" hekayəsində daha aydın göstərir.

--------------------

1. Rzaquluzadə M. Düşərgə. Qu gölü.-Bakı.1955.s.27c

"İki güllə"[1] hekayəsində iki dostun-Elxanla Oqtayın ov macəraları təsvir edilir. Bu hekayə uşaqları hər bir çətinliyə dözməyə, işdə ardıcıl, iradəli, cəsarətli və ehtiyatlı olmağa çağırır.

Müəllif dəniz sahillərinin buzlaşması və suiti ovu səhnələrini maraqlı təsvir etmişdir. Lakin müəllif xarakter yaratmaq əvəzinə hadisəçiliyə meyl edir, əhvalatları uzadır. Nəticədə oxucu yorulur. Bu cəhət "Hər parıldayan şey qızıl deyil" hissəsində daha aydın hiss olunur. Oqtayın fotoaparat gəzdirməsini bəhanə gətirmək inandırıcı deyildir.

Hekayədə dolaşıqlıq, anlaşılmayan və heç bir konkret təsəvvür verməyən təsvirlər də vardır. Məsələn, "Bu dəfə yeni şiddətlə sarı bir işıq parlayıb yox oldu, daha doğrusu bu parlayan işıqlar yox olmur, sür'ətlə gedən avtomobil fanarı kimi hərlənib dəstədən ensiz olan ancaq getdikcə enlənən nəhəng parlaq bir işıq kimi qaranlığı doğrayırdı".[2]

Elxanın pələng vurması səhnəsi də əsaslandırılmamışdır. Pələngin haradan gəlib dəniz sahilinə çıxması mə'lum olmur. "Qurdvuran" hekayəsində Abşeron ne'mətlərindən, onun torpağının yetirdiyi bol məhsuldan danışılır. Bayram kişinin arzuları, "Qurdvuran" ləqəbi qazanmış Yaşarın ovçuluq məhарəti, uzağı görmək bacarığı, iti gözlüyü təbii və inandırıcı göstərilmişdir. Məharətli ovçu Yaşar dənizin vəziyyətindən havanın əlamətlərini, sabahkı günün necə olacağını, üfüqdə nöqtələr kimi görünən quşların cinsini tə'yin edə bilir. Lakin qurdvuran kimi Yaşarın tez ona tərəf yürüməsi və yaralı qurdla vuruşması az inandırıcıdır. Çünki nə qədər qoçaq olursa-olsun on iki yaşlı uşaq belə şeyə cəsarət etməz. Çox uzun və ağır "tüfəngi Yaşarın yüngül hərəkətlə qaldırıb qurdun başında sındırması" onun qüvvəsi xaricindədir. Müəllif Yaşarın qurdla vuruşması epizodunu əlavə etməklə hekayənin tə'sir qüvvəsini azaltmışdır."Qurdvuran" hekayəsində təbiət təsvirlərinin bə'ziləri qarışıq və dumanlı verilmişdir. Yazıçı səhərin açılmasını, üfüqün dəyişilməsini təsvir edərkən o qədər müxtəlif rənglər (sarımtıl, yaşıl, ağımtıl qırmızı, göyümtül, bozumtul, çəhrayı, gümüşü, şəffaf, qırmızı qarpız içi) işlədir ki, bunlar oxucunun təsəvvüründə bir-birinə

---

1. Rzaquluzadə M. Qu gölü.-Bakı,1955.
2. Rzaquluzadə M.Qu gölü, s.42.



qarışır, nəzərdə tutulan mənzərənin konkret təsəvvürünü vermir. Bir sıra təbiət təsvirlərində canlı lövhə görünmür.

Yazıçı "Yaralı göyərçin"[1] hekəyəsindəki hadisələrin sərhəd rayonlarının birində cərəyan etdiyini göstərir. Bu hekayədə təsvir edilən təbiət, ov hekayələrindəki mənzərələrdən fərqlənir. Təsvir edilən hadisələr maraqlı olsa da, bədii cəhətdən əsaslandırılmamışdır. Sərhədçi Kolyanın düşmənə rast gəlməsi, Qoçağın düşmənin birini tutub, sonra Kolyaya köməyə gəlməsi səhnəsi inandırıcı deyildir. Çünki Qoçaq, Kolyaya köməyə gəldiyi zaman o birisi qaça bilərdi. Daha sonra hər iki düşmən heç bir müqavimət göstərmədən təslim olurlar. Məktəblilərin sərhədçilər üçün xüsusilə it bəsləyib böyütməsi məsələsi çox əhəmiyyətlidir. Təəssüf ki, müəllif bu məsələyə az yer vermişdir. "Yaralı göyərçin" hekayəsində yeni kəndin adamlarından miçurinçi Daşdəmirin təcrübələrindən danışılır. Ancaq "Yeni kəndin adamları" hissəsi hekayənin ümumi süjet xətti ilə zəif bağlanmışdır. Bu hissə tamamilə çıxarılsa belə hekayənin bütövlüyünə xələl gəlməz.

"Yaralı göyərçin"dəki təsvirlərdə müəllifin sözə qənaət etmədiyi hiss olunur. Hekayənin əvvəlindəki təsvirlər oxucunu yorur, təsəvvürünü dumanlandırır. "Yaralı göyərçin" hekayəsində belə bir cümlə vardır: "Hələ əynində olan və onun mütənasib bədəninə, dik baxışlı qumral gözlərinə, çatma qara qaşlarına, narın qıvırcıq bığlarına, enli açıq alnından geri daranıb qulaqlarının üstünə tökülən saçlarına qarabuğdayı çöhrəsinə çox yaraşan bir kitel vardı".[2]

Müəllif kənd müəlliminin tam zahiri portretini yaratmaq istəmişdir.

Hekayədə sülh rəmzi, simvolu Göyərçinə göstərilən qayğı diqqəti xüsusilə cəlb edir. Belə ki, ovçunun gətirdiyi Göyərçinin Eldar müəllim mühafizə edir, onun yaralarını təmizləyir və Göyərçinin başqa həmcinsləri ilə pərvazlanmasına qayğı göstərir.

Yazıçı "Qu gölü"1 hekayəsində təbiəti dəyişən, susuz çölləri məhsuldar düzlərə çevirən zəhmət adamlarından gənc mütəxəssislərin yaradıcı əməyindən danışır.

---

1. Rzaquluzadə M. Nəsillərdən-nəsillərə.-Bakı. Azərnəşr.1965, s.360
2. Yenə orada,s.362

Bu hekayədə Aslan adlı bir gənc təsvir olunur. O, orta mə
təbi qurtarandan sonra müəllimləri ali təhsil almaq haqqında
məsləhətindən boyun qaçırıb, kənddə işləməyə getdiyindən
öz böyük arzularını həyata keçirməyə çalışdığından bə
olunur. Aslan "Qu gölü"nün suyunu kolxozun istifadəsinə ver
Kolxoz üçün elektrik stansiyası qurur. Lakin bununla kifayə
lənmir. Stansiyanın gücünü artırmaq üçün bir-iki il də əlavə ol
raq kənddə işləmək fikrinə düşür. Hekayədə Aslanın inadka
lığı, onun ürəyinin xalq üçün, doğma kəndi üçün qurub yara
maq eşqi ilə çırpınması və onun təbiətlə gərgin mübarizəsi m
raqlı və cazibədar verilir.

Hekayədəki canlı təbiət təsvirləri və yığcamlıq da göstərir ki,
Rzaquluzadə sənətkarlıq məsələlərinə çox məs'uliyyətlə yanaşır

Yazıçı hekayənin bir yerində öz qəhrəmanını bizə be
təqdim edir:"Professor söhbəti Aslanın təhsilinə gətirdi, çün
professor bu aramsız, diribaş, coşqun gəncdən çox şey gözl
yirdi, onun əsl yaradıcı bir alim olmaq üçün hər bir imkanı
idi".[1] Aslan bədii bir surət olaraq, işdə, mübarizədə açılmır. B
onun xəyal və arzularını bəyənirik. Amma bu arzulara necə ç
dığını görə bilmirik. Mə'lum olur ki, Aslan "Qu gölü" sahilin
xırdaca elektrik stansiyasının rəisi vəzifəsində çalışırdı. Kə
məktəbinin son sinfində oxuyan iki-üç kolxozçunu da burada
tə'yin etmişdilər. Aslan onlara ixtisas üzrə bilik verir, müstə
işləməyə öyrədirdi. Müəllif bizə sadə, sıravi bir gənc göstərir
belə bir ştrix də verir. Mə'lum olur ki, Aslan ürəkdən vuruldu
"Qu gölü" sahillərində mahir bir ovçu kimi tanınmışdır.

Bu hekayə əməyə, zəhmətə olan marağı artırır, onları Asl
kimi təşəbbüskar, yaradıcı olmağa sövq edir. öz kəndləri
ürəkdən sevməyə çağırır.

Aslanı həmişə düşündürən arzular onu politexnik texnik
muna gətirib çıxarır. O, inşaatçı olmaq arzusu ilə elmlərin əsa
larına yiyələnir. Aslanın xahişi ilə "İlanlı" kəndinə qonaq gəl
mütəxəssislər "Qu gölü"ndə, doğrudan da elektrik stansiya
yaratmağın mümkün olduğunu elmi surətdə əsaslandırırlar.

Diplom işini öz kəndlərinin yenidən qurulmasına həsr ed
Aslanın yaratdığı maket "ə'la" qiymətə layiq görülür. Komis

---

1. Yenə orada. səh. 317.



ya hey'əti Aslanı bu iste'dadına görə birbaş instituta göndərməyi qərara alır. Lakin Aslanı gözəl arzular, böyük işlər gözləyirdi. Aslan doğma kəndini yaratdığı maket əsasında yenidən qurmaq işində çalışmaq istəyirdi. Öz kəndlərinin abadlaşdırılması uğrunda çalışmağı mə'nəvi borc bilən Aslan istehsalata gəlir.

"Qu gölü" hekayəsi həm mövzu aktuallığı, həm də tərbiyəvi tə'sir gücü baxımından əhəmiyyət kəsb edir. Doğma kəndində gedən quruculuq işlərində yaxından iştirak etmək üçün istehsalata can atan Aslanın timsalında müəllif öz arzu və məramını yığcam süjet daxilində ifadə edir; təşəbbüskar gəncləri öz ixtisaslarını, ustalıqlarını daim artırmağa, əməksevərliyə, təşəbbüskarlığa səsləyir.

Unudulmaz ədibimiz Mehdi Hüseyn uşaq ədəbiyyatına həsr olunmuş müşavirələrin birində çıxış edərkən ədibin "Qu gölü" hekayəsi haqqında demişdir:

"Hekayədəki canlı təbiət təsvirləri, yığcamlıq da göstərir ki, Rzaquluzadə sənətkarlıq məsələlərinə çox mə'suliyyətlə yanaşır".[1]

Bu sözləri yazıçının bir sıra digər hekayəsi haqqında da demək olar.

M.Rzaquluzadə "Dəniz nağılı" hekayəsini orta yaşlı uşaqlar üçün yazmışdır. Hekayənin qayəsi uşaqları təbiətlə tanış etmək, dəniz və okeanların təbii sərvət mənbəyi, əsl gözəllik məskəni olduğunu onlara öyrətmək, beləliklə də, oxucuda dəniz gözəlliyinə məftunluq hissi yaratmaqdan ibarətdir. Təbiəti qorumaq, qoçaqlıq, mərdlik, çeviklik, xeyirxahlıq, idmanla məşğul olmaq məsələlərinin təbliği əsərdə mühüm bir yer tutur.

Əsərin qəhrəmanı Qoçaq adlı bir uşaqdır. Quşları, balıqları və s. heyvanları qoruyarkən göstərdiyi igidliyinə, yaşıdları arasında çevikliyi ilə fərqləndiyinə görə ona Qoçaq adı verilmişdir. Qoçağa xas olan gözəl keyfiyyətlər: mərdlik, qoçaqlıq, çeviklik, təbiətə məftunluq, dəniz heyvanlarına məhəbbət müasir uşaqlarımız üçün səciyyəvi xüsusiyyətlərdəndir. Qoçaq dağ keçisinin balasını qaraquşun caynağından xilas etmiş, dəniz əjdahasına qalib gəlmiş, qızıl balığı ölümdən qurtarmışdır.

Uşağa bu keyfiyyətlərinə görə "Qoçaq" adı verilmişdir.

---

1. Bu barədə bax: Tofiq Mahmud. Həvəs məhəbbət sönməyəndə. Ədəbiyyat və incəsənət.1975, 12 aprel

Qızıl balıq Qoçağı dəniz aləmi ilə tanış edir. Dənizin dibi Qoçağın gözü qarşısında yeni bir aləm kimi canlanır. M.Rzaquluzadənin "Dan söküləndə"[1] adlı kitabında idman növlərindən biri olan ovçuluq haqqında oxucularda müəyyən təsəvvür oyatmağa çalışmışdır. Uşaqlar üçün yazılmış bu kitabda Vətənimizin böyük qoruqları, orada yaşayan müxtəlif cinsli heyvanların həyatı, nadir quşların cinsini artırmaq, onları qorumaq, habelə bu sahədə yeniyetmələrin üzərinə düşən vəzifələr haqqında danışılır. Ədib ovçuluğun əhəmiyyətini göstərməklə bərabər gənclərdə vətənimizin təbiətinə, təbii ne'mət və sərvətlərinə məhəbbət hissi oyatmaq istəmiş və buna nail olmuşdur.

Kitablardakı hekayələrdə həvəskar ovçular özlərinin gördükləri yeniliklərdən və başlarına gələn hadisələrdən danışırlar.

M.Rzaquluzadə Azərbaycan kəndinin sür'ətlə abadlaşdırılmasını, kənd təsərrüfatını idarə edən yeni kadrların yetişməsinin "Ehtiyat"[1] hekayəsində canlı boyalarla təsvir etmişdir. Yazıçı Süleyman və onun ailəsi timsalında çiçəklənən kənd həyatı haqqında oxucuda təsəvvür yaradır. Üç-dörd il müddətində on beş kilometrlik məsafədə bataqlıq qurudulmuş, yerində şəhər biçimli gözəl yaşayış məntəqəsi salınmış, ətrafı başdan-başa məhsuldar tarlaya çevrilmişdir. Quraqlıqda suyu quruyan kiçik göllər birləşdirilmiş və onun gücü ilə yeni elektrik stansiyası qurulmuşdur.

Bir neçə il bundaq qabaq burada olan şəxs indi kəndin yolunu tanımır. Bu yerlərin indiki görkəmi onu valeh edir. Ovçular ittifaqının üzvü olan bu adamlar xalqımıza bütün sahələrdə xeyir vermək istəyirlər. Belə ki, ovladıqları heyvanların dərilərini ovçular ittifaqına təhvil verirlər. Lakin ailənin üzvü "maşanı" ovlamaqla böyük bir cinayət etdiklərinə görə xəcalət çəkirlər. Onlar buna görə belə təsəlli tapırlar ki, bu maşanın öz cəzasıdır. "Özgəyə quyu qazan özü düşər".

"İşıqlar yandı"[2] hekayəsi də neft fəhlələrinin həyatından bəhs edir. burada müəllif bizi bir tərəfdən Abşeronun qurtaracağında yerləşmiş Artyom (Pirallahı) adasındakı ovlaq və bunun xüsusiyyətləri ilə tanış edir, o biri tərəfdən isə dəniz neft buruqlarında çalışan Rəşid və Aleksey kimi qabaqcıl fəhlələrin, sadə peşə adamlarının obrazını canlandırır.

---------------------

1. Rzaquluzadə M. Dan söküləndə.-Bakı. Uşaqgəncnəşr.1952.



Rəşid qabaqcıl neft mə'dəninin işçisidir, eyni zamanda, yaxşı ovçu və kamança çalandır. Müəllif yazır ki, ovçuluq əyləncəli bir istirahətdən başqa, xüsusi idman növü olduğundan Rəşidi möhkəmləndirmiş, onu şiddətli istilərə, bərk soyuqlara davamlı etmişdi. Odur ki, Rəşid qışın şaxtasında quş dalınca bu kimi souq suya girir. Bu hekayədə adanın yaxın və uzaq keçmişindən, əvvəlki adından, həmin adın (Pirallahı) xalq arasında hörmətlə yad edilməsindən və xatirələrdə yaşadılmasından, beləliklə keçmişi haqqında uşaqlara maraqlı mə'lumat vermək və s. imkanından imtina etmişdir. Səbəbi isə aydındır - imperiya dövrünün qadağaları, yasaqları buna yol vermirdi.

"Təzə tüfəngin siftəsi"1 hekayəsini M.Rzaquluzadə ovçuluq həyatına həsr etmişdir. Burada yazıçı həm də uşaqlarda təbiət və heyvanlar aləminə məhəbbət oyadır. Müəllif dövlətin qanun-qaydasını pozaraq qadağan olunmuş qoruqlarda qızıl qazları vurmaq istəyən naşı ovçuları gülünc vəziyyətdə təsvir edir. maraqlıdır ki, vaxtilə tənqidçi O.Həsənov bunları: "Don Kixota və Sançoya bənzədirdi".[2]

## XATİRƏLƏRİ

Xatirələr keçmişin bu günə ibrət dərsi, böyük sınaqlardan çıxmış illərin, qərinələrin bu günkü nəsillərə ünvanlanmış xitabdır. Hər günün xatirələri şirin və ibrətli ola bilməz. Xatirə müəllifin keçmişlə bu günü müqayisə üçün aydın zəkası, analitik təfəkkürü, yığın-yığın hadisələr içərisindən tipik olanlarını seçmək bacarığı, keçmişi bu günün prizmasından görə bilən gözləri olmalıdır. Xatirə yazmaq böyük iste'dad tələb edir.

Xatirə-memuar ədəbiyyatının ədəbi söz sənəti tarixində əhəmiyyəti əvəzsizdir. Müəyyən mə'nada xatirə ədəbiyyatı elmi təfəkkürlə bədii sözü birləşdirir, bə'zi qiymətli faktları üzə çıxarır. Xatirələr bə'zən müəyyən bir şəxsiyyətin həyatındakı qaranlıq nöqtələri işıqlandırır, dolaşıq mübahisələrə son qoyur və ortaya çıxan problemlərin həllinə kömək edir.

M.Rzaquluzadə xatirələr məfhumunu "Yaz günəşi" kitabın-

--------------------

1. Rzaquluzadə M. Dan söküləndə
2. M.Rzaquluzadənin hekayələri haqqında. Ədəbiyyat və incəsənət. 1955, 10 aprel.

da belə səciyyələndirir: "Xatirələr insan ömrünün uzun-uzun illərin süzgəcindən keçmiş həyat cövhəri, dirilik cövhəridir, xıltları ələnib qalmış, unudulmuş, məğzi durulub büllurlaşdırılmışdır, bu büllurlarda yaşamış həyati hadisələrin ən bariz əlamətləri, tanınmış şəxsiyyətlərin ən canlı xüsusiyyətləri, ən məhrəm düşüncələri, ən səmimi duyğuları, arzu və əməlləri əks olunmuşdur. Buna görədir ki, xatirələr yalnız onları xatırlayan və xatırladan adamın şəxsi üçün deyil başqaları üçün də eyni dərəcədə qiymətlidir, hətta faydalıdır da".[1]

Azərbaycan ədəbiyyatında C.Məmmədquluzadənin, A.Şaiqin, M.S.Ordubadinin, Y.V.Çəmənzəminlinin, S.S.Axundovun, M.M.Seyidzadənin həyatlarına və yaşadıqları mühitə dair maraqlı xatirələr vardır. M.Rzaquluzadənin xatirələri isə öz qələm dostları ilə bağlı görüşlərindən bəhs edir.

Yazıçı xatirə yazmağı vətəndaşlıq borcu hesab edir. Bu, doğrudan da belədir. Şöhrət tapmış bir sənətkar və yaxud alimin bütünlüklə həyatı və fəaliyyəti onun kitablarında, arxivində deyil. Bu ömrün bir payı yollarda, zəhmət meydanlarında, ayrı-ayrı adamların, dostların, qohumların qəlbində gizlənir. Şəxsiyyətin ömrünün bir hissəsi də elə bil ki, haradasa qiymətli incilər kimi düşüb qalmışdır. Bunların hamısını toplamaq, şəxsiyyətin haqqındakı təsəvvürü bütövləşdirir. Bəlkə də təsadüfən elə bir qohum-dost evində bir sənətkar, alim elə bir vacib söhbət eləmişdir ki, bu bir çox qaranlıq nöqtələri işıqlandıra bilər. Bu zaman söhbəti eşidən adamın vətəndaşlıq borcu odur ki, deyilən fikirləri mübaliğəsiz, olduğu kimi oxuculara çatdırsın. Faktları və sənətkar tərəfindən deyilənləri təhrif etməsin. Bu xatirələrdə özünü yox, haqqında bəhs açdığı şəxsiyyəti tanıtmağa çalışsın. Xatirələri eşidənlər və oxuyanlar üçün ibrətli bir söz tapılsın. Bu mə'nada M.Rzaquluzadənin "Yadda qalanlar dəftəri" adı ilə yazdığı silsilə xatirələr əsl vətəndaşlıq borcu hesab edilə bilər. Bu xatirələrdən biri - ölməz xalq şairimiz S.Vurğun haqqındadır. M.Rzaquluzadənin S.Vurğundan bəhs edən xatirələri faktların bolluğu və dəqiqliyi, mə'nalı və ibrətli olması ilə seçilir. Həmin xatirələr silsiləsi "Görüşlər" adlanır.

"Xalqımızın sevimli oğlu Səməd Vurğunun həyat və yaradıcılığı haqqında çox-çox əsərlər; elmi dissertasiyalar, məqalə və monoqrafiyalar yazılmış və hələ də yazılacaqdır. Bunların hamısı, əlbəttə çox qiymətlidir.

Amma hər bir böyük əsər sənətkarın tam surətini, onun bütün varlığını, rəsmən hər yerdə çap edilməmiş duyğu və düşüncələrini aydın təsəvvür etmək üçün onu ən yaxından tanımış qohum-əqrəba və xüsusən yoldaşlarının, ürək dostlarının mülahizələri olduqca əhəmiyyətlidir".[1]

M.Rzaquluzadə "Görüşlər" adlı xatirələrini xronoloji qaydada yazmışdır. Bu da onların sistemliliyini və ardıcıllığını tə'min edir, onu pərakəndəlikdən, fraqmentallıqdan xilas edir. birinci bölmə belə adlandırılmışdır: "1927-28".

Bu dövr proletar ədəbiyyatının inkişafı və formalaşmağa başladığı dövr idi. Daha doğrusu, proletar ədəbiyyatının yollarında bu zaman bir çox çətinliklər dururdu.

Bu illərdə bir tərəfdən proletar ədəbiyyatı ilə burjua ədəbiyyatı konsepsiyaları arasında kəskin toqquşmalar olurdu. Ədəbi qüvvələr proletar, kəndli, sağ-sol çığırdaş adlı qruplara bölünmüşdü və qruplar arasında çarpışma gedirdi. Bu gün təqdir edilən əsər, sabah kəskin sürətdə tənqid edilirdi. C.Cabbarlı kimi bir sənətkar o zaman çığırdaş, Əhməd Cavad və Hüseyn Cavid xırda burjua yazıçısı, Sanılı isə qolçomaq yazıçısı adlandırılırdı.

Bu dövr ədəbiyyat üçün başqa bir cəhətdən də sınaq illəri idi. Qərbdəki ifrat solçular tə'sirinə qapılmış bəzi şairlər proletar yazıçısı anlayışını səhv və dumanlı şəkildə başa düşürdülər. Məsələn, onlar elə başa düşürdülər ki, proletar şe'ri vəznsiz, qafiyəsiz, hətta imzasız olmalıdır. Guya sosializm, proletar mübarizəsi fərdiyyətçiliyi rədd etdiyi, kollektivçiliyi təbliğ etdiyi üçün şe'rin müəllifi kollektiv olmalıdır. Yazıçıların bə'ziləri isə Mayakovski və Nazim Hikmət poeziyasından misallar gətirərək proletar ədəbiyyatının gələcəyinə nikbin gözlə baxırdı.[2]

M.Rzaquluzadə xatirələrinin əvvəlində Gəncədə bir ədəbi yığıncağı təsvir edir. Orada deyilir ki, Mehdi Hüseyn proletar ədəbiyyatında ideya-məzmun, şəkil, üslub problemləri haqqında söhbət edirmiş.

------------------
1. Rzaquluzadə M. Yaz günəşi.-Bakı. Gənclik, 1977.s.328



------------------
1. Rzaquluzadə M. Yaz günəşi. s.330.
2. Rzaquluzadə M. Yaz günəşi,s.330.

Şair Əbdülbaqi Fövzi də bu məclisdə imiş. O, proletar şe'r nümunəsi nümayiş etdirmək çün bu məclisdə iştirak edir. "Açıq məktub" adlı şe'rini oxuyur. Gənc S.Vurğun bu şe'ri kəskin su-rətdə tənqid edərək, proletar şe'ri haqqında yanlış təsəvvürləri təkzib edir və yaxşı bir nümunə kimi özünün şe'rini oxuyur.

M.Rzaquluzadə 1927-28-ci illərdə proletar ədəbiyyatının formalaşma mərhələsindəki çətinlikləri tipik cizgilərlə göstərə bilir. Biz onun xatirələrindən S.Vurğunun yaradıcılıq aləminə gəldiyi ilk illər haqqında, şairin poetik manifesti haqqında aydın təsəvvür ala bilirik.

Xatirədə ikinci bölmə belə adlanır: "Moskva, 1931-32".

Bu illər S.Vurğunun şəxsi həyatında, əhvalında və yaradıcılığında kəskin dönüş dövrüdür. S.Vurğun o dövrün hakim ideoloji-siyasi fikrinə xidmət edən tənqidə görə guya yeni həyatla səsləşməyən şe'rlərini "ölən şe'rlərim" adlandırmağa məcbur olurdu. Şair yeni yollar və bədii üsullar axtarır, özünün poetik məramnaməsini belə bildirirdi:

**Nə gülləri-çiçəkləri sayrışan**
**tər cunalı yazların,**
**Nə sarı simləri sarılıq gətirən**
**ağ sədəfli sazların...**
**Nə də ki,**
**Zurnalı düyünlər şairiyəm.**
**Mən günəşi yarışa çağıran**
**Böyük günlər şairiyəm!**[1]

M.Rzaquluzadə yazır: "Böyük günlər şairi olmaq üçün xalq şe'rinin rəmzi olan saza sadiq qalmaq, eləcə də, həm təbiəti həm də insan ruhunun gözəlliyini tərənnüm etmək lazım idi".

Bununla belə xatirə müəllifi sübuta çalışır ki, S.Vurğunun "Ölən şe'rlərim" silsiləsi heç də bayağı və məzmunsuz şe'rlə deyildi. Bu şe'rlər həqiqi, səmimi, odlu duyğulardan yaranmış dır. S,Vurğun ilk şe'rlərindən öz ürək çırpıntılarının səsini eşit miş, könülsüz şe'r yazmamışdır. M.Rzaquluzadənin xatirələrin də bu dövrün səciyyəsini biz çox tipik cizgilərdən aydınca gör bilirik. Yazıçı böyük hadisələr axınından hər şeyi yazmır, lazım olanları seçib göstərir.

--------------------

1. Rzaquluzadə M. Yaz günəşi.-Bakı, Gənclik, 1977, s.335



Xatirələrdən mə'lum olur ki, S.Vurğun yalnız öz iş otağında deyil, yolda, səyahətdə, ovda, adi söhbətlərdə belə poeziyadan ayrılmamışdır. Xatirələrin bir yerində M.Rzaquluzadə S.Vurğunla aralarında bir söhbəti xatırlatmaqla xalq şairinin şe'r üçün həmişə yandığını, alovlandığını bildirir.

S.Vurğun ova gedərkən sazını da özü ilə götürər və yol boyu çalıb oxuyarmış. Arada S.Vurğun bir şe'r oxuyur. M.Rzaquluzadə S.Vurğundan soruşur ki, oxuduğun bu şe'r "Ölən şe'rlərim" silsiləsindəndirmi? S.Vurğun cavab verir ki, "Əyə, şe'r də ölərmi?"

Bu fakt onu göstərir ki, S.Vurğun ölü şe'rlər yazmamışdır və onun üçün şe'r, poeziya əbədi və ölməz bir həyat, bir ömür deməkdir.

"Bəli kağızda çoxdan "ölmüş" şe'rlər şairin ürəyində dipdiri yaşayırdı və hamı üçün də həmişə yaşayacaqdı".[1]

Bu fikirlər əsl şe'r haqqında müəllifin həqiqi iddialarıdır ki, ciddi ədəbi-tənqidi mə'na silqətinə malikdir.

Xatirələrin üçüncü bölməsi isə 1933-56-cı illəri əhatə edir. bu dövr S.Vurğun poeziyasının inkişaf və yetkinlik, şöhrət dövrüdür. Lakin M.Rzaquluzadə bu bölmədə S.Vurğunla bağlı olan ov xatirələrindən daha çox danışır. Bununla da xatirə müəllifi S.Vurğunun təbiətə vurğunluğunu, təbiəti öyrəndiyini və bunların onun poeziyasındakı güclü tə'sirini göstərmək istəmişdir.

Lakin müəllifin e'tiraf etdiyi kimi, S.Vurğun ova heç də yalnız şe'r yazmaq üçün, şe'r üçün material toplamağa getmirdi. Xalq şairi bir insan kimi təbiətdən zövq almağa, dincəlmək, əsəblərini sakitləşdirmək üçün ovçuluğu sevimli peşə hesab etmişdir. Bə'-zən məşhur şəxsiyyəti adilikdən çıxarır, xarakter olmayan cizgiləri onun təbiətinə yamaq vururlar. Guya böyük sənətkar, böyük şəxsiyyət fərdi-estetik duyğudan məhrumdur, onun öz intim duyğuları yoxdur, ağlaya, sarsıla bilməz. Bütün bunlar şəxsiyyəti böyütmək əvəzinə, kiçildir. Böyük şəxsiyyətlər hər şeydən qabaq insandırlar və bütün insanlar üçün təbii olan duyğular onlarda da vardır, həm də daha çox inkişaf etmiş şəkildədir.

M.Rzaquluzadənin aşağıda sitat gətirdiyimiz fikirləri bu mə'nado təbii və ibrətlidir:

"Bə'zi hekayə və poemalarda Səmədi onda yalnız bir şair-

-----------------------

1. Rzaquluzadə M. Yaz günəşi, s.335

filosof kimi seyrçi təsvir edənlər çox-çox yanılırlar. Onlara görə Səməd guya ovda tüfəngi bir yana atıb, təbiəti seyrə dalır, ilham alır, həyat-ölüm haqqında dərin düşücələr aləminə qərq olur. Hətta ovçu yoldaşlarını da turaca, qırqovula, ceyrana tüfəng atmağa qoymurmuş.

Səməd haqqında belə təsəvvür yaratmaq, nəinki kökündən yanlışdır, hətta coşqun, ehtiraslı, əsl həyat adamı olan Səmədi ruhaniləşdirmək deməkdir ki, bu da onun canlı bir insan olaraq əsl simasını tamamilə təhrif edir".[1] Bu fikirlərdə belə bir həqiqət vardır ki, görkəmli adamların həyatından xatirə yazarkən həqiqi simanı təhrif etmək olmaz. Bu mə'nada M.Rzaquluzadə görkəmli nasir İ.Əfəndiyevin "Şəhərdən gələn ovçu" hekayəsinin mə'ziyyətlərini göstərməklə bərabər, faktların təhrif olunmasına görə bu əsəri həm də tənqid edir. Xatirə müəllifinin fikrinə görə bu əsərdə həyat həqiqətləri əvəzinə, yazıçının fərdi rəğbət və məhəbbətindən doğan fikirlər əsas yer tutur. M.Rzaquluzadə "Ceyran" şe'rinin yaranması haqqında yanlış təsəvvürləri təkzib edərək canlı bir fakt gətirir. S.Vurğunun ovçuluq dostu Allahyar Cavanşirin sözlərinə istinad edərək əsil həqiqəti açır.

Allahyarın xatirəsindən mə'lum olur ki, "Ceyran" şe'ri heç də ovçunun ceyrana güllə atması ilə əlaqədar deyil. Əksinə, maşının iki bala ceyranı basıb öldürməsilə bağlı bir hadisə olmuş, S.Vurğun bu hadisədən sarsılaraq məşhur "Ceyran" şe'rini yazmışdır. Biz M.Rzaquluzadənin fikirlərilə başqa mə'nada da şərik oluruq.

S.Vurğunun "Ceyran" şe'rində ovçunu məzəmmət etməsi faktına istinad edib, guya xalq şairinin güllə ilə vurulmuş yaralı ceyranı görməsini və bundan sonra həmin şe'ri yazması fikrini müdafie etmək, yaradıcılığı təhrif etmək, bədii təxəyyülün gücünü görə bilməmək deməkdir. Guya Vurğunun yazdığı bütün şe'rlər naturadan götürülmüş həyat materialıdır. Halbuki S.Vurğun, yaxud Aşıq Ələsgər yaralı ceyran görmədiyi halda da belə yanıqlı şe'r yaza bilərdilər. Axı, həqiqi şair instinkti bütün həyatın əks-sədasıdır.

Bir həqiqət də vardır ki, təbiətin qoynunda teztez olmaq Səməd Vurğuna xalqı daha yaxşı öyrənməyə kömək etmişdir.

M.Rzaquluzadə xatirələrdə ölməz xalq şairmizin həyat eşqini, coşğun enerjisini, zarafatlarını, səmimi söhbətlərini xatırlayanda sevinir, onun sətirləri arxasında müəllifin nikbin duyğularını hiss edirik, lakin bir payız günündə S.Vurğunun yorğunluğu, ilk dəfə olaraq ovdan imtina etməsini, daha doğrusu, şairi vaxtsız aparan namərd xəstəliyin ilk əlamətlərinin onu gizli-gizli əritməsini təsvir etdikdə biz təəssüflənir, kədərlənirik. Bu kədər, bu təəssüf, şübhəsiz, təbiidir.

-----------------

1. Rzaquluzadə M. Yaz günəşi.-Bakı, Gənclik, 1977, s.348.



Xatirələrin "El sevgisi"[1] başlığı ilə verilmiş hissəsində müəllif S.Vurğunun 50 illik yubileyi ilə əlaqədar ürək sözlərini vermişdir.

Xatirənin əvvəlində S.Vurğun şe'rinin səmimiliyini, təbiiliyini göstərmək üçün müəllif maraqlı təşbeh və lövhələrdən istifadə edir, müqayisələr verir.

S.Vurğun gözlərində həyat eşqi sönməyən sağlam bir qoca ilə görüşür. Onun gözlərindən qığılcımlar tökülür. bu həyat eşqindən doğan qığılcımları S.Vurğunun şe'rində də görmək olar.

M.Rzaquluzadə bir uşağın dilindən xalq şe'rini verir. Xalq şe'rindəki şuxluğu, uşağın mə'sum təbiətindəki saflığı biz S.Vurğunun şe'rlərində görürük. Sonra xatirə müəllifi zurnalı-qavallı bir kənd toyu təsvir edir. Hamı gərgin intizar içindədir. Səməd şe'r oxuyur:

**Vurğunun xəyalı gəzdi aranı,**
**Gözündə oynadı dağın boranı,**
**Qışın buz qatığı, yayın ayranı,**
**Payızın qaymağı yadıma düşdü.**

"Şe'rin son misraları sıldırımdan qranit qayalar üzərinə aşan şəlalə dalğalarının içinə inci dənələri kimi alqış gurultuları içində itib-batır. Bu gurultular get-gedə coşqun dəniz dalğaları kimi ahəngdarlaşır, sonra "cəngi"yə bənzər gərdanə ritmə, rəqs havasına çevrilir".[2]

Xatirələr boyu bir həqiqəti də aydınca başa düşürük. bu həqiqət böyük xalq şairinə olan əbədi el məhəbbətidir. M.Rzaquluzadə "Son görüş" bölməsində S.Vurğunun son günlərini, vaxtsız vəfatını xatırlayır.

O, Bakının baş küçəsindəki insan dənizini təsvir edərkən şai-

----------------------

1. Rzaquluzadə M. El Sevgisi. Ədəbiyyat və incəsənət, 1956,12 may.
2. Rzaquluzadə M.Yaz günəşi, s.60

rə olan sonsuz el məhəbbəti sanki gözlərimiz qarşısında əyaniləşir. Bu izdiham öz sevimli oğlunu son mənzilə aparmaq üçün kədərlənən bir xalq deməkdir. Xalq S.Vurğunun namərd ölümün əlində hərəkətsiz qalmış bədənini Fəxri xiyabana aparırsa, öz qəlbində böyük şairin xatirəsi üçün də fəxri bir yer saxlayır.

M.Rzaquluzadə S,Vurğun ölməzliyini təbii, həyəcanlı bir dillə belə təsvir edir:

"El onu görəcək, hər gün, hər saat, hər an görəcək!

Yurdumuzun saf üfüqlərində hər səhər dan söküləndə, analar öz körpələrindən ilk dəfə "ana" sözünü eşidib güləndə, onu görəcəklər...

Vətən səmalarında ucalan torağayın nəğməsində də, dağları, yerindən qoparan nəhəng ekskavatorların nə'rəsində də biz onu görəcək, onun səsini eşidəcəyik!"[1]

Bu həyəcanlı sözlərdəki həqiqət bütün xalqın ürək sözlərinin ifadəsidir.

Haqqında danışdığımız xatirələr M.Rzaquluzadənin mahir bir xatirə ustası olduğunu sübut edir. Bu ustalıq yazıçının özünün də dediyi kimi "vətəndaşlıq borcunun" ifadəsidir və bizdə belə bir arzu oyadır ki, unudulmaz yazıçımız zəngin xatirələrlə dolu könül dəftərinin o biri səhifələrini də oxucular üçün vərəqləyə bilərdi.

"Ədəbiyyat və incəsənət" arxivində ədibin əlyazmaları arasında başqa xatirələr də vardır.[2]

Bu xatirələrin biri ("Şərəfli yaradıcılıq yolu") A.Şaiqə həsr olunmuşdur. M.Rzaquluzadənin bu əsəri xatirədən daha çox Şaiqin ədəbi fəaliyyətinin əsas məqamlarını oxucuların nəzərinə çatdardığına görə elmi işimizin "Ədəbi-tənqidi məqalələri" bölməsində ona münasibətimizi bildirmişik.

Digər xatirələr görkəmli elm və sənət adamlarından C.Cabbbarlıya, Y.Məmmədəliyeva, R.Rzaya, N.Rəfibəyli, M.Dilbaziyə və b. həsr olunmuşdur. Bu xatirələrin bə'ziləri də eyni zamanda elmi-nəzəri mülahizələrdən ibarətdir.

Məhz buna görə də həmin yazılardan da "Ədəbi-tənqidi məqalələri" bölməsində bəhs etməyi lazım bildik. Akademik Y.Məmmədəliyev haqqında yazılmış "Böyük iste'dad" məqaləsi isə xatirə səciyyəli yazıdır.

---------------------

1. Rzaquluzadə M.Yaz günəşi.-Bakı, Gənclik, 1977, s.362.
2. DƏİA, fond.№621, siyahı, №1.



M.Rzaquluzadə Moskvada aspiranturada təhsil alarkən akademik Y.Məmmədəliyevlə çox yaxın olmuşdur. Onların Moskvada təhsil illəri eyni dövrə düşübmüş. Dərslərdən imkan tapan kimi görüşüb, vaxtlarını birlikdə keçirmiş, ədəbiyyat haqqında söhbətlər etmişlər. Xatirələrdən bəlli olur ki, Y.Məmmədəliyev nəinki ədəbiyyatı, şe'ri, sənəti sevmiş, o, hətta şe'r də yazmış, bir-iki şe'ri çap olunmuşdur. Sənədlərini də ədəbiyyat fakültəsinə veribmiş. Sonralar nədənsə təbiət fakültəsinə keçmişdir.

Xatirə böyük elm xadimi Y.Məmmədəliyevin anadan olmasının 5 illiyinə həsr olunmuşdur. Məqalə xatirə xarakteri daşısa da, burada Y.Məmmədəliyevin kimya elmində qazandığı böyük nailiyyətlər, Azərbaycan elminə gətirdiyi böyük yeniliklər də yığcam ifadə olunmuşdur.

## ƏDƏBİ-TƏNQİDİ MƏQALƏLƏRİ

M.Rzaquluzadə ədəbiyyat aləminə gəldiyi vaxtdan ardıcıl olaraq dövri mətbuatda bədii ədəbiyyatın müxtəlif problemlərinə dair məqalələrlə çıxış etmişdir. Bu məqalələrin bir qismi Azərbaycan uşaq ədəbiyyatı tarixinə, ayrı-ayrı yazıçıların uşaq əsərlərinin keyfiyyətinə, uşaq ədəbiyyatının aktual problemlərinə, onun yeni nəslin bədii-estetik tərbiyəsində roluna həsr olunmuşdur.

1926-cı ildə "Maarif işçisi" jurnalında çap etdirdiyi "Cocuq ədəbiyyatında üsul məsələsi"[1] ilə ədəbiyyata gələn M.Rzaquluzadə yazıçıların qarşısında seçilən mövzunun uşaqların səviyyəsinə uyğun işlənməsi tələbini irəli sürürdü. Çünki bu illərdə gənc Mikayıl həm Bakının müxtəlif kitabxanalarında müdir işləyir, həm də dərs deyirdi. Şübhəsiz burada o uşaqların yaşını, qavrama qabiliyyətini, hansı janrlarda yazılmış əsərlərə meylini öyrənməyə maraq göstərmiş, bu da sonralar onun uşaq ədəbiyyatı sahəsindəki fəaliyyətinə geniş yol açmışdır. M.Rzaquluzadə Moskvada aspiranturada oxuyarkən uşaq ədəbiyyatı üzrə mövzu götürmüş, bu sahədə xeyli məqalə çap etdirmişdir.

M.Rzaquluzadə 1940-cı ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı dekadası ongünlüyündə dörd mə'ruzə etmişdir:

---------------------

1. DƏİA, fond. №621, siyahı №1

"Sovet Azərbaycanın şe'ri", "Azərbaycan sovet ədəbiyyatı almanaxı", "Məmməd Rahim", "Azərbaycan uşaq ədəbiyyatı" adlı məqaləsini müəllif dekadanın doqquzuncu günü mə'ruzə etmişdir. Mə'ruzədə müxtəsərcə Azərbaycan uşaq ədəbiyyatının xalqın şifahi söz sərvətindən, həmçinin Nizami, Füzuli, Vaqif, Axundov və S.Ə.Şirvaninin ədəbi irsindən qidalandığını göstərir. A.Şaiq, M.Ə.Sabir, S.S.Axundov və A.Səhhətin yaradıcılığında uşaq ədəbiyyatının yaxşı nümunələri olduğunu, bunların əsasında yeni dərsliklərin yarandığını qeyd etmişdir. Müəllif bu ən'ənələr zəmnində M.M.Seyidzadənin, H.Əlizadənin, M.Dilbazinin və b. yaradıcılığına nəzər salır. Həmçinin tərcümə ədəbiyyatına dair mülahizələrini söyləyir. Sonrakı illərdə yazdığı "Azərbaycan sovet uşaq ədəbiyyatında mövzu və keyfiyyət məsələsi",[1] "Ədəbiyyat və tərbiyə", A.Şaiq haqqında "Şərəfli yaradıcılıq yolu", N.Rəfibəyli haqqında "Yanar ürək", M.Dilbazi haqqında "Ana məhəbbəti"[2] və uşaq ədəbiyyatının müxtəlif məsələlərinə həsr edilmiş digər kiçik həcmli məqalələr, mə'ruzələr və çıxışlar uşaq ədəbiyyatının öyrənilməsi üçün tutarlı mənbəyə çevrildi.

Bəllidir ki, alman sovet müharibəsindən sonra ölkədə yeni quruculuq işləri başlandı. Bu quruculuq təkcə təsərrüfatda deyil, mədəniyyətin bütün sahələrində -maarif, elm, təhsil və tərbiyə ocaqlarında həyata keçirilirdi. Məqsəd sosializm quruculuğunun bərpası olsa da, hər şeydən əvvəl müharibə illərində "Hər şey cəbhə üçün: hər şey qələbə üçün" şüarı nəinki təsərrüfatın pozulmasına, hətta bütün mədəniyyət ocaqlarının dayandırılmasına, maarif və təhsil sisteminin pozulmasına gətirib çıxarmışdı.

Qələbədən sonra ölkənin quruculuğunda böyük canlanma başladı. Dövlət maarif, mədəniyyət, elm, təhsil, ədəbiyyatvə incəsənət haqqında bir sıra tədbirlər həyata keçirdi. Bu tədbirlərin sırasında yeni nəslin tərbiyəsi xüsusi yer tuturdu. 1944-cü ilin sonlarında Səməd Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı elmi-nəzəri konseptual məqaləsini yazdı. Bu əsər uşaq yazıçılarının qarşısında çox ciddi vəzifələr qoydu və uşaq

---

1. Rzaquluzadə M. Azərbaycan uşaq ədəbiyyatında mövzu və keyfiyyət məsələsi, Azərbaycan, 1955, №8

2. Həmin məqalələr M.Rzaquluzadənin "Nəsillərdən-nəsillərə" (1965) kitabında çap edilmişdir.



ədəbiyyatına yeni bir istiqamət verdi. Məhz qələbədən sonrakı on ildə yeni keyfiyyətli uşaq əsərlərinin hesabına bu ədəbiyyat xeyli zənginləşdi. M.Rzaquluzadənin "Azərbaycan sovet uşaq ədəbiyyatında mövzu və keyfiyyət məsələsi" adlı geniş məzmunlu məqaləsi məhz bu məramla yazılmışdır. Məqalədə yeni quruculuq illərində uşaq yazıçılarının qarşısında duran yaradıcılıq vəzifələrindən söhbət açılır. Müəllif ilk növbədə klassik kədəbiyyatımızda yer tutan didaktik-nəsihətamiz əsərləri yada salır, onların müasir yazıçılar üçün örnək olduğunu xatırladır. Yazıçı A.Şaiq, M.Seyidzadə, M.Dilbazi, N.Rəfibəyli, Ə.Abbas və b. uşaq ədəbiyyatı sahəsində xidmətlərini yüksək qiymətləndirir. Onların əsərlərindən gətirdiyi nümunələri mövzu-ideya və bədii sənətkarlıq baxımından təhlil edir. Məqalə uşaq ədəbiyyatının müxtəlif problemlərinə həsr olduğundan ayrı-ayrı başlıqlardan ibarətdir; "Uşaq ədəbiyyatında folklordan və klassik ədəbiyyatdan istifadə məsələsi" bölməsində ilk növbədə uşaq folkloru ən'ənələrinə müraciət edir, onu nəsillərin tərbiyəsindəki əhəmiyyətindən danışır, qeyd edir ki, xalqı yaradıcı xəyalının məhsulu olan, gözəl, rəngarəng, nağıllar bu gün də yalnız nənələr və analar tərəfindən deyil, yazıçılarımızın bədii təxəyyülündə yenidən işlənib balalara çatdırılır. Çünki bu nağıllarda uşaqların asanlıqla dərk edə biləcəkləri maraqlı hadisələr, əfsanəvi qəhrəmanlarla dolu canlı bir aləm təsvir olunur. Müəllif məqalədə Ə.Vəliyevin "Madarın dastanı", Z.Cabbarzadənin "Tülkü və çoban", Ə.Əlibəylinin "Qurd nağılı" və s. Əsərlərindən, şe'r və hekayələrindən misallar gətirir. "Madarın dastanı" əsəri üzərində xüsusi dayanır. Onu xalq nağıllarının əsas elementləri və motivləri tə'siri ilə yaradılmış bir sənət nümunəsi kimi qiymətləndirir.

M.Rzaquluzadə bə'zi yazıçıların folklordan istifadə edərkən klassik nağıllarımıza sün'i müasirlik donu geyindirməsini ciddi tənqid edir və xatırladır ki, V.Q.Belinski vaxtilə rus xalq nağıllarını təhrif edənləri çox kəskin şəkildə tənqid etmişdir: "Bacarırsınız, özünüz yeni nağıl yaradın, bacarmırsınızsa, xalq nağıllarını korlamayın". Yazıçı bu məqaləsinin "İnqilabi hərəkat mövzusu", "Zəhmət mövzusu", "Təbiət, təbii sərvət", "Məktəb, ailə bağça", "Xarici ölkələrdə həyat və mübarizə", "Elmi bədii janr" bölmələrində uşaq ədəbiyyatı yaradıcılığı məsələləri ilə

məşğul olan yazıçıların, şairlərin, tənqidçilərin qarşısında dura vəzifələri ətraflı işıqlandırır və göstərir ki, uşaq və gənclərimizin sağlam ruhda tərbiyəsi, onlarda bədii-estetik dünyagörüşün formalaşması vacib və əsas şərtlərdəndir.[1] Uşaqlarda tariximizi, xalqımızın azadlıq uğrunda apardığı mübarizələri gənclərə aşılamaq ədəbiyyatın başlıca vəzifəsidir. Bu ədəbiyyatın bədii səviyyəsinin, yüksək dil və ifadə vasitələrinin tə'sirli olmasına çalışmaq, belə əsərlərə yüksək tələbkarlıqla yanaşmaq ən vacib məsələlərdən biridir. Məqalədə göstərilir ki, zəhmət mövzusu, əməyin tərənnümü, vətənimizin zəngin təbiətini, maddi və mə'nəvi sərvətini sevdirmək, onu qayğı ilə qorumaq uşaqlar üçün yazılmış əsərlərin qayəsini təşkil etməlidir.

M.Rzaquluzadə məktəb yaşlı uşaqlar üçün ən başlıca cəhət maraqlı məktəb, təhsil mövzularının işlənməsində görür. bu mövzuda yazılmış Ə.Abasovun "Nailə" poemasının məziyyətlərindən bəhs edir. Məqalədə həmçinin ailə ilə bağçanın əlaqəsindən ailədə və bağçada uşaqların tərbiyə yollarından ətraflı dınışılır.

Müəllif bu geniş və dolğun məzmunlu məqalədə Azərbaycan uşaq ədəbiyyatının inkişafı yollarını, əsasən düzgün göstərmişdir. Şübhəsiz məqalədə 50-ci illərin siyasi və ideoloji tələbindən irəli gələn sosialist məzmunlu əsərlərin yazılmasına üstünlük verilir. Bununla belə həmin dövrün ədəbi məhsulları uşaq ədəbiyyatımızın yaxşı nümunələri kimi qiymətləndirilir.

M.Rzaquluzadənin 1954-cü ildə yazdığı "Uşaq ədəbiyyatına diqqəti artıraq"[2] məqaləsində yeni nəslin ideoloji və bədii-estetik tərbiyəsinə xidmət edən "Pioner" jurnalında çap olunmuş materiallara diqqəti cəlb edir. Və göstərir ki, uşaq əsərlərində ideyanın aydın, bədii keyfiyyətin yüksək olması vacibdir.

Həmin ildə yazıçıların II qurultayında qarşıya qoyulan uşaq ədəbiyyatında yüksək ideyalılıq və sənətkarlıq məsələlərinin müzakirəsində M.Rzaquluzadə "Uşaq ədəbiyyatı haqqında bə'zi mülahizələr" adlı məqaləsində "Azərbaycan gəncləri" qəzetinin səhifələrində uşaq və gənclər ədəbiyyatı məsələləri ətrafında müzakirə açmaq təşəbbüsünü təqdirəlayiq olduğunu göstərmişdir.

---

1. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı, 1984, s.233.
2. Rzaquluzadə M. Uşaq ədəbiyyatına diqqət artıraq. Ədəbiyyat və incəsənət, 1954. 11 dekabr.



M.Rzaquluzadənin qeydlərinə görə uşaq və gənclərimiz üçün müxtəlif janrlarda bədii əsərlər yaratmaq işində yazıçılarımız xalq ədəbiyyatından geniş istifadə etmiş, bu gün də faydalanmaqdadır. Lakin folklor motivləri, uşaq ədəbiyyatı yaratmaq məsələsi bizdə, hələ lazımi səviyyəyə qaldırılmamışdır. Qeyd etməliyik ki, az yaşlılar üçün yazılan əsərlərin mövzu dairəsini genişləndirməkdən ötrü folklorun zəngin məzmunundan ustalıqla bəhrələnmək lazımdır. Lakin əsl məsələ burasındadır ki, mövzuları hazır nağıllardan deyil, müasir həyatdan almaq daha zəruridir. Azərbaycan yazıçıları öz böyük ustadları olan Nizami və Krılovdan, Füzuli və Puşkindən, Sabir və Mayakovskidən həm yüksək sənətkarlığı, həm də xırdaca balalara böyük və dərin məhəbbət bəsləməyi də öyrənməli, vətənimizin vətəndaşlarına hörmət və ehtiramla yanaşmağı da əsərlərində tərbiyə etməlidirlər".[1]

Azərbaycan uşaq ədəbiyyatının inkişafını ardıcıl izləyən 1961-ci ildə uşaq ədəbiyyatına həsr olunmuş müşavirədə "Gənc iste'dadlara diqqət və qayğı"[2] adlı mə'ruzəsində gənclərin bədii tərbiyəsinə xidmət edən ən yaxşı şe'r və poemalardan, nəsr əsərlərindən bəhs edir. M.Seyidzadənin, M.Dilbazinin, T.Elçinin əsərlərinin uşaqlar tərəfindən sevilə-sevilə oxunduğunu təqdir edir, onların məziyyətlərini açıqlayır. Bununla belə, M.Rzaquluzadə uşaq yazıçılarının qarşısında daha ciddi mövzulara girişməyi, dövrümüzün əsl qəhrəmanlarının kamil obrazını yaratmağı tövsiyə edir.

Məqalədə uşaq ədəbiyyatına gələn yeni ədəbi qüvvələrin iste'dadlı nümayəndələrinin maraqlı hekayələrini çap etməyin, onlara xüsusi qayğı göstərməyin vacib olduğunu xatırladır. Onların maraq və meyllərinə düzgün istiqamət verməyi məsləhət görür.

M.Rzaquluzadə uşaq ədəbiyyatının müxtəlif problemlərindən bəhs etməklə yanaşı, ayrı-ayrı yazıçıların yaradıcılığına məqalələr də həsr etmişdir. Bu məqalələrdən Abdulla Şaiqin yaradıcılığından bəhs edən "Şərəfli faradıcılıq yolu", Nigar Rəfibəyliyə həsr edilən "Yanar ürək", M.Dilbaziyə həsr edilən "Ana məhəbbəti" adlı məqalələri sənətkarlara xüsusi qayğı və hörmətlə işlənmişdir.

---

1. Bax: Azərbaycan Gəncləri, 1955, 22 may.
2. Rzaquluzadə M.Gənc iste'dadlara diqqət və qayğı. Azərbaycan gəncləri, 1961, 25 oktyabr.

M.Rzaquluzadənin böyük hörmət və ehtiram bəslədiyi uşaq yazıçılarından biri bəlkə də birincisi Abdulla Şaiq olmuşdur. O, 1923-cü ildə yazdığı "Müəllim" adlı şe'rini məhz ona həsr eləmiş və şe'r elə həmin il "Abdulla Şaiq" kitabında dərc olunmuşdur.

Qocaman müəllim və görkəmli yazıçı A.Şaiqin Azərbaycan balalarına göstərdiyi qayğını M.Rzaquluzadə "Balaların böyük məhəbbəti" məqaləsində işıqlandırılmışdır. Müəllif məqalədə yazır: "A.Şaiq uşaqlar üçün yazdığı hər hansı bir nağıl və hekayəsini, məsələn, "Tülkü həccə gedir", "Yaxşı arxa", "Şələquyruq"" kimi əsərlərini xatırlayaq. Bunlrı hamımız vaxtilə sevə-sevə dinləmiş, sonra oxumuş, daha sonra eyni sevinclə öz balalarımıza oxuyuruq".[1]

M.Rzaquluzadə göstərir ki, A.Şaiqin uşaqlar üçün yazdığı əsərlərindəki müvəffəqiyyətin sirri, hər şeydən əvvəl, yazıçının uşaqlara böyük məhəbbət bəsləməsində, onların arzu və istəklərini gözəl bilməsində, zəngin uşaq aləminin, uşaq qəlbinin dərinliklərinə bələd olmasındadır. Məhz buna görə də qocaman yazıçıya qarşı uşaqların sonsuz məhəbbəti vardır. Mə'sum uşaq qəlbinin körpə balaların bu böyük məhəbbəti yazıçı üçün ən yüksək mükafatıdır.

M.Rzaquluzadənin həmin məqaləsi üç bölmədən ibarətdir: "Canlı xatirələr", "Çətin yol" və "Balacaların böyük məhəbbəti". Müəllif "Canlı xatirələr" bölməsində Azərbaycan ədəbiyyatında xüsusi yeri olan Şaiqin "Xatirələrim" me'muarı üzərində ətraflı dayanır. Ədibin yaşadığı və fəaliyyət göstərdiyi üç ictimai ədəbi mühit -Tiflis, Xorasan və Bakı mühitini, bu şəhərlərdə Şaiqin təhsil və tərbiyəsini, ilk yaradıcılıq addımlarını, müəllimlik və pedaqoji fəaliyyətini, nəhayət Bakı mühitində geniş ədəbi aləmə qovuşduğunu və bütün bunların canlı xatirələrə çevrildiyini ədib və maarif xadiminə böyük hörmət və ehtiramla yada salır. Bununla yeni nəsildə A.Şaiqə xüsusi bir hüsn-rəğbət oyadır. Məqalənin "Çətin yol" adlanan ikinci bölməsində, A.Şaiqin 1905-ci il inqilabı dövründən başlayaraq irtica illərində, Birinci Cahan müharibəsi dövründə, rus imperiyasının devrildiyi və Azərbaycanın qarşılaşdığı böyük məhrumiyyətlər, Cavidlərin, Hadilərin, Seyid Hüseynlərin başlarına

---

1. Rzaquluzadə M.Balaların böyük məhəbbəti. Azərbaycan müəllimi, 1950, 22 mart.



gələn faciələr, bu çətin imtahanlardan sıyrılıb çıxmaq məqamları Şaiq həyatının ən çətin, ən mürəkkəb anları idi. M.Rzaquluzadə Şaiqin nə qədər ağır, qanlı-qadalı illərlə üzləşdiyini, bununla belə böyük sənət yoluna çıxdığını əsərlərindən gətirdiyi tutarlı misallarla göstərir və qiymətləndirir.

M.Rzaquluzadə A.Şaiqin bütöv bir məktəb olduğunu, bu məktəbdən öyrəndiyini və onun ən'ənələrini davam etdirdiyini fəxrlə xatırlayır. Müəllif ədibin uşaq ədəbiyyatı sahəsindəki müvəffəqiyyətin sirri nədədir?-sualına özü belə cavab verir:

"Bu suala cavab vermək həm çox çətin, həm də asandır. Çətindir, çünki bunun üçün mürəkkəb yaradıcılıq psixologiyasını uzun-uzun təhlil və tədqiq etmək lazımdır. Asandır, çünki bunu bircə kəlmə ilə demək olar:

- Bu vergidir!

Bəli, vergidir. İnsanda gözəl səs, mütənasib qəddi-qamət, sima gözəlliyi, musiqi iste'dadı və sair üstünlüklər necə fitri, anadangəlmə bir vergi isə, - bu da elə bir vergidir".[1]

Bu münasibətlə müəllif "uşaq yazıçısı fitrən hansı qabiliyyətə malik olmalıdır"-tezisini V.Q.Belinskidən gətirdiyi çox dəyərli bir sitatla təsdiqləyir.

M.Rzaquluzadəçox ürəkdən və səmimiyyətlə yazdığı məqaləsini kiçik qızı Aytənlə apardığı söhbətlə yekunlaşdırır. Birinci sinif şagirdi atasına bir neçə şe'r oxuyur. Şe'r kimindir? Sualına uşaq gözlərində xoşbəxt bir parıltı, üzündə fərəhli bir təbəssümlə cavab verdi:

- Abdulla Şaiq!

Sonra mənim ikinci sualımı gözləmədən özü şəxsən görmədiyi, tanımadığı yazıçıya saf və səmimi uşaq məhəbbətinin ifadəsi bir coşğunluqla əlavə etdi:

O elə yaxşı şe'rlər yazır ki!.. Adamın çox xoşuna gəlir.[2]

M.Rzaquluzadənin Şaiq ədəbi irsinə olan bu dərin hüsn-rəğbəti və sevgisi onun öz yaradıcılığında da tə'sirsiz qalmamışdır.

Müəllif "Ana məhəbbəti" məqaləsində M.Dilbazinin yaradıcılığına da eyni məhəbbətlə yanaşır. Məqalədə ilk növbədə şairənin həyatına, yaradıcılığının ilk illərinə və ilk kitabına nəzər yetirilir və göstərilir ki, "hansı ailəyə və körpələr evinə,

---

1. Rzaquluzadə M. Nəsillərdən-nəsillərə.-Bakı, Azərnəşr, s.434.
2. Yenə orada.

hansı uşaq bağçasına və ibtidai məktəbə, pioner və məktəblilər düşərgəsinə getsəniz balaca ürəklərin böyük məhəbbətini qazanmış şairə Mirvari Dilbazinin layla, nəğmə, nağıl, şe'r və poemalarını eşidəcəksiniz. Südəmər körpələr hələ beşikdə onun şirin laylalarını, onların öz həyat və mühitlərdə yazılmış xırdaca mənzum hekayə və rəvayətlərini dinləyirlər".[1]

M.Rzaquluzadə M.Dilbazinin poeziya laboratoriyasına daxil olaraq onun istər müasir şe'rimizdə xidmətlərindən, istərsə də uşaqlar üçün yazdığı əsərlərin bədii dəyərindən, sənətkarlıq xüsusiyyətlərindən söhbət açır, şairin klassik ən'ənələrinə, dünya ədəbiyyatı xəzinəsinə yaxşı bələd olduğunu, yaradıcılığında yalnız özünə bənzədiyini, gətirdiyi zəngin mündəricəli şe'r nümunələriilə göstərməyə müvəffəq olur.

M.Rzaquluzadə məqaləsini yekunlaşdıraraq Dilbazinin yaradıcılıq simasını səciyyələndirərkən, xülasə kimi demək olar ki, onun istər xırdaca balalar, istərsə də yaşlılar üçün ən müxtəlif mövzu və janrlarda yazdığı bütün əsərlərində yalnız iste'dadlı bir şair kimi qəlbinin deyil, həm də həssas, sevən bir ana qəlbinin çırpıntıları duyulur və bu xüsusiyyət onun bütün şe'rlərinə ayrı bir hərarət və səmimiyyət verir.

M.Rzaquluzadə "Yanar ürək" məqaləsində Nigar Rəfibəyli poeziyasına da eyni məhəbbətlə və ehtiramla yanaşır. Onun şe'rlərinin bədii mündəricəsini dəyərləndirir.

M.Rzaquluzadənin ədəbi-tənqidi məqalələrinin böyük bir qismi isə ümumiyyətlə, Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinə həsr olunmuşdur.

1940-cı ildə Moskvada keçirilən dekadası münasibətilə yazdığı "Sovet Azərbaycanının şe'ri"[2] adlı sanballı əsəri xüsusilə qeyd edilməlidir. 45 səhifəlik bu məqalədə müəllifXII əsr intibah poeziyasına müraciət edir. Nəzərlərimizi Nizami dastanlarında qaldırılan azadlıq və bərabərlik ideyalarına cəlb edir. Şairin ideal cəmiyyət haqqında söylədiyi qənaətləri misal gətirir:

**Bizdə bərabərdir hamının varı,**
**Bərabər bölərik bütün malları.**

------------------------

1. Rzaquluzadə M. Nəsillərdən-nəsillərə.-Bakı, Azərnəşr, s.434.
2. Sovet Azərbaycanının şe'ri. Azərbaycan ədəbiyyatı dekadası.-Bakı, Azərnəşr, 1940. S.12-57.



**Bizdə artıq deyil heç kəsdən heç kəs,**
**Bizdə ağlayana heç kimsə gülməz.**
**Oğrudan qorxmarıq biz nə şəhərdə,**
**Gözətçi qoyarıq nə də çöllərdə.**
**Qapımız nə qıfıl görər, nə açar,**
**Bizim mal-qaramız çobansız otlar.**
**Qızıla, gümüşə aldanmaz heç kəs,**
**Onlar bizim yerdə bir şeyə dəyməz.**
**Bizim xasiyyətdən kənara çıxan**
**Kim olsa qovarıq öz aramızdan.**[1]

M.Rzaquluzadə "İsgəndərin xoşbəxtlər ölkəsinə səfəri"ndə gördüklərini təsadüfən misal gətirmirdi. Xatırladaq ki, o, 40-cı illərdə Nizaminin "İsgəndərnamə"sini dilimizə çevirirdi. Həmin illərdə dahi şairin 800 illik yubileyinə böyük hazırlıq işi gedirdi. Görkəmli şərqşünas alimlər Nizaminin "İsgəndərnamə"sindən həmin hissəni misal gətirərək onda "sosializm və kommunizm" idealları axtarırdılar. M.Rzaquluzadə Nizaminin azadlıq və bərabərlik ideyalarını misal gətirməklə ümumittifaq oxucularını dahi şairin bu məramına cəlb edirdi.

M.Rzaquluzadə Nizami, Məshəti, Nəsimi, Füzuli və s. klassiklərdən poetik misallar gətirərək, qədim və orta yüzillər Azərbaycan şe'rində azadlıq ideallarını ardıcıl izləmişdir. Sonrakı səhifələrdə M.P.Vaqif , M.F.Axundov, Q.Zakir və nəhayət M.Ə.Sabirdən gətirdiyi bədii nümunələrlə tarixi mərhələlərin ictimai-siyasi ziddiyətlərinə münasibətini bildirmişdir.

Məqalənin sonrakı səhifələri 1920-40-cı illərin poeziyasına həsr edilmişdir. M.Rzaquluzadə ilk növbədə Səməd Vurğun şe'rinə müraciət edərək Vurğun şe'rinin bədii siqlətindən, onun məziyyətlərindən daha ətraflı danışır.

M.Rzaquluzadə yeni şe'rdən söhbət açarkən sərbəst vəznə də diqqəti cəlb edir. Bu vəznin ədəbi prosesdə özünə yer alaraq Nazim Hikmətin, Rəsul Rzanın. M.Rəfilinin yaradıcılığında təzahür etdiyini göstərir. Müəllif sərbəst vəzni oxucuların heç də həmişə müsbət qarşılamıdığını, tənqidə mə'ruz qaldığını açıqlayır. O, yazır: "Sərbəst şe'r haqqında ilk söz"[2] adlı bir "ma-

---------------------

1. Azərbaycan ədəbiyyatı dekadası.-Bakı, Azərnəşr,1940.s.10.
2. Maarif işçisi, 1929,№1

nifestlə" ortaya çıxan M.Rəfili bu ad altında yeni bir "ədəbi məktəbin" rəhbərliyini öhdəsinə aldığını e'lan etdi.[1]

M.Rzaquluzadənin də qeyd etdiyi kimi. O vaxta qədər "sərbəst şe'r" məsləsi və onun əsl mahiyyəti nə onun keçmiş tərəfdarları nə də əleyhdarları tərəfindən lazımınca izah edilməmişdir. "Sərbəst şe'r" nə idi?- deyən M.Rzaquluzadə bu barədə e'lan edilmiş "manifesti" belə izah edirdi: Bu "teoriya" da son dərəcə ultra "revolyusion" gurultulu sözlərlə ortaya atılmış, mahiyyətcə isə antisosial, antimarksist vulqar bir hərəkətdi. O, hər şeydən əvvəl, klassik və hətta müasir proletar şe'rini inkar edirdi.[2]

Müəllif M.Rəfilinin "Sərbəst şe'r haqqında ilk söz" məqaləsindən aşağıdakı parçanı nümunə gətirərkən onun klassik şe'rə mənfi münasibətini açıqlayırdı:

"Onlar bu qənaətdədirlər ki, (yə'ni sərbəst şe'rçilər-M.R.) azəri ədəbiyyatının son 75 illik inkişaf dövrü böyük və dərin bir fikrə və böyük ictimai bir qiymətə malik deyildi. İctimai ideallar yolunda mücadilə indiki ədəbiyyatımızda (yə'ni 1929-cu ildəki sovet-proletar ədəbiyyatı-M.R.) zəif bir surətdə davam edir. Əski ədəbiyyatımızda isə müəyyən bir yer bulmamışdır. Bu böyük 75 illik ədəbi dövr içində böyük bir sənətkarlıqla ifadə edilmiş qiymətli bir fikrə, bir fəlsəfəyə təsadüf edilməz".[3]

M.Rzaquluzadə M.Rəfilinin klassik irsə belə mənfi münasibətini kəskin tənqid edir. M.F.Axundov, C.Məmmədquluzadə və M.Ə.Sabir kimi ədiblərin zəngin ədəbi irsini müdafiə edirdi. M.Rzaquluzadənin M.Rəfiliyə istinadən dediyi sözlər daha maraqlıdır: "Sosialist ədəbiyyatına doğru gedən bu cərəyanın yapdığı və yapacağı ilk reformalardan biri də əsərlərinin müəyyən bir şəxsə təəllüqündən əl çəkmək, şe'rləri imzasız dərc etmək, müştərək şe'r yaratmaq olacaqdır. Çünki onların nəzəriyyələrinə görə, ədəbiyyat şəxsiyyətlər tarixi deyil, əsərlər, üslublar tarixidir; və beləcə sosialist ədəbiyyatı müştərək yaradıcılıq şəklini almalı olacaqdır".[4]

M.Rzaquluzadə məhz bu fikirlərə diqqəti yönəltməklə hə-

---

1. Azərbaycan ədəbiyyatı dekadası.-Bakı,Azərnəşr, s.29
2. Yenə orada.
3. Azərbaycan ədəbiyatı tarixi, 2 cilddə, I-ci c.-Bakı, Azərnəşr, 1967, s.7-37.
4. Azərbaycan ədəbiyyatı tarixi, 2cilddə,Ic.-Bakı. Azərbaycan EA, 1967, s.7-37.



min "nəzəriyyənin" və sosialist ədəbiyyatının gələcəkdə şəxsiyyətsiz müştərək yaradıcılıq şəkli alacağı haqqındakı "Peyğəmbərliyin" əsil ədəbiyyatşünaslıqla heç bir əlaqəsi olmadığını ifadə edirdi.

Əlbəttə, onu xatırlatmaq yerinə düşər ki, M.Rzaquluzadə 20-40-cı illər Azərbaycan şe'rinin sosializm cəmiyyəti uğrunda mübarizə pafosundan danışa bilərdi. Başqa cür ola da bilməzdi. Ən başlıcası o idi ki, Azərbaycan şe'ri öz klassik ən'ənəsinə sadiq idi və M.Rzaquluzadə bunu təqdir edirdi.

M.Rzaquluzadənin ikinci böyük oçerki "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin I cildində çap olunmuş "1917-1920-ci illərdə ədəbiyyat"[1] adlanır. Azərbaycanın ictimai-siyasi fikir tarixinin ən ziddiyətli, mürəkkəb, keşməkeşli, qanlı-qadalı, həm də mübarizələrlə dolu olan bir dövrü bu illərə təsadüf edir. Şübhəsiz, ictimai-siyasi vəziyyət mürəkkəb olan bir cəmiyyətdə ədəbiyyat və sənət də bu siyasi burulğanda öz məram və mövqeyini müəyyənləşdirməli idi. Rusiya imperiyasının buxovundan xilas olub müstəqilliyə qovuşmaq lazım idi. Çarizm məhv olmuşdu. Azadlığa can atan xalqa müstəqillik yolunu göstərmək üçün siyasi mübarizəilə ədəbi cəbhə qovuşmalı, birgə mübarizə aparmalı idi. Maraqlıdır ki, o zaman azadlıq mübarizəsinə qoşulan ziyalıların əksəriyyəti ədəbiyyat və sənət adamları idi: N.Nərimanov, M.Ə.Rəsulzadə, Sefid Cəfər Pişəvəri, M.S.Ordubadi, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli, H.K.Sanılı və başqa ədəbi-bədii yaradıcılıqla yanaşı, siyasi mübarizənin fəal iştirakçısı idilər.

M.Rzaquluzadə 17-20-ci illərin ictimai-siyasi mənzərəsini düzgün ehtiva etmiş və bu mürəkkəb məqamda ədəbiyyat və incəsənətin, geniş miqyas alan mətbuatın fəaliyyətini düzgün müəyənləşdirmişdir. Əlbəttə, bu dövrün mətbuatı müxtəlif siyasi cəmiyyətlərə, partiyalara və cərəyanlara xidmət edirdi. Onların ideya və məramlarını aydınlaşdırmaq, xalqın arzularına yönəldilən qabaqcıl fikirli ədəbiyyatı müəyyənləşdirmək, ümumiləşdirmək yüksək səviyyə və cəsarət tələb edirdi.

Bu da bəllidir ki, o zamankı mətbuat da, bu mətbuatda fəaliyyət göstərən ədəbi qüvvələr də əsasən, cəbhələrə bölün-

---

1. Azərbaycan ədəbiyyatı tarixi, 2cilddə,Ic.-Bakı. Azərbaycan EA, 1967, s.7-37.

müşdülər. Sonralar bu cəbhələr sovet məfkurəsinə görə, mütərəqqi və mürtəce adı ilə səciyyələndirilir. "Mütərəqqi" mətbuat və ədəbi qüvvələr təbliğ və təqdir olundu. "Mürtəce" qüvvələr isə ciddi tənqidə mə'ruz qaldı. Hətta sonralar onların nümayəndələri tə'qib olundular. Əslində isə belə cəbhə və ya cərəyan yox idi. Sovet diktaturasının uydurduğu siyasət idi və sovet hakimiyyəti süquta uğrayana qədər davam etdi.

M.Rzaquluzadənin 60-cı illərdə yazdığı bu məqalə həmin ideologiyanın məhsulu idi. Ancaq bütün bunlara baxmayaraq, ədəbiyyat hansı siyasətə xidmət etsə də, ədəbiyyat olaraq qalır. Onu da xatırladaq ki, 60-cı illərdə siyasi iqlimdə az da olsa, bir "yumşalma" meyli yaranmışdı. Bu da repressiyaya mə'ruz qalmış ziyalıların yaradıcılığına münasibəti dəyişdirdi. Onların ədəbi fəaliyyəti yenidən araşdırıldı. Bir çoxlarının əsərləri çap olundu. M.Rzaquluzadə 60-cı illərdə bu ədəbiyyatı ancaq o illərin ab-havası ilə təqdim edə bilərdi. Bundan irəli gedə bilməzdi.

M.Rzaquluzadə C.Cabbarlıya həsr etdiyi "Odlu duyğular" (1945) adlı məqaləsində yazır:

"Ümumiyyətlə, hər hansı böyük bir sənətkarın, xüsusən C.Cabbarlı kimi çox geniş, mürəkkəb, rəngarəng, çoxcəhətli fəaliyyətini ömrünün sonuna qədər davam etdirən bir sənətkarın əsərlərini ayrı-ayrı şərti "dövrlərə" və ya "ədəbi növlərə" görə bir-birindən ayırmaq, bunlara ayrılıqda mə–na və qiymət vermək bizcə sün'i və yanlış bir yoldur. Çünki belə sənətkarın yaradıcılığı mürəkkəb bir vəhdət təşkil edir və bu yaradıcılığın ayrı-ayrı cəhətləri bir-birinin davamı olub, bir-birini tamamlayır, bir-biri ilə üzvi bir surətdə qaynayıb qarışır".[1]

M.Rzaquluzadənin qeyd etdiyi kimi C.Cabbarlı şe'rlərində qaldırdığı bir sıra məsələləri pyeslərində geniş və ətraflı şəkildə, eyni zamanda xarakterlər vasitəsilə açıqlamışdır. Müəllifə görə C.Cabbarlı yaradıcılığının ilk dövrlərində satira janrından istifadə edirdisə, sonralar yazdığı epik dramatik əsərlərində öz qənaətlərini tamamlamışdır. Deməli, M.Rzaquluzadənin qeyd etdiyi kimi C.Cabbarlı ədəbi irsi tematik cəhətdən mühüm problemləri; "millətin ümumi dərdi, qadın azadlığı, mədəniyyət, elm və tərəqqi; ziyalılar və cənubi Azərbaycanın taleyinə

--------------------

1.Rzaquluzadə M. Nəsillərdən-nəsillərə.-Bakı, Azərnəşr, 1965.s.438.



qədərki, ən müxtəlif məsələlərə toxunmuşdur".[1] Müəllif haqlı olaraq Cabbarlı yaradıcılığının əsas xüsusiyyətlərini onun yüksək inqilabi romantika və vətənpərvərlik ideyasında görür.

C.Cabbarlı ədəbi irsinə yüksək qiymət verən M.Rzaquluzadə yazır: "Xalqımızın iftixarı olan böyük sənətkarımızın bütün yaradıcılığında, ölkəmizin sinəsindəki ədəbi odlar kimi qaynayan bu müqəddəs məhəbbət: insan eşqi, məslək eşqi, azadlıq eşqi, vətən eşqi kimi təzahür etməkdədir; Oqtayları, Aydınları, Sevilləri, Almazları, Yaşarları, Elxanları... ən çətin mübarizələrdən qalib çıxaran da həmin bu qadir məhəbbətdir!"[2]

M.Rzaquluzadə "Yaşasın müasir nəğmələr!" məqaləsində R.Rza poeziyasının xüsusiyyətlərindən və mə'ziyyətlərindən bəhs edir. Və göstərir ki, tarixin mərhələlərində "incəsənətin hər növündə, yaradıcılığın hər sahəsində əsas məqsədin həyata, insana, onun yüksək ideallarına xidmətdən ibarət olduğunu-dəriləri dabanından soyulan Nəsimilər, yad gülləsilə öldürülən Puşkinlər, ömürləri sürgünlərdə çürüyən Şevçenkolar, şah əsərlərini dustaqxanalarda ürəklərinin qanı ilə yazan Nazim Hikmətlər - bütün bu yüksək məqsəd sənətkarları öz həyat və yaradıcılıqları ilə isbat etmişlər və edirlər".[3]

Bütün bunlarla yanaşı M.Rzaquluzadə belə bir "iddia" ilə razılaşa bilmir ki, guya əsl şe'r "ürəkdən gələn şe'rdir", yə'ni hissin məhsuludur, guya fikir şe'ri qurudur. Müəllif bu qənaətə gəlir ki, "elmdə və sənətdə yaradıcılıq mexanizmi olaraq beynin və ürəyin belə qarşı-qarşıya qoyulması avamlıq və nadanlıqdan başqa bir şey deyildir... Yalnız bunu qeyd etmək kifayətdir ki, ən hissi lirik şe'r, ən tə'sirli musiqi parçası, ən cazibəli rəssam lövhəsi uzun-uzadı düşüncə və təcrübənin məhsulu, həm də müəyyən fikir və ideyanın ifadəsidir".[4]

Bu elmi qənaətlərdən sonra M.Rzaquluzadə R.Rzanın poeziyasındakı fikirlərə diqqətimizi yönəldir və qeyd edir ki, "şe'rlərin bir məziyyəti var ki, onları oxuduqda, yalnız şəxsən zövq almaq, sevinmək, kədərlənmək və ya qəzəblənməklə kifayətlənə bilirsən. Düşünməli olursan, həm də bu düşüncələrini ifadə etmək, paylaşmaq ehtiyacı duyursan. bu isə hər sənət əsəri

--------------------

1.Rzaquluzadə M. Nəsillərdən-nəsillərə.-Bakı, Azərnəşr, 1965.s.438.
2. Rzaquluzadə M.Nəsillərdən-nəsillərə,s.445.
3. Yenə orada.
4. Yenə orada.

üçün qibtə ediləcək üstün bir məziyyətdir".[1]

Fikirlərini oxucularla bölüşən müəllif R.Rzanın "İstəyirəm", "Sahil daşları", "Çəyirtgələr", "Könlümə yağış düşüb", "Gilavar", "Buludlara səhər çilənir" şe'rlərindəki incə mətləbləri, ictimai və fəlsəfi mahiyyəti açır, oxucu qarşısında yeni-yeni mənzərələr canlanır.

M.Rzaquluzadə qeyd edir ki, müasir şe'rin yalnız yaxşı nümunələrini yaratmaqla kifayətlənməyib, həm də yeri gəldikcə doğrudan-doğruya nəzəri məsələlər haqqında şe'r və məqalələrində fikirlərini söyləyən mübariz sənətkarlar -Heyne, Mayakovski, Nazim Hikmət kimi R.Rza da bu yeni şe'rləri mühüm bir qismini sənət və tənqid məsələlərinə həsr etmişdir; "Nağıl", "Müxtəlif nəğmələr", "Nəğmə oxumağım gəlir", "Soruş", "Do-re-mi", "Hər dərdin əlacı", "Mığmığalar", "Tənqid nəcib sənətdir" və başqaları bu qəbildəndir.

M.Rzaquluzadənin də dediyi kimi R.Rza şe'rdə meşşanlığa, köhnəpərəstliyə, tənqiddə, tərəfkirliyə, avamlıq və nadanlığa, şəxsi məhdud zövq və qənaətlərini oxucu və xalq adından qələmə vermək istəyənlərə, bir sözlə, sənət və tənqid məsələlərində köhnəlik qalıqlarına qarşı çıxır.

M.Rzaquluzadə Nigar Rəfibəylinin "Şe'rlər" adlı kitabı (1934) haqqında yazdığı dəyərli məqaləsini Nigarın məzmunlu bir şe'rilə başlayır, sonra çox müxtəsərcə Nigar Rəfibəyli həyat yolunu şərh edir. Müəllif Azərbaycan qadının tarixi keçmişinə üz tutur. Və yazır ki, Dədə Qorqud dastanlarından tutmuş, Qaçaq Nəbi mahnılarına qədər, Böyük Nizaminin ölməz poemalarından xalq şairimiz Səməd Vurğunun "Komsomol" poemasına qədər bədii əsərlərdə öz əksini tapmış sədaqət, məhəbbət, zahiri və daxili gözəllikləri ilə Burla Xatunlar, Şirinlər, Nüşabələr, Həcərlər, Humaylar simasında bizi valeh edən Azərbaycan qadınının taleyi onun indiki həyatımızdakı mövqeyi yeni həyat quruluşu uğrunda mübarizə və qələbə və Nigarın yaradıcılığının demək olar ki, baş motividir.[2]

Müəllifin də qeyd etdiyi kimi həqiqətən də gənc şairi ilk şe'rlərindən ən çox maraqlandıran və məşğul edən mövzu müasir Azərbaycan qadınının haqqı, azadlıq və səadəti utrunda mübarizəsi idi. Bu mövzunu N.Rəfibəyli yaradıcılığının sonrakı

---

1. Rzaquluzadə M.Nəsillərdən-nəsillərə, s.445.
2. Rzaquluzadə M. Nəsillərdən-nəsillərə.s.475.



mərhələlərində də davam etdirmiş. 1951-ci ildə çap etdirdiyi "Anaların səsi" adlı kitabında da bunu aydın görmək olar. R.Nigar bu şe'rlərdə qadınların yalnız yüksək arzu və əməllərini ifadə etməklə kifayətlənməyib, tarixdə və müasir həyatda, beynəlxalq sülh və azadlıq mübarizəsində, faşizmə və mürtəce qara qüvvələrə qarşı vuruşan konkret qəhrəman qadın simalarını böyük bir məhəbbətlə tərənnüm edir. M.Rzaquluzadə ümumiyyətlə, Nigarın yaradıcılıq yoluna bütövlükdə nəzər salır. Onu yalnız məzmun və mündəricə baxımından, eyni zamanda yeni forma və vəzn yeniliyi baxımından da araşdırır. Nigar şe'rinin bu məziyyətlərini ümumiləşdirməyə çalışır. Həmçinin şairin tərcüməçilik fəaliyyətini də yüksək qiymətləndirir.

Ədəbiyyat və incəsənət arxivində M.Rzaquluzadənin əlyazmaları içərisində elmi-nəzəri məqalələri, rə'y, resenziya və çıxışları daha çoxdur. Onların bir qismi ayrı-ayrı sənətkarların - Nizami, Füzuli, Vaqif, M.F.Axundov, Ə.Vahid, A.Şaiq, M.Hüseyn, S.Vurğun, M.Seyidzadə və müasir uşaq yazıçılarının ədəbi fəaliyyətindən bəhs edir.[1] İnkinci qism mə'ruzələr ədəbiyyatın müxtəlif problemlərinə, elmi-nəzəri məsələlərinə, dərsliklərə və dərs vəsaitlərinə həsr edilmişdir. Bu əsərlərin bir çoxu dövri mətbuatda və müəllifin seçilmiş əsərlərində çap olunmuş, qalanları isə arxivdə saxlanılır.

Qeyd edək ki, M.Rzaquluzadə ədəbi fəaliyyətinin ilkin çağlarından dünya ədəbiyyatı ilə məşğul olmuş, onun ən nadir nümunələrini dilimizə çevirmişdir. O, tərcümə prosesində yazıçının həyat və fəaliyyətini, tərcümə etdiyi əsərin ideya məzmununu yazıçının qayəsini mükəmməl öyrənmiş, məqamı gəldikcə ədəbi qeydlərini də mətbuatda çap etdirmişdir. Onun tərcüməçilik fəaliyyəti xüsusi tədqiqat mövzusu olduğundan kitabda söhbət açmağı lazım bilmədik.

M.Rzaquluzadə bütövlükdə 60 illik yaradıcılığı dövründə Azərbaycan uşaq ədəbiyyatının və ümumən, Azərbaycan ədəbiyyatının inkişafı prosesini ardıcıl izləmiş, onun həm ümumi məsələlərinə dair, həm də ayrı-ayrı yaradıcılıqları haqqında müntəzəm fikir söyləmişdir. Eyni ilə də dünya ədəbiyyatından etdiyi tərcümə prosesində bu ədəbiyyatı mükəmməl öyrənmiş və qənaətlərini mətbuatda söyləmişdir.

---

1. DƏİA. №621, siyahı №1

# M.RZAQULUZADƏ VƏ XALQ YARADICILIĞI

Azərbaycan uşaq ədəbiyyatının şifahi xalq yaradıcılığı ilə əlaqəsi onun gözəl keyfiyyətlərindəndir. Şifahi ədəbiyyat bir mənbə və məxəz kimi həmişə yazıçılarımızın diqqətini cəlb etmişdir. Hər dövrün söz ustası fərdi yaradıcılıq üslubuna, bədii zövqünə və məqsədinə uyğun olaraq şifahi ədəbiyyatdan bəhrələnmiş, gözəl əsərlər yazmışdır.

Xalqların tarixi inkişafının, məişət, adət və ən'ənələrinin tərzinin güzgüsü olan şifahi söz sənətinin toplanıb öyrənilməsi böyük elmi əhəmiyyətə malikdir. Bu işə Azərbaycanda, əsasən iyirminci illərdə başlanmış və həqiqətən böyük müvəffəqiyyətlər əldə olunmuşdur.

Lakin bizim günlərimizdə, elmi-texniki inqilabın böyük nailiyyətləri şəraitində bə'ziləri kosmos əsri ilə folklor arasında dərin bir ziddiyyət görür, dörd-beş yaşında oxumağa başlayan, televiziya, radio və başqa kütləvi informasiya vasitələri ilə az-çox mə'lumat əldə edən uşaqların nağıl və dastanlara, nə vaxtsa yaradılmış xalq yaradıcılığı nümunələrinə ehtiyacı olmadığını iddia edənlər vardır. Lakin həyat bu iddiaları qətiyyətlə rədd edir. Bu gün folklorun yazıyaalma və tə'sir dairəsi daha çox genişlənmişdir. Əgər inqilabdan əvvəl xalq yaradıcılığı nümunələri ağızdan-ağıza keçib yaşayırdısa, indi onlar yazıyaalma yolu ilə əbədiləşir. Yazı isə hüdud tanımır, şəhərdə də, kənddə də oxunur, sərhədləri aşıb xalqları bir-birinin folklor yaradıcılığı ilə tanış edir.

Folklorun ölməzliyinin səbəblərindən biri onun xalqın zəngin mə'nəvi keyfiyyətlərini yüksək bədiiliklə əks etdirməsidir. Ona görə də həmişə olduğu kimi, bu gün də folklor gənc nəslin əxlaqi aləminin, estetik zövqünün formalaşmasında mühüm əhəmiyyətə malikdir.

Bu gün də sənətin ən gözəl nümunələri xalq yaradıcılığı bulağından su içmiş sənətkarlar tərəfindən yaradılır. Bu da təsadüfi deyildir. Çünki zəngin keçmişimizin mə'nəvi yadigarı olan el ədəbiyyatı xalq dühasının və təfəkkürünün əsrlər ərzində formalaşmış məhsuludur. Yaradıcılığında şifahi ədəbiyyatdan ən çox istifadə edən yazıçılarımızdan yazırdı ki, ...şifahi ədəbiyyatda bir çox şifahi-tədqiq nöqtələri var. Məsələn, bir



nağıl ilə xalqın bütün fəlsəfeyi-fikriyyəsi ifadə olunur. Hər nağıl haqqın-nahaqqa qələbə çalmasının parlaq bir dastanıdır. Millətin əhvali-ruhiyyəsinə vaqif olmaq üçün bir nağılın fəlsəfəsi ilə aşina olmalıdır".[1] Zəngin miras olan xalq ədəbiyyatı zamanın sınağından keçə-keçə öz təravətini artırmış, daha da cilalanaraq billurlaşmış və saflaşmışdır.

Başqa sənətkarlar kimi, M.Rzaquluzadə də xalq ədəbiyyatına müraciət edəndə aldığı materiala yaradıcılıqla yanaşır, onların müasirliyinə xüsusi diqqət yetirir, hadisələri real həyat həqiqətləri ilə ustalıqla bağlaya bilir.

Uşaqlıqdan eşitdiyi bayatılar, atalar sözü, nağıl və əfsanələr onun bütün yaradıcılığı boyu maraqlandırmış, şirin bir nəğmə kimi qəlbinə yol tapmışdır. Təsadüf deyil ki, ömrünün son çağlarında da o, yazdığı əsərlərində xalq yaradıcılığı nümunələrindən bol-bol istifadə etmişdir.

Rus ədəbiyyatı tarixində misilsiz mövqeyə malik dahi sənətkar Lev Tolstoy yazmışdır:

"Xalqa o yazıçılar dərin tə'sir edir, onunla birgə yaşayır ki, onlar xalqı yaxşı tanıyır və onun içərisindən çıxmış olurlar".[2] Bu sözlə birinci növbədə M.Rzaquluzadə yaradıcılığı ilə həmahəng səslənir. Çünki xalq ədəbiyyatını dərindən bilən şair müasir həyatdan yazdığı əsərlərini də şifahi xalq ədəbiyyatının qaynaqları ilə cilalayır. Dediyimizi sübuta yetirmək üçün bir misal göstərək. "Bakının axşamları" janr e'tibarilə kiçik şe'rdir. Özü də bu günümüzdən Bakının sür'ətlə böyüməsində, park, küçə və yaraşıqlı xiyabanlarından bəhs olunur. Ancaq müəllif burada da xalq ədəbiyyatına biganə qala bilmir. O, babanın dili ilə nağıllar aləminə müraciət edir, məşhur cırtdanın adını çəkir, uçan xalçaları yada salır, onları indi təyyarə və raketlərin əvəz etdiyi haqqında mə'lumat verir. Baba deyir:

**Qalaq bir gecə oyaq:**  
**Nağıllarda olan tək,-**  
**Gəl bu xalçaya minək,**  
**Gəzək bütün hər yeri.**  
**Bilməyək yaxın-uzaq**

---

1. Çəmənzəminli Y.V.Azərbaycan ədəbiyyatına bir nəzər. Ərzurum, 1992, s.12.
2. Tolstoy Lev. Ob iskustve i literature. M.S.P.1958,tom.1.

**Görək bu bir gecədə**
**Kim yatmışdır, kim oyaq?**[1]

Mə'lumdur ki, qədim insanlar öz arzu və istəklərini nağıllarda ifadə etmişlər, onlar havaya qalxmağı, uçmağı, uzaq məsafəni qısa müddətdə qət etməyi, şər üzərində xeyrin qələbəsini arzu etmişlər.

M.Rzaquluzadə lirik şe'rlərində də hekayələrində də xalqın mə'nəvi sərvətindən bol-bol bəhrələnmişdir. Ancaq o bu mə'nəvi sərvətə yaradıcılıqla yanaşmış, ondan müvafiq şəkildə istifadə etmişdir.

M.Rzaquluzadə folklor nümunələrində mövcud olan əhvalat və hadisələri, mahnı və nəğmələri, atalar sözü və məsəlləri olduğu kimi köçürməmiş, uşaqların qavrama dərəcəsinə uyğun şəkildə dəyişdirmiş, ona bə'zən yeni mə'na vermiş, bilik, mehribanlıq, təbiətə məhəbbət kimi məsələlərə bağlı motivlər artırmışdır.

Bu baxımdan onun "Dostluq", "Dirilik suyu", "Rəssam və hökmdar", "Aslan ürəyi", "Gözəllik", "Yuxu dərmanı", "Ovçu Elişlə Qoçaq Aytəkin nağılları", "Dəcəl çəpiş", "Şirin bulaq", "Şərqə mayak", "Naxışlar", "Beş barmaq" və adını çəkmədiyimiz onlarca şe'rləri və poemaları diqqəti cəlb edir. Bu əsərlər xalq yaradıcılığından istifadə ilə yazılmışdır. Adları çəkilən əsərlər uşaqların nitqinin inkişaf etdirilməsi, yaddaşının möhkəmləndirilməsi, lüğət ehtiyatının zənginləşdirilməsi üçün faydalıdır. Həmin əsərlərdə çoxlu yeni sözlər; anlayışlar; ifadələr və maraqlı poetik fikir vardır: "Dostluq" poeması uşaqların yaş xüsusiyyətlərinə: onların təsəvvür dairələrinə uyğun olan orijinal kompozisiya və süjet xətti əsasında yazılmışdır. Poemanın bütövlükdə qayəsini dostluq məsələsi təşkil edir. Şair dostluğu üçün yer ayırır və deyir ki, dil dostu: diş dostu, can dostu var. Ancaq onların fərqi də vardır. Dil dostu, sənin haqqında bol-bol söz deyər. Quru tə'riflər, söləyər, amma bir işə yaramaz; belə dostlardan uzaq olmalısan. Diş dostu isə çörək dostudur. O sənə süfrənin başında can deyər, yeyib-içəndə yaddan çıxarmayacağına and içər, belə dostlardan da kənar gəzməlisən.

Müəllif poemanın üçüncü hissəsində əsl dostluqdan söhbət açır və fikrini də ustalıqla tamamlaya bilir. Oxucularını inandır-

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı,1981.s.119.



maq istəyir ki, can dostu hər şeydən qiymətlidir. Ona əvəz edən ikinci bir qüvvə ola bilməz, ümumiyyətlə, "Sədaqətli dost qardaşdan irəlidir"-məsəlinə əsaslanan şair özünü maraqlandıran əxlaqi problemi düzgün qoymuş və fikrini müasir tələblər səviyyəsində həll edə bilmişdir. Nümunə üçün əsərin son misralarına diqqət edək:

**Can dostu-ürək dostu**
**Tez-tez can-can demədən,**
**Sevər candan-ürəkdən.**
**Yansan səninlə yanar,**
**Gülər səninlə, gülsən...**
**Güvən belə dostluğa,**
**Bunun qədrini bil sən.**[1]

Göründüyü kimi, yadda qalan, maraqlı süjetə və obrazlı dilə malik poemanın leytmotivini dostluq məsələsi təşkil edir. Bütün bu cəhətlərlə yanaşı şair uşaqların yaş xüsusiyyətlərini nəzərə almış, canlandırdığı konkret lövhə vasitəsilə çox mühüm əxlaqi nəticəyə gəlmiş və dostluq münasibətini dəyərləndirmişdir. Bununla da o, yoldaşlıq, qardaşlıq və s. kimi insani keyfiyyətlərin bədii təcəssümünü vermişdir.

Xatırladaq ki, dostluğun el arasında başqa tə'rifləri də bəllidir: gərək dostu, çörək dostu, ürək dostu. Bu tə'riflər folklorda daha çox yayılmışdır.

Azərbaycan şifahi xalq ədəbiyyatında "Dirilik suyu", "Abi həyat", "Əbədi həyat suyu" haqqında çoxsaylı rəvayət və əfsanələr vardır.

Əsrlərdən bəri insanlar ömrü uzatmaq üçün müxtəlif xəyallara qapılmış, dirilik suyunu tapmaq üçün səfərlərə çıxmışlar. Guya "abi-həyat" - "dirilik çeşməsi"ndən su içənlər cavan qalır, həm aşiq, həm də qəhrəman olurlar.

Buna "Koroğlu" dastanının əvvəlində Qoşabulağın suyundan içəndən sonra Koroğlunun qəhrəman Rövşənin olmasının, "Fatma" nağılında suyun tə'sirilə yetim qızın gözəlləşib, ögey bacının isə çirkinləşdiyini misal göstərmək olar.

Nağıl və dastanlarda olduğu kimi, Nizaminin "İsgəndərnamə"

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı.s.205.

və Səməd Vurğunun "Bulaq əfsanəsi" poemalarında, eləcə də başqa sənətkarların əsərlərində belə rəvayətlərə rast gəlirik. M.Rzaquluzadə də "Dirilik suyu" poemasında bu rəvayətin doğurduğu inamın hələ də yaşadığına işarə edir:

**Bir qoç igid tilsimli**
**Dərələr-dağlar aşdı,**
**Qorxunc əjdahalarla,**
**Nəhənglərlə savaşdı.**
**Qırx gün, qırx gecə sonra**
**Gedib çatdı zülmətə,**
**Döyüşdə üstün gəlib**
**Hər cür qara qüvvətə,**
**Qırx bağlı qapı açdı**
**Qırx dərin quyu keçdi,**
**Axırda qırx birinci**
**Son quyuya yetişdi.**
**Bir sehrli şüşədə**
**Tapıb gətirdi onu,**
**O dirilik suyunu...**[1]

Elin igid oğlu "dirilik suyu"nu birinci dəfə ən müqəddəs sandığı doğma anasına təqdim edir. Ana oğlunun təklifini bəyənmir, çünki həyatda o əbədi yaşamaq istəmir. Oğlan ikinci dəfə suyu içməyi atasına deyəndə o da oğlu ilə razılaşmır, axı ata suyu içərsə, oğlundan çox yaşayar. Qoçaq igid sevgilisinə də öz arzusunu bildirir. Sevgilisi də suyu içmir, əbədi yaşamaq arzusunda olmadığını bildirir. Bunu görən qoçaq oğlan "dirilik suyu" olan şüşəni daşa vurub sındırır. Ona görə ki, suyu kim içərsə, o adam taysız-tuşsuz, dostsuz-tanışsız olacaq, Vətən yaşasa da, Vətən onun üçün qürbət olacaqdır.

Folklor mövzularından bədii vasitə kimi istifadə edən M.Rzaquluzadə xalqdan aldığı əfsanə, rəvayət və nağılları müasirlik prinsipləri ilə işlədiyi üçün həmin əsərlər cazibədarlığı, emosionallığı və başqa səciyyəvi keyfiyyətlərinə görə bu günün oxucularının yüksək tələblərini ödəyə bilir.

Müəllif "Dirilik suyu" poemasında bu xüsusiyyəti gözləmiş,

---

1. Rzaquluzadə M.İlin yazı-elin sazı.s.205-206.



sonda müasir əxlaqi nəticə çıxarmışdır. Müəllif əsərdə bəşəri fikirlər, gözəl ideyalar irəli sürür:

**Sən öz insan ömrünü**
**Yaxşılıqla vur başa,**
**Şərəfli ad-sanınla**
**Sonra min illər yaşa...**
**Saf sərin bulaq ol**
**Ürəyi yananlara.**
**İşıqlı bir çıraq ol,**
**Yol göstər azanlara.**
**Məsəl ol,, dildə yaşa,**
**Mahnı ol teldə yaşa.**
**Mərdliklə, yaxşılıqda**
**Örnək ol, eldə yaşa.**[1]

"El gücü, sel gücü", "Güc birlikdədir", "El bir olsa, zərbi kəran sındırar" və s. kimi atalar sözü və məsəllərdən istifadə nəticəsində maraqlı əsərlər yazan M.Rzaquluzadə əsasən el gücünün basılmazlığı məsələsini ön plana çəkir, poemanın da qiyməti və qayəsi bunda görünür.

Müəllif balaca oxucularını başına yığıb beş-on nar çubuğunu bağlayır və sındırmağı tapşırır. Heç kim nar çubuqlarını birlikdə sındıra bilmir. Qan-tər töksələr də, bir iş hasil olmur. Çubuqları ayırıb tək-tək sındırmaq isə asan olur; müdrik qoca fikrini belə ifadə edir:

**Yaxşı yadda saxlayın**
**Bu sözləri, oğullar,**
**Bu sadə əyləncənin**
**Çox dərin mə'nası;**
**Nə qədər ki, çubuqlar**
**Bağlıydı bir-birinə**
**Güc vurub hər biriniz**
**Onlardan birini də**
**Sındıra bilmədiniz,**
**Amma tək-tək ayırıb**
**Qırdım bir əlimlə mən,**
**Oğullar, ibrət alın**
**Siz də bu əyləncədən.**[2]

---

1. Rzaquluzadə M.İlin yazı-elin sazı. S.208.
2. Yenə orada,s.98.

Xalq yaradıcılığının bəhrəsi nəticəsində yazılan əsərlər bir yandan balacaların fantaziyalarını inkişaf etdirirsə, digər tərəfdən onlara cəmiyyət və təbiət haqqında bilik verir. Bu cəhətdən "Dəcəl çəpiş" nağılı diqqəti cəlb edir. Şair folklor variantında mövcud olan xəyanətlə zorakılığa qarşı birgə mübarizə motivini, hamını ayıq olmaq, edilən məsləhətlərə qulaq asmaq kimi keyfiyyətini götürərək bunları yığcam, aydın və maraqlı süjetdə oxuculara çatdırır. Burada müəllif keçi və onun balaları, habelə canavar surətində elə aydın və sadə əyləncələr yaradır ki, uşaqlar onların hansı adamlara işarə etdiyini asanlıqla başa düşürlər. Xəyanət və zorakılığa qarşı birgə mübarizə, həmçinin ayıq olmaq məsləhətlərə qulaq asmaq "Dəcəl çəpiş" poemasının əsas mündəricəsini təşkil edir:

**Çəpişə gülə-gülə**
**Canavar belə dedi:**
**Hə...hə. Deməli belə,**
**Deməli ac deyilsən.**
**Mənim meşəmin bütün**
**Otlarını yeyib sən**
**Doyubsan...əhsən, əhsən.**
**Sən toxsan, amma qoçaq,**
**Acından ölürəm mən.**
**Di cəld ol, düş aşağı,**
**Mən də doyunca yeyim,**
**Səni doğan anaya**
**Ürəkdən "sağ ol" deyim.**[1]

"Dəcəl çəpiş" poemasında sözləri diqqətlə seçmək, onları yerli-yerində işlətmək əsərə canlılıq və orijinallıq gətirmişdir. Uşaq ədəbiyyatında isə dilin aydınlığı və sadəliyi, lakoniklik və təbiilik, şe'riyyət və bədiilik mühüm məsələdir. Əlbəttə, bu prinsipləri M.Rzaquluzadə bütün əsər boyu gözləmişdir. Qüvvətli təşbehlər, mübaliğələr də poemanın sənətkarlıq cəhətdən dolğunlaşdırmağa kömək etmişdir. Öz təbiiliyi və bədiiliyi ilə diqqəti cəlb edən bu misralar hansı oxucunun ruhunu oxşamaz.

**Nənə həmişəki tək**
**Ana keçini sağdı.**

-----------------------
1. Rzaquluzadə M. İlin yazı-elin sazı.s.219.



**Keçinin məmələri**
**Elə bil ki, bulaqdı**
**Südü sanki qaymaqdır.**
**Nəvə şirin su verdi,**
**Nənə xamır yoğurdu,**
**Nəvə odun gətirdi,**
**Nənə ocağı qurdu,**
**Nazik lavaş bişirdi,**
**Hamı doyunca yedi,**
**Nənəyə "sağ ol" dedi.**[1]

Rəvayətlər, əfsanələr və nağıllar əsasında yazılan poemaları məzmun və ideyalarına görə qruplaşdırsaq, görərik ki, bu əsərlərdə iki cür hökmdar obrazı yaradılmışdır. Birinci qism hökmdarlar işğalçı, insan qanı tökməkdən həzz alan, şəhər və kəndləri xaraba qoyan, ədalətsiz obrazlar kimi təsvir edilir.

İkinci qism obrazları isə öz ölkəsini, xalqını yadlardan, düşmənlərdən qorumaq üçün çalışırlar. Vətənin müqəddəsliyi, xalqın namusunun toxunulmazlığı bu obrazları həmişə düşündürür. M.Rzaquluzadənin "El gücü" hekayəsindəki hökmdar surəti buna misal ola bilər.

Bir qədər irəlidə qeyd etdiyimiz zalım və qəddar hökmdar surətini M.Rzaquluzadə "Beşbarmaq" poemasında daha xarakterik cizgilərlə yaratmışdır. Burada xalq ədəbiyyatının əsas elementləri və priyomları gözlənilmişdir. Əfsanə əsasında yazılmış poema çox maraqla oxunur.

Yoxsul Elxan zalım hökmdarın qızı Gülbaharı saf məhəbbətlə sevir, bu hadisə xanı nəinki sevindirir, əksinə, sarsıdır. Axı, var-dövlət sahibi, şan-şöhrət düşkünü olan xan, qızını yoxsul bir oğlana verərmi? Elxanın təmiz məhəbbətinin, saf eşqinin arxasında nələr durduğunu o dərk edə bilərmi?

Əsla yox.

Azərbaycan xalq nağıllarında zülmə, haqsızlığa qarşı çıxan qəhrəmanlar həmişə öz mübarizələrində qalib gəlir, böyük çətinliklər bahasına olsa da, məqsədlərinə nail olurlar. Poemada da Elxan çox çətinliklə sevgilisi Gülbaharı yadlara sovqat aparmağa qoymur, düşməni məhv etdikdən sonra hər iki sevgili at-

------------------
1. Rzaquluzadə M. İlin yazı-elin sazı.

larına minib getmək və azad yaşamaq istəyirlər. Lakin düşmən imkan vermir, məcbur olan aşiqlər Beşbarmaq dağından özlərini dənizə atırlar.

Burada bir məsələni də qeyd etmək yerinə düşər ki, nağıllarda fövqəl'adə qüvvəyə malik olan yenilməz qəhrəmanlar ədalətli mübarizə apardıqları zaman belə, insan qırğınına razı olmur, yalnız düşmən əl çəkmədikdə döyüşə girir, lakin qoşunu deyil, əsas müharibə tərəfdarı olan sərkərdə və şöhrətpərəst pəhləvanları öldürməklə düşməni məğlubiyyətə uğradırlar. Xalq isə müharibənin kəsilməsi xəbərini eşitdikdə şadlıq edib sevinirlər. "Beşbarmaq" poemasında da Elxan zalım sərdarı öldürəndən sonra bütün el-oba şadyanalıq edir, elin igid oğlunu alqışlayır.

**Şad oldu bu xəbərdən**
**Qarabağ, Şəki, Şirvan,**
**Başı bəlalı ellər.**[1]

Azərbaycan xalq nağıllarındakı qadın surətləri də çox maraqlıdır. Ümumiyyətlə, patriarxal zehniyyətin əksinə olaraq şifahi ədəbiyyatda, o cümlədən də, nağıllarda qadınlar, əsasən ağıllı, tədbirli, alicənab və mübariz obraz kimi təsvir olunurlar. Folklorda rast gəldiyimiz qəhrəman qadınlara xas olan xarakterik xüsusiyyəti "Beşbarmaq" poemasında Gülbaharın simasında görürük. O da nağıl qəhrəmanları kimi hərəkət edir, sevgilisi Elxana deyir:

**Sür, Elxan, dəniz-ana**
**Bizi qoynunda saxlar...**
**Azad ölmək yaxşıdır**
**Qul kimi yaşamaqdan.**
**Sür, dənizin qoynuna,**
**Sür, dayanma, sür, Elxan.**[2]

"Beşbarmaq" poemasının dili səlis, üslubu aydın və tə'sirlidir. Folklordan istifadə etmək heç də nağıl səviyyəsində qalmaq, onu yamsılamaq deyildir. Xalqın açdığı cığırlara baxıb yeni yollar açmağa sə'y göstərmək, şifahi xalq ədəbiyyatının özünü də zənginləşdirmək, onu uşaqlara yaxınlaşdırmaq deməkdir.

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı.s.203.
2. Rzaquluzadə M. İlin yazı-elin sazı.



Folklor mövzularında yazılan əsərlərin böyük əksəriyyəti uşaqların əqli inkişafına kömək edir,onlara bilik və həyat təcrübəsi verir, nəcib hisslər aşılayır. Bunlar ictimai münasibətləri dərk etməkdə, keçmişi tanımaqda, habelə bu günkü həyatımızı ləyaqətlə qiymətləndirməkdə, bədii təfəkkürün, xəyal və fantaziyanın inkişafında uşaqlara kömək edir. Hələ lazımi hadisələrə münasibəti aydınlaşdırır, onlara həyat həqiqətlərini öyrədir.

Lovğalıq, özünü öymək kimi mənfi keyfiyyətlər həmişə şifahi xalq ədəbiyyatında hiddətlə ifşa olunmuşdur. NaHaq yerə xalq deməyib ki, ağac bar verəndə başını əydiyi kimi, adam da kamala çatdıqca, məşhurlaşdıqca təvazökar olmalıdır... "Ağır oturub, batman gəlməlidir"., heç bir zaman döşünə döyüb "mənəm-mənəm deməməlidir. Paxıllıq, ustadına kəm baxma kimi mənfi əlamətin tənqidinə də şifahi xalq ədəbiyatında geniş yer verilmişdir. Bunlarda əlavə, şagird obrazı nə ədər ağıllı verilirsə, bə'zən paxıl və lovğa da təsvir edilir. Ustad isə xeyirxah, sağalmaz dərdlərin çarəsini tapan, çoxları üçün pünhan qalan sirləri açan bir şəxsiyyət kimi verilir.

Bu nöqteyi-nəzərdən M.Rzaquluzadənin Nizamidən iqtibas etdiyi "Sirli saz"" poeması maraqlıdır. Yuxarıda qeyd edib şərtləndirdiyimiz keyfiyyətləri paxıl şagird Ərəstunun, xeyirxah, nəcib arzularla yaşayan ustad Əflatunun simasında görürük.

**Lovğalıq hər bir zaman**
**Hər yerdə pisdir-ancaq**
**Daha pisdir ustadın**
**Önündə lovğalanmaq...**
**Bir də sünbül dik durar,-**
**İçi boş olsa əgər;**
**Ağacsa, bar verəndə,**
**Başını yana əyər.**[1]

Ərəstun alimlər içərisində özünü birinci hesab edir, lovğalanıb deyir ki, bütün elmlərin açarı mənim əlimdədir. Hamı məndən öyrənir. Doğrudur, alimlər məclisində İsgəndərə xoş gəlmək üçün Ərəstunun sözünə tərəfdar çıxan da olur. Lakin, qoca müdrik Əflatun məclisdəki alimlərin hamısına dərs

---

1. Rzaquluzadə M.Sirli saz.s.151.

demiş, hər elmin sirrini alimlərə öyrətmişdir. Əflatun sirli sazla bütün insanları, çöldəki heyvanları yatıranda, Ərəstun buna heyran qalır, tutduğu işdən peşiman olur, ustadı Əflatunun qarşısında diz çökür. Şair poemanı belə bir sonluqla tamamlayır:

**Heç bir zaman lovğalanma**
**Daim axtar, tap, öyrən.**
**Heç kəsə arxalanma,**
**Daim axtar, tap,öyrən.**[1]

Şair elə bil bu sözlərlə nəticə çıxarmağı oxucuların ixtiyarına verir, düşünüb daşınmağı özlərinə tapşırır.

Azərbaycan şifahi xalq ədəbiyyatında həmişə əməkçi kütlə yaxşı məsləhət və nəsihəti, ağıllı tədbiri və həqiqi ustadı yüksək qiymətləndirmişdir. Xalqa görə, "yaxşı məsləhət hər şeydən üstündür" nəsihət bə'zən adamın xoşuna gəlməyə də bilər, lakin son nəticədə adam ağıllı nəsihətdən həmişə xeyir götürür. Odur ki, atalar "Nəsihət acıdır, meyvəsi şirin", - deyiblər.

Tərbiyəçiyə, ustada xalq tərəfindən verilən yüksək qiymət və bəslənilən hörmət, təkrar olsa da, deyək ki, aşağıdakı atalar sözündə belə ifadə olunmuşdur: "Ustadına kəm baxanın gözlərinə ağ düşər" və yaxud "Ustadına kəc baxanın gözlərinə qan damar". Bu atalar sözündən çıxan nəticəyə öyrənən-öyrədənə, tərbiyə olunan-tərbiyə verənə, şagird-müəllimə, ustada qarşı münasibətində e'tinasız və laqeyd olmamalı, müəlliminin əməyini itirməyərək, onun qədr və qiymətini bilməli və adını ehtiramla yad etməlidir.

"Sirli saz" poemasında da bütün alimlər və xalq ustad Əflatuna hörmət bəsləyir, ehtiram göstərirlər. Təkcə Ərəstundan başqa. Nəhayət, o da mülliminə etdiyi hörmətsizliyini və qəbahətini başa düşür, ustadından üzr istəyir. M.Rzaquluzadənin "Evrika - Tapdım", "Torağay", "Gözəllik", "Dozanqurdu", "Aslan ürəyi", "Rəssam və hökmdar", "Nadan-alim" və başqa əsərləri də xalq ədəbiyyatından bəhrələnməyin nəticəsində yazılmışdır. Əlbəttə, folklordan istifadə şairin yaradıcılığında ötəri bir hal olmamışdır. Bu hal onun əsərlərinin ətinə, qanına hopmuşdur.

"Azərbaycan nağıllarında başlanğıc bir neçə formada söylə-

---

1. Rzaquluzadə M.İlin yazı-elin sazı, s.161.



nilir. Bunlardan "Biri var idi, biri yox idi", "günlərin bir günündə, bir tacir dəvə karvanı ilə ticarətə gedirdi", "Biri var idi, biri yox idi, onun peşəsi koldan kosdan çırpı qırıb satmaq idi"[1]. Bu qaydaya biz M.Rzaquluzadənin bir sıra əsərlərinin başlanğıcında rast gəlirik. Məsələn,"Biri vardı, biri yoxdu, dünyada həşərat çoxdu" ("Dozanqurdu"), "Deyirlər qocaman, müdrik bir alim soruşdu çalışqan bir şagirdindən" ("Düşüncə"), "Biri vardı, biri yox, dünyada ölkələri çox, ellər də dillər də çox" ("Nağıl"), "Biri vardı, biri yoxdu, meşələrdə-çəmənlərdə, sərin şirin bulaq çoxdu" ("Şirin bulaq") ".

Deyilənlərdə mə'lum oldu ki, M.Rzaquluzadənin bə'zi əsərləri xalq nağılları kimi başlanır və nağıl kimi də qurtarır. Hətta nağıllarda eşitdiyimiz:

**Az gedib, üz getdilər,**
**İz tutub düz getdilər,**
**Təpələrdən yel kimi,**
**Dərələrdən sel kimi,**
**Getdilər, hey getdilər.**[2]

Yaxud:

**Az getdilər, üz getdilər,**
**Dərə-təpə düz getdilər,**
**Dərələrdən sel kimi,**
**Təpələrdən yellər kimi,**
**Hay-harayla hey getdilər.**[3]

Eşitdiyimiz bu cür elementlər əsərləri oxunaqlı edir, dilini şirinləşdirir, bədii dəyərini artırır.

M.Rzaquluzadə yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri də onun atalar söz və məsəllərə müraciəti, ondan sənətkarlıqla istifadə etməsidir. Y.V.Çəmənzəminlinin dediyi kimi "atalar sözləri- millətin uzun təcrübəsinin məhsulu, qüvveyi-fikriyyəsinin mün'əkəsi, babaların övladlara nəsihətidir".[4]

---

1. Seyidov N. Azərbaycan nağıllarının bədii xüsusiyyətlərinə dair bə'zi qeydlər.
2. Rzaquluzadə M. Dəcəl çəpiş, s.222.
3. Rzaquluzadə M. Şirin bulaq, s.224.
4. Vəzirov Y. Azərbaycan ədəbiyyatına bir nəzər, s.12.

Atalar sözü xalqımızın əbədi solmayan sənət abidəsi, tükənməz həyat çeşməsidir. Burada xalqın sevinci, kədəri, arzu və diləyi, sevgiyə, Vətənə sonsuz məhəbbəti və bunlarla yanaşı, başqa məsələlərin qoyuluşu da öz həllini tapıb. Ümumiyyətlə, atalar sözləri məzmunca çox geniş əhatəyə malik olan xalq təfəkkürünün məhsuludur. M.Rzaquluzadə yeri gəldikcə əsərlərində bu üsuldan bədii vasitə kimi istifadə edir. Aşağıdakı nümunələrə diqqət edək:

**Babalardan yadigar**
**Bir belə məsəl də var:**
**"Dünyada ən güclü şey**
**Sel gücü, el gücüdür".[1]**

Yaxud:

**Belə deyib babalar,-**
**Dünyada üç cür dost var:**
**Birincisi,**
**Dil dostu, dilçək dostu**
**İkincisi, diş dostu, çörək dostu**
**Üçüncüsü,**
**Can dostu, ürək dostu.[2]**

Nümunələrin sayını istənilən miqdarda artırmaq da olar. Lakin, bu deyilənlərdə bir qənaət doğrudur ki, M.Rzaquluzadə uşaqların xarakterini, yaş xasiyyətlərini nəzərə alıb xalq ədəbiyyatının tə'siri altında yazdığı əsərlərindən folklor janrlarının verdiyi imkanlardan istifadə edir; şübhəsiz ki, bu faydalıdır. Ancaq bu zaman müasirliyə artıq sadiq qalmaq zərurəti meydana çıxır ki, M.Rzaquluzadə bununla əlaqədar prisiplərə əməl edir.

M.Rzaquluzadənin bəhrələndiyi qaynaqlardan biri "Kitabi Dədə Qorqud" dastanıdır. Xatırladaq ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq yaradıcılığında az öyrənilmiş abidələrimizdən olmuşdur. Qorqudşünas H.Araslı 1939-cu ildə dastanı latın əlifbası ilə çap etdirdikdən sonra "Dədə Qorqud" eposuna get-gedə maraq artır, dastan həmardıcıl olaraq tənqid olunur, həm də onun motivləri əsasında müxtəlif janrlarda bədii əsərlər

---

1. Rzaquluzadə M. İlin yazı-elin sazı, s.163.
2. Yenə orada,s.168.



yaranır. Bu istiqamətdə ilk addım atan müəlliflərdən biri M.Rzaquluzadə idi. O, hələ 30-cu illərdə dastanın tarixi ilə maraqlanmış, 1940-cı ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı ongünlüyündə "Azərbaycan şe'ri" mövzusunda etdiyi mə'ruzəsində şe'rimizin ilk nümunələri kimi "Dədə Qorqud" dastanındakı şe'r parçalarına münasibətini bildirmişdir. Sonralar isə dastandakı boyları yeniyetmələrə daha yaxşı təlqin etmək üçün bə'zi boyların motivləri əsasında hekayələr yazmışdır: "Dirsə xan oğlu Buğac" boyunun motivləri əsasında "Ana ürəyi, dağ çiçəyi", "Qazan xanın evinin yağmalanması"boyu zəminində "El gücü" və "Bamsı Beyrək..." boyundan istifadə edərək "Dəli ozan" hekayəsini yazmışdır.

M.Rzaquluzadə dastandakı boyları sadəcə olaraq müasirləşdirilməmiş, bu hekayələr zəminindən dövrümüzün tələbləri ilə səsləşən, gənclərdə vətənpərvərlik və qəhrəmanlıq ruhu aşılayan hekayələr yazmışdır. Ədib "Ana ürəyi, dağ çiçəyi" hekayəsində "Dirsəxan oğlu Buğac" boyundakı məzmunu əsasən saxlamaqla, hadisənin ümumi ruhuna zəngin milli kolorit, Azərbaycan təbiətinə məxsus təbiət təsviri, qəhrəmanların daxili psixologiyasını ifadə edən gərgin hadisələr, yeni rənglər, yeni boyalar gətirmişdir. Hekayədə ananın həyəcanları, Dirsə xan öz oğlunu vurduqdan sonra keçirdiyi iztirablar, quldurların vəhşi hərəkətləri, Buğacın sağ olduğunu eşidən zaman daha da quduzlaşmaları, Buğacın onlardan intiqam alması, bir-birini əvəz edən həyəcanlı-sarsıntılı motivlərdir. Oxucu Buğacın həm igidliyini, həm də atasının bağışlamasını və quldurlardan intiqam almasını oxuduqca qürur hissi keçirir.

"Qazan xanın evinin yağmalanması" boyunun motivləri əsasında M.Rzaquluzadə "El gücü" hekayəsini işləmişdir. Hekayənin əvvəli orijinala yaxın olsa da Qazan xan ailəsini yağılardan xilas etməyə getdikdə də ədib hadisəyə yeni istiqamət vermişdir. Dastanda Qazan xan Qaraca çobanı ağaca sarıyıb tək getdiyi halda, hekayədə bəylərlə birlikdə getməli olur, elin gücü ilə hesablaşmır. Döyüş vaxtı məğlub olan anda özü də, qadını Burla Xatun da, oğlu Uruz da Qaraca çobanın dəstəsi tərəfindən xilas edilir. Qaraca çobanı və elin gücünü "Çoban-çoluq savaşı" adlandırıb elə arxalanmayan Qazan xan ən sonda səhvini anlayıb "Var ol, oğul çoban" – deyib onu bağrına basır.

Əlbəttə, dastanda da Qaraca çobanın gücü və qeyrəti, düşməni məğlub etməsi, bircə qoyun da düşmənə verməməsi, ağacı kökündən qoparıb arxasında Qazanın köməyinə getməsi təsvir olunur. M.Rzaquluzadə bu motivə el gücünü də əlavə edib qələbəni xalqa arxalanmaqda görür. El gücü ilə hesablaşmamağı, qaraca çobanlara yuxarıdan aşağı baxmağı inandırıcı dəlillərlə təsvir edir. M.Rzaquluzadənin bəhrələndiyi üçüncü hekayə "Bamsı Beyrək..." boyudur. Ədib bu hekayəni yeni istiqamətdə işləmiş, daha əfsanəvi motivlər əlavə eləmişdir. Hekayənin əvvəlindəki hadisələr dastandakı hadisələrə çox yaxındır. Ədib hekayənin ana xəttini saxlamışdır. Ancaq Şöklü Məliklə bağlı hadisələr müəllifin fantaziyasının məhsuludur. Şöklü Məlik müxtəlif vilayətlərdə quldurbaşılıq edib, sonra da Bayandur xanın hüzuruna gəlib sərhəd yaxınlığında kilsəyə bənzəyən qəsr tikib dini pərdə altında cildini dəyişərək adamları oğurlatdırır, xəzinələri talatdırır, adamları qul bazarında satdırır, yeraltı zirzəmilərdə onlara dəhşətli işgəncələr verdirir, ayağından asdırır, zəncirlə daşa sarıtdırır, lil-palçıq içərisində saxlatdırır və s. Toy ərəfəsində yoldaşları ilə birlikdə oğurlanan Beyrəyin də başına bu qəza gəlir, onu gəmiçiyə satıb, gəmidə kürəkçi kimi ayaqları zəncirli kürək çəkdirirlər. Beş il əzab-əziyyət, işgəncə çəkən Beyrək əlinə keçən yeyə ilə zənciri kəsib xilas olur. Hadisə yenə də dastanda olduğu kimi cərəyan edir, Beyrək oğuza dönüb toy ərəfəsində Banıçiçəyə qovuşur, Şöklü Məliyin qəsrinə hücum edib insanları fəlakətdən xilas edir... Bütün bu macəralı hadisələr müəllifin xalq rəvayətlərindən bəhrələndiyindən xəbər verir.

Ümumiyyətlə, M.Rzaquluzadə Dədə Qorqud boylarından bəhrələnməklə yanaşı hekayələrini yeni-yeni hadisələrlə zənginləşdirmişdir. Digər tərəfdən bədii təfərrüatlar, təbiət təsvirləri, qəhrəmanların xarakterləri, qədim və orta əsr geyimləri, çeşid-çeşid silahlar, ov səhnələri, bütün bunlarla yanaşı vətən qeyrəti, el-oba həsrəti kimi keyfiyyətlər hekayələrin zəngin məzmunundan xəbər verir. Müasir dilimizdə səslənən bu hekayələrlə yeniyetmələr həm Dədə Qorqud dastanlarının məzmunu ilə tanış olur, həm də yurdumuzun və xalqımızın qədim adət-ən'ənələrini, məişətini, milli xüsusiyyətlərini öyrənirlər.

M.Rzaquluzadə "Padşah və alim" hekayəsinin motivini dahi



şairimiz Nizaminin yaradıcılığından götürmüşdür. Tarixdə fateh adı ilə məşhur olan İsgəndər ölkənin tənəzzülə uğradığını alim Sokratın yanına çağırmasını eşik ağasına tapşırır. Alim bu də'vəti rədd edir, çünki saray adamlarının ikiüzlülüyündən, qeyri-səmimi münasibətlərindən xəbərdar idi. İsgəndər məcbur olub alimin hüzuruna gedir. Alim İsgəndərə e'tina etmir. İsgəndər alimin bu e'tinasızlığından pərt olsa da, üzə vurmur, çünki o, özünü elm adamı kimi tanıtmışdır. Alim İsgəndərə öz ürək sözlərini belə deyir: "Hökmdar xalqın xidmətçisidir, o, xalqın qayğısına qalmalıdır. Padşah acgöz və zalım olmalıdır".

Xalq bədii təfəkkürünə, xalq didaktik tə'liminə dərindən bələd olan, bədii ümumiləşmələrində xalqdan mayalanan ədib xalqdan aldığı mövzunu yeni təfəkkür süzgəcindən keçirib, yeni mündəricəli əsərlər yazıb yeniyetmələrə təqdim etmişdir. Belə əsərlərdən biri "Naxışlar" dramatik poemasıdır. Mə'lumdur ki, Şərqdə şahlıq sülaləsilə bağlı müxtəlif məzmunlu nağıllar arayıb yayılmışdır. Şübhəsiz bu qəbil hekayələrdə şah bə'zən müstəbid, hiyləgər, qan içən, bə'zən də ağılsız, yüngülxasiyyət, eyş-işrət düşgünü kimi səciyyələndirilir. Bu qəbildən Şah Abbasa həsr olunmuş hekayələr maraq doğurur. Xalq nağıllarında Şah Abbasa da münasibət eyni olmamışdır.[1] O, hətta bir çox nağıllarda müsbət, ağıllı şah kimi təqdim olunur, yaxud da əksinə. Bə'zən də ağıllı bir qadın ona ibrət dərsi öyrədir. "Baftaçı Şah Abbas" belə nağıllardandır. Bu nağıllarda əsas ideya-hansı vəzifə sahibi olursansa ol, insana ilk növbədə sənət lazımdır. Şah Abbasın da sevib istədiyi naxırçı qızı Banı ondan bir sənət öyrənsə ərə getməyə razılıq verir. Şah məcbur olub baftaçılıq sənətini öyrənir. Və dar ayaqda bu sənət vasitəsilə ölümdən xilas olur.

M.Rzaquluzadə "Naxışlar" dramatik poemasında həmin bu motivi alaraq yeni əlavələr edib ibrətamiz bir poema yaratmışdır.

Poemada şahzadə xalçalara, incə naxışlar vuran gözəl Gülyaza vurulmuşdur. Gülyaz nağılda olduğu kimi Şahzadədən sənət öyrənməyi tələb edir. Ülvi bir məhəbbətlə Gülyazı sevən Şahzadə Gülyazın xalça toxumaq sənətini öyrənir. Bu işə əvvəlcədən hiddətlənən şah oğlunun ağıllı sözləri qarşısında tezliklə yumşalıb razı olur. Hətta Gülyazın vurluğu naxışlara baxıb heyran olur. Gülyaz Şahın verdiyi ən'amı rədd edib deyir:

---

1. Azərbaycan nağılları. 5 cilddə. II c., s.361.

Yoxsul qız olsam da, mən ac deyiləm,
Qızıla-gümüşə möhtac deyiləm!
Şahdan da artıqdır mənim sərvətim!
Bitməz xəzinədir halal zəhmətim!
Dövlətdən ucadır gözümdə sənət.
İnsanın şərəfi sənətdir, cənət![1]

Poemada quldurlar tərəfindən işgəncə verilən Şahzadəni toxuduğu naxışlar vasitəsilə Gülyaz xilas edir və Şaha sənətin var-dövlətdən də uca olduğunu sübut edir.

Xalq nağılında da, şairin poemasında da ibrətamiz bir ideya-insanın həyat və yaşayışı üçün əsas amil-sənət, yalnız sənət təbliğ olunur.

Zaman və məkan baxımından hansı şəriatdə yaşayırsansa yaşa, səni yalnız sənət yaşadacaq. Ona görə də xalqda da, poemada da sənət şahlıq səltənətinə qarşı qoyulur. Cəmiyyətdə də ali vəzifə hakimiyyət sahibidir. Nağıllarda deyildiyi kimi Şahlıq səltənətidir. O da sənəti əvəz edə bilmir, çünki şah səltənətindən düşə bilər, amma sənət həmişə səninlədir.

Poemada müəllif şahlıq səltənətinin daxili puçluğunu ifşa etmək təlxək surətlərindən istifadə etmişdir. Lakin bu səhnə əsərə o qədər də yapışmır, belə ki, poemada əvvəldən sona qədər şahlıq şöhrəti ilə sənət qarşı-qarşıya qoyulur. Təlxəklərin bir-birinə olan sual-cavabı əsərin ümumi ahənginə uyuşmur.

Ümumilikdə "Naxışlar" poeması didaktik baxımdan diqqəti cəlb edən ibrətamiz bir əsərdir.

Dörd hissədən ibarət "Ovçu Elişlə Aytəkin nağılları"[1] ilin dörd fəslinə həsr olunmuşdur. Poemanın ümumi ruhu xalq nağıllarının məzmununu xatırladır. Xalq nağıllarında olduğu kimi burada da hadisələr xeyirxah qüvvələrlə tiplər arasında baş verir. Əlbəttə, müəllif ilin fəsillərindən bədii vasitə kimi istifadə etmişdir. Digər tərəfdən xalq bədii təfəkkürünə dərindən bələd olan M.Rzaquluzadə el arasında dolaşan təmsillərdən də bəhrələnmiş, hər bir canlının təbiətinə məxsus xarakter cizgilərini açmağa çalışmışdır. Personajlar heyvanlar və quşlar aləmindən götürülsə də onlarla yaxın təmasda olan, daim ayaqda onları himayə edən əsas qüvvə insandır. İnsanlar hər heyvanın və ya quşun davranışına

------------------------

1. Rzaquluzadə M.Yaz günəşi,s.157.



uyğun onlarla rəftar edir. Deməli, təbiət-heyvanlar-insanlar! Şair təbiəti hadisələrə uyğun olaraq müxtəlif məqamlarla təsvir edir. İlin ilk fəsli kimi baharın hüsnü təsvir olunur. Bu fəsildə təbii olaraq bütün canlılar əməyə qoşulur, zəhmət çəkir, azuqə üçün hazırlıq görür. Arılar da təbiətin ən əməksevər məxluqlarıdır. Lakin bu əməyə göz dikən müftəxorlar da var. Qanmaz ayı arıların azuqəsinə göz dikir. İl boyu qış yuxusuna gedib, ayılanda yem axtaran ayı bu zərif məxluqların halal zəhmətini əlindən almaq istəyir. Müqayisədə arılarla ayı bir-birindən nə qədər fərqlənsələr də,öz halal zəhmətlərilə qazandıqları ne'məti talan edənlərə qarşı cəsarətlə vuruşur və insanın köməyilə qalib gəlirlər. Axı, insan da həmişə zəiflərin mövqeyində durur. Ayılar vəhşiləri təmsil edirlər, həm də müftəxordurlar. Arılar isə həm çox kiçik, həm zərif, həm də təbiətin ən zəhmətkeş məxluqlarıdır. Onlar da yaşamaq və yaşatmaq istəyirlər. Onların bu haqqını kimsə müdafiə etməlidir. Nağılda deyildiyi kimi bu müvazinəti tənzimləyən şübhəsiz insandır.

Əlbəttə, xalq ədəbiyyatında - nağıl və təmsillərdə, əfsanələrdə zəiflərlə güclülərin, zəiflərlə kobudların arasında mübarizə olmuş, bu mübarizədə həmişə ədalət tərəfində dayanan zəiflər qalib gəlmişlər. burada şübhəsiz insan idealı, insanın bəşəri arzuları, cəmiyyətdə zifləri müdafiə meyli aparıcı ideal olmuşdur. Məhz buna görədir ki, Ovçu Elişlə qoçaq Aytəkin təbiətdəki zərif və zəif məxluqların yaşamaq hüququnun müdafiəsinə qalxırlar.

Xalq ədəbiyyatında "Şəngül", Şüngül, Məngül... nağılı geniş yayılmışdır. Hətta, bu mövzu yazılı ədəbiyyatda da özünə yer tapmış M.Müşfiq, Ə.Abbasov bu mövzuda əsərlər yazmışlar. M.Rzaquluzadənin "Tayqulaq dovşanla acgöz Canavar" mənzum nağılı da, həmin motivi xatırladır. Burada isə Tayqulaq dovşan balalarının təkidilə bostana-balalarına yem gətirməyə gedir, qayıdanda bəlli olur ki, dovşanın balalarını acgöz canavar udmuşdur. Tayqulaq dovşan ovçu Elişlə qoçaq Aytəkə şikayət edir. Ovçular acgöz canavarı tapıb öldürürlər və qarnından tayqulaq dovşanın balalarını çıxarırlar.

Göründüyü kimi burada da ədalət naminə insanın əliylə haqq-ədalət öz yerini tapır, haqq-ədalət insan əliylə həyata keçirilir. Deməli, təbiətdə ədaləti qorumaq-təbiətin şah əsərdən

olan insanın öhdəsinə düşür. Təbiətdə insan başlıca amildir. Lakin insan həmişə xilaskar rolunda çıxış eləmir, təbiətdə heyvanlar aləmində-güclülərlə gücsüz arasında daimi mübarizə və münaqişə getdiyi kimi, insanların da öz aralarında güclüsü, gücsüzü var, xeyirxahı, bədxahı var. "Boz bülbülün nağılı""da bülbülü qırıb kabab çəkən də insandır, yaralı bülbülü tapıb sağaldan da insandır. Bütün canlılar arasında gücsüzlər mübarizəsi olub. Bu təbii bir prosesdir. Həmişə bu ədavəti qızışdıranlar da, ona rəvac verənlər də olub, onu söndürənlər də. Deməli, təbiətdə baş verən bu proses cəmiyyətdə də baş verir. Təbiətə qəsd edən, hətta lazım gələndə öz həmcinsini də əzən, məhv edən insan zərif və zəif bülbüllərin ətindən kabab çəkdirmək üçün gecə əli fanarlı bağa girib bülbülülləri qırır, boz bülbül yaralanıb kol dibinə düşür, bir qızcığaz onu tapıb sağaldır və təbiətin qoynuna buraxır. Deməli, cinayətkar da insandır, xilaskar da insandır. Lazım gələndə hətta tora düşən xeyirxah insanları heyvanlar xilas edir. El arasında misal var; Yaxşılığa yaxşılıq hər kəsin borcudur. Həmişə meşədə zəiflərin köməyinə çatan Eliş bu dəfə çöldə-borana düşür, canavarlar ona hücum edirlər. Vaxtilə yaxşılıq etdiyi heyvanlar indi Elişin köməyinə gəlirlər. Onu canavarların əlindən alıb xilas edirlər. Deməli, fərqi yoxdur, istər təbiətdə, istərsə də cəmiyyətdə xeyir və şər qüvvələr, güclülər və gücsüzlər mövcuddur. Onlar həmişə münasibətdə olur, mübarizələr və münaqişələr şəraitində yaşayırlar.

M.Rzaquluzadə nağılda yalnız əhvalatı nəzmə çəkməmiş, həm də bülbülün dililə Azərbaycan təbiətinin gözəlliklərini tərənnüm etmişdir. Bülbül deyir:

**Bilirsənmi, gün doğmadan**
**Səhər-səhər meh əsəndə,**
**Gül-çiçəklər necə gözəl**
**Ətir saçır çöl-çəməndə.**
**Bilirsənmi, dan qızarıb**
**Səhər-səhər şeh düşəndə,**
**Otlar necə almaz kimi**
**Parıldaşır dağ döşündə.**
**Bilirsənmi, aylı gecə**
**Yel əsdikcə narın-narın.**



**Necə gözəl görkəmi var**
**Göydə üzən buludların!..**
**Bilirsənmi şimşək çaxıb**
**Gurlayanda ildırımlar,**
**Bir qayanın daldasından**
**Seyr etməyin nə dadı var!..**

M.Rzaquluzadə "İlin yazı, elin sazı" kitabına daxil etdiyi "Rəvayətlər" mənzumələrinin də mayasında bədii təfəkkürdən olan hikmətli ibrətamiz məsəllər dayanır; "Torağay", "Gözəllik", "Dozanqurdu", "Aslan ürəyi", "Tə'rifnamə", "Rəssam və hökmdar", "Uzun və böyük", "Yuxu dərmanı", "Adam-alim", "Qoruqçu", "Ulaq və at", "Körpələr", "Qurbağacıq", "Düşüncə", "Dostluq", "Dirilik suyu" və b. müxtəlif zamanların ibrətamiz əhvalatlarını mövzusuna çevirmiş, onlara həyat həqiqətlərini aşılamışdır, quşların müsabiqəsində zərif səsli Torağay ("Torağay") müsabiqədən keçmir. Çünki münsiflər hey'ətinin üzvləri qarğa, sağsağan və dolaşadır. Münsiflər hey'ətinin üzvü sağsağanın "məsləhət deyil" sözünə torağay belə cavab verir:

**Mən nə böyüklərə qoşuram nəğməmi,**
**Nə də onlara-ayaqaltı kötüklərə...**
**Mənə lazım deyil nə qiyməti,**
**Nə töhməti heç kəsin.**
**Qoy məni qızaran üfüqlər,**
**Al şəfəqlər:açılan səhər**
**Dinləsin!..**

Şairin "Tə'rifnamə" rəvayəti də çox ibrətamizdir; müharibələrdə böyük qələbələr qazanmış qocaman sərkərdə insan qırğınlarını yadına salıb peşimançılıq hissləri keçirir. Bu vaxt ona "Zəfərnamə" dastanı yazan şair qəbuluna gəlib dastandan bir hissə oxuyur:

**Sən ey ulu qəhrəman, sən ey dahi sərkərdə,**
**Mislin, bərabərin yox bütün qərinələrdə.**
**Bu şanlı zəfərinlə dünyanı azad etdin!**
**Təkcə bu dünyanı yox, kainatı şad etdin!**
**Üzün kimi parladı qılıncının şö'ləsi**

**Anaların, qızların, gəlinlərin şən səsi**
**Min alqış deyir, sənə alqış!..**

Sərkərdə şairin bu yaltaqlığa dözə bilməyib "zəfərnamə"ni parça-parça edir və şairə də deyir ki, bir də belə şey yazsan şe'rini də, özünü də bu qayadan ataram.

M.Rzaquluzadə burada mədhiyyələr yazan şairləri sərkərdənin dili ilə ifşa edir.

Nəticə olaraq deyə bilərik ki, folklor materiallarından istifadə edərək müasir ruhda əsərlər yazmaq sahəsində başqa sənətkarlarımız kimi M.Rzaquluzadə də geniş ölçüdə fəaliyyət göstərmişdir. Çünki folklorun tə'siri ilə yaranan əsərlər ictimai əxlaqi tərbiyə silahına çevrilib. Bundan əlavə, oxuculara ata-babalarının mübarizə tarixindən maraqlı səhnələr təsvir edir, uşaq və gənclərə nəcib hisslər aşılayır.

Ümumiyyətlə, M.Rzaquluzadənin yaradıcılıq simasını səciyyələndirərkən bir xülasə kimi deyə bilərik ki, onun istər uşaqlar, istərsə də yaşlılar üçün yazdığı bütün əsərlərdə biz təkcə bir pedaqoqun qəlb çırpıntılarını görüb hərarətli səmimiyyətini duyuruq.



## NƏTİCƏ

60 illik ədəbi fəaliyyəti (1918-80-cı illər) dövründə Mikayıl Rzaquluzadə XX əsr Azərbaycan ədəbiyyatı xəzinəsinə zəngin bir töhvə vermişdir. Onun yeniyetmələrə və gənclərə məxsus şe'r, poema , mənzum nağıl, hekayə, rəvayət, publisist, ədəbi-tənqidi məqalələr, xalq yaradıcılığı motivləri əsasında yazdığı əsərlər nəhayət, dünya ədəbiyyatından etdii tərcümələr ədəbiyyat fondumuzun zəngin sərvətidir.

1920-ci illərin ortalarından ədəbiyyata gələn M.Rzaquluzadə yaradıcılığa şe'r, kiçik həcmli məqalələrlə başlamış, sonrakı illərdə fəaliyyət meydanını genişləndirmiş, bədii yaradıcılığı davam etdirməklə bərabər ədəbiyyatın müxtəlif problemlərinə - Azərbaycan şe'rində vəzn, Azərbaycan şe'rinin keçdiyi tarixi inkişaf yolu, milli uşaq ədəbiyyatının mövzu və keyfiyyət məsələsi, Azərbaycan tarixinin ən mürəkkəb dövründə 1917-20-ci illərdə tariximizə işıq salan zəngin mündəricəyə malik qaynaqlardan saıla bilər.

M.Rzaquluzadə lirik, epik şe'rlərində də, poema və mənzum nağıllarında da klassik irsimizdən gələn bir ən'ənəyə söykənərək yeni nəslin tə'lim-tərbiyəsinə, bədii estetik səviyyəsini kamilləşməsinə xidmət edən didaktik-nəsihətamiz əsərlər yazmağa daha çox diqqət yetirmişdir. Bu da onu ədəbiyyatımızda S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, S.S.Axundov ən'ənələrinin fəal davamçısı kimi tanıtdırmışdır.

Çağdaş ədəbiyyatımızın inkişafı üçün S.Vurğun, S.Rüstəm, R.Rza, M.Hüseyn, M.İbrahimov, S.Rəhimov, Ə.Məmmədxanlı, Əbülhəsən yeni ədəbiyyatın yaranmasında ardıcıl və fəal iştirak edən M.Rzaquluzadə öznəməxsus zəngin bir irs yaratmışdır. Onun şe'r və poemalarından, mənzum və mənsur nağıl və rəvayətlərinin, tariximizin müxtəlif dövrləri ilə səsləşən hekayələrinin məzmun və mahiyyətində vətən məhəbbəti, vətəndaşlıq qeyrəti, odlar yurduna bağlılıq, tarixi keçmişimizə hörmət və ehtiram, tarixi abidələri öyrənmək, gənclərin milli ən'ənələrə bağlılıq kimi məsələlər əks etdirilmişdir.

Xalq ədəbiyyatına dərindən bələd olan M.Rzaquluzadə bu zəngin sərvəti mənimsəyə-mənimsəyə ondan çox ibrətamiz mövzular və motivlər seçib öz yaradıcılıq süzgəcindən keçirərək dövrün tələbinə uyğun əsərlər yaratmışdır.

Çox zəngin ədəbi-bədii dil ehtiyatına malik olan yazıçının

əsərləri özünə çoxlu oxucular tapdı, yaxşı nümunələr kimi uşaq ədəbiyyatımızın qızıl fonduna daxil oldu.

M.Rzaquluzadənin "Kitabi-Dədə Qorqud" boylarının motivləri əsasında yazdığı hekayələr yüksək ideya-bədii və tərbiyəvi gücə malikdir.

M.Rzaquluzadə sonrakı illərdə yazdığı əsərlərində də xalq yaradıcılığından bəhrələnmiş, istifadə etdiyi əfsanə və rəvayətlərin, atalar sözü və zərbi məsəllərin motiv və məzmunlarına yeni mə'na çalarları, yeni rəng və şəkil vermişdir. Eləcə də müəllif Nizami poemalarının və xalq nağıllarının zəngin məzmunlarını alaraq "Sirli saz", "Naxışlar" və b. əsərlərini qələmə almışdır.

Müəllifin doğulub boya-başa çatdığı Bakı mühiti və Xəzərlə bağlı məzmunlu hekayələri Bakı məişətini, onun tarixi abidələrini, insanların yaşayış tərzini öyrənmək baxımından nəsrimizin yaxşı nümunələri kimi dəyərlidir.

Yazıçı həm Azərbaycanın zəngin təbiətini, aranın, dağların büllur bulaqlarını, yaşıl ormanlarını, tarla və zəmilərini qarış-qarış gəzmiş, bütün bunları əsərlərində dönə-dönə vəsf eləmişdir. M.Rzaquluzadənin əsərlərinə bədii kolorit və vüs'ət verən Azərbaycan təbiəti olmuşdur. Bu baxımdan ona təbiət yazıçısı da demək doğru olardı.

M.Rzaquluzadənin A.Şaiq, S.Vurğun, Y.Məmmədəliyev haqqında yazdığı xatirələri Azərbaycan ədəbiyyatında me'muar janrının başlıca xüsusiyyətlərini izah edir, həm də unudulmaz şəxsiyyətlərin həyat salnaməsinə yeni töhfələr verir.

Ədəbiyyat tariximizi mükəmməl bilən ədib onun inkişaf yolu, müxtəlif sahələri ilə əlaqədar qiymətli tədqiqatlar aparmış, əhəmiyyətli fikir və mülahizələr söyləmişdir. Bu yöndə onun "Sərbəst şe'r", Azərbaycan şe'ri", "1917-1920-ci illərdə ədəbiyyat", "Azərbaycan uşaq ədəbiyyatının məzmun və keyfiyyət məsələləri" kimi iri həcmli zəngin məzmunlu əsərləri, həmçinin A.Şaiq, S.Vurğun, C.Cabbarlı, R.Rza, N.Rəfibəyli, M.Dilbazi və digər müəlliflərin yaradıcılığı haqqında yazdığı çoxsaylı məqalələri ədəbiyyatşünaslığımızın dəyərli nümunələrindən sayıla bilər.

Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, M.Rzaquluzadə XX əsrin əvvəllərindən yaranmağa başlayan yeni məzmunlu ədəbiyyatımızın ardıcıl olaraq sağlam meylli yaradıcılarından biri olmuşdur. Onun ədəbi irsi Azərbaycanın mə'nəvi sərvətinin zəngin tərkib hissəsi kimi geniş tədqiq və təbliğ olunmağa layiqdir.



# ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası (poeziya)-Bakı, 1976.

2. Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası (nəsr)-Bakı, 1976.

3. Azərbaycan nağılları.-Bakı,1950.

4. Azərbaycan folklor antologiyası, I kitab.-Bakı, 1968.

5. Azərbaycan folklor antologiyası, II.-Bakı, 1969.

6. Adilov M., Mərdanov V.,Uşaq və şe'r.-Bakı,1983.

7. Axundov A. Şe'r sənəti və dil.-Bakı, Yazıçı,1980.

8. Babayev N.Ədəbi mübahisələr.-Bakı, Yazıçı, 1986.

9. Belinski V.Q. Seçilmiş məqalələr.-Bakı, Uşaqgəncnəşr, 1948.

10. Çəmənzəminli Y.V. Azərbaycan ədəbiyyatına bir nəzər. Ərzurum, 1992-ci il.

11. Əbilov İ.Uşaqlar üçün böyük ədəbiyyat yaradaq, "Azərbaycan" jurn., 1970.№3.

12. Əzizov Ə. Azərbaycan uşaq ədəbiyyatının inkişaf yolları.-Bakı, Gənclik, 1968.

13. Əhmədov C. Uşaqlar sabahımız, gələcəyimizdir. Ulduz, 1975,№7.

14. Fərhadov F. Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi.-Bakı, 1986.

15. Gəncəli N.Müasir həyatın nağılları. Ədəbiyyat və incəsənət. 26 oktyabr, 1957.

16. Hasilov X. İki dərslik haqqında. Azərbaycan gəncləri. 6 oktyabr, 1954.

17. Hacıyev A. "Qu gölü" haqqında. Uşaq nəsri tədrisinin bə'zi məsələləri kitabı.-Bakı, 1977.

18. Hacıyev A. "El gücü" əsəri haqqıda. Uşaq nəsri tədrisinin bə'zi məsələləri kitabı.-Bakı,1977.

19. Həsənov H. Ana dili kitabı. Kommunist, 16 avqust, 1949.

20. Həsənov O. M.Rzaquluzadənin hekayələri. Ədəbiyyat və incəsənət, 10 aprel, 1955.

21. Xəlilov P. Faydalı bir kitab (M.Rzaquluzadənin "Dan söküləndə" kitabı haqqında), Azərbaycan müəllimi, 1952.

22. Xəlilov Zeynal "El gücü" əsəri haqqında. Azərbaycan

gəncləri. 23 iyul, 1948.
23. Xəlilov Z. "Ovçu Elişlə qoçaq Aytəkin nağılları" haqqında. Azərbaycan dili və ədəbiyyatı tədrisi. №4,1970.
24. Qarayev Y.Tənqid: Problemlər, mülahizələr-Bakı, 1976.
25. Qarayev Y.Poeziya və nəsr.-Bakı,1979
26. Qarayev Y. Ədəbi üfüqlər.-Bakı, 1985.
27. Qarayev Y.Me'yar şəxsiyyətdir.-Bakı, Yazıçı, 1987.
28. Qarayev Y. Tarix, yaxından və uzaqdan. -Bakı, Sabah, 1996.
29. Qəhrəmanov K. M.Rzaquluzadənin hekayələri haqqında.-Azərbaycan, 1955, 26 oktyabr.
30. Qorki M. Uşaqlar və gənclər haqqında.-Bakı, 1949.
31. Qorki M. Ədəbiyyat haqqında.-Bakı, 1950.
32. Mahmud T. Bir kitabı vərəqlədikcə. Ədəbiyyat və incəsənt. 19 fevral, 1966.
33. Mahmud T. Həvəs, məhəbbət sönməyəndə. Ədəbiyyat və incəsənət. 12 aprel, 1975.
34. Mehdi H. Azərbaycan uşaq ədəbiyyatında əmək mövzusu. "İnqilab və mədəniyyət", 1952.
35. Mehdi H. Ədəbiyyat və incəsənət məsələləri kitabı. Bakı, 1958.
36. Məmmədov Ə. Krılov və Azərbaycan təmsili. Azərbaycan, 1954, №12.
37. Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı.-Bakı,1977.
38. Məmmədov Ə.Azərbaycan uşaq ədəbiyyatı.-Bakı, Elm,1977.
39. Mir Cəlal. Xəlilov II Ədəbiyyatşünaslığın əsasları.-Bakı, M.1988.
40. Mustafayev İ. Nəsillərdən nəsillərə. Azərbaycan gəncləri, 6 fevral, 1966.
41. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı.-Bakı, 1984.
42. Namazov Q. Azərbaycan sovet uşaq və gənclər ədəbiyatının inkişaf mərhələləri. Dok.diss. Bakı, 1987.
43. Nəbieyv B.Uşaq ədəbiyyatı böyük tələblər səviyyəsinə, Azərbaycan, 1971.№8.
44. Tahirli Z. Böyük Vətən müharibəsi illərində Azərbaycan sovet uşaq şe'ri.-Bakı, Azərnəşr, 1991.
45. Uşinski K.D. Hekayələr və nağıllar.-Bakı, 1978.
46. Vurğun S.Balalarımız üçün gözəl əsərlər yaradaq. öyük sənət uğrunda.-Bakı, Gənclik, 1970.



## Rus dilində

47. Александров В.В. желудоцелое дерево (Из опыта современной советской многонациональной и детской литературе) М. Детское литература 1981?
48. Бабушкина А.п. История русской детской литературы. М.1948.
49. Баруздина Р. Золотая роза. Детская литература. 1982.
50. Барто А. О литературе для детей. В кн. Детская литература. М.Детская литература.1970.
51. Белинский В.Г. О детской литературе. М.1954.
52. Белинский В.Г. Чернишевский Н.Г.Добролюбов Н.А. О детской литературе и детской чтении. М. 1983.
53. Гусейнов С. Анатология Азербайджанской детской литературы. Детская литература. 1977,№9.
54. Горкий М. О детской литературе. М. 1969.
55. Любимова С. К вопросу о специфике детской литературы в кн. Вопросы детской литературы. М. Детизд. 1954.
56. Макаренко А.С. О детской литературе и детской чтении. М.Детизд. 1955.
57. Маршак С.Я. О большой литературе для маленких, МГНХЯ 1934.
58. Маршак С.Я. Воспитание словам М.,1964.
59. Пиксанов Н.К. Горкий и фолклор. М. 1963.
60. Халил З.Анкета Д.Л.Детская литература. 1982.
61. Халил З. Детская литература Азербайджана. М. Детская литература, 1987.

## M.RZAQULUZADƏNİN KİTABLARI

62. Rzaquluzadə M. Qaranquş yuvası, Bakı, Uşaqgəncnəşr, 1945.
63. Rzaquluzadə M. Ağ dana, Bakı, Uşaqgəncnəşr, 1945.
64. Rzaquluzadə M. El gücü, Bakı, Uşaqgəncnəşr, 1948.
65. Rzaquluzadə M. İstək, Bakı, Uşaqgəncnəşr, 1949.
66. Rzaquluzadə M. Dan sökülləndə, Bakı, Uşaqgəncnəşr,1952.
67. Rzaquluzadə M. Qu gölü, Bakı, Uşaqgəncnəşr, 1955.
68. Rzaquluzadə M. Sirli saz, Bakı, Uşaqgəncnəşr, 1955.,
69. Rzaquluzadə M. Ovçu Elişlə qoçaq Aytəkin nağılları, Bakı, Uşaqgəncnəşr, 1956.
70. Rzaquluzadə M. Ölkəmin çiçəkləri, Bakı, Maarif, 1962.

71. Rzaquluzadə M. Nəsillərdən-nəsillərə, Bakı, Azərnəşr, 1965.
72. Rzaquluzadə M. Salam, Adil, Bakı , Maarif, 1966.
73. Rzaquluzadə M. Baharın elçiləri. Bakı, Uşaqgəncnəşr, 1968.
74. Rzaquluzadə M. Ürəkdə izlər, Bakı, Uşaqgəncnəşr, 1969.
75. Rzaquluzadə M. Hekayələr, Bakı, Maarif, 1967.
76. Rzaquluzadə M. Dəniz nağılı, Bakı, Uşaqgəncnəşr, 1967.
77. Rzaquluzadə M. Quş dili bilən Orxan, Bakı, Gənclik, 1973.
78. Rzaquluzadə M. Cücə getdi su içə.-Bakı, Gənclik, 1973.
79. Rzaquluzadə M. Yaz günəşi, Bakı, Gənclik, 1977.
80. Rzaquluzadə M. İlin yazı, elin sazı, Bakı, 1981.

## M. RZAQULUZADƏNİN MƏQALƏLƏRİ

81. Rzaquluzadə M. Azadlıq, həmrə'ylik, bahar bayramı, Ədəbiyyat və incəsənət, 30 mart, 1966.
82. Rzaquluzadə M. Azərbay can sovet uşaq ədəbiyyatında mövzu və keyfiyyət məsələsi, Azərbaycan, 1955,№8.
83. Rzaquluzadə M. Bayron və müasirlik (Bayronun anadan olmasının 180 illiyi münasibətilə). Ədəbiyyat və incəsənət, 27 yanvar, 1968.
84. Rzaquluzadə M. Balaların böyük məhəbbəti. (A.Şaiqin anadan olmasının 75 illiyi münasibətilə). Azərbaycan müəllimi, 22 mart, 1950.
85. Rzaquluzadə M. Vətən eşqi (N.Babayevin "Vətən və qürbət" kitabı haqqında) Bakı, 11 iyul, 1958.
86. Rzaquluzadə M. El sevgisi. (S.Vurğunun anadan olmasının 50 illiyi münasibətilə) Ədəbiyyat və incəsənət, 12 may, 1956.
87. Rzaquluzadə M. Gənc iste'dadlara diqqət və qayğı. Azərbaycan gəncləri, 25 oktyabr 1961.
88. Rzaquluzadə M. Rübabın qırılmayan telləri (T.Fikrətin anadan olmasının 100 illiyi münasibətilə). Ədəbiyyat və incəsənət, 10 dekabr,1958.
89. Rzaquluzadə M. Uşaq ədəbiyyatına diqqəti artıraq. Ədəbiyyat və incəsənət, 11 dekabr, 1954.
90. Rzaquluzadə M. Uşaq ədəbiyyatı haqqında bə'zi mülahizələr. Azərbaycan gəncləri, 22 may, 1955.
91. Rzaquluzadə M. Adaşlar (hekayələri). Azərbaycan, 1954, №2.
92. Rzaquluzadə M. Aytac və yoldaşları (şe'r). Pioner, 1965, №2.
93. Rzaquluzadə M. Alagöz (hekayə). Azərbaycan pioneri, 30 oktyabr 1969.



94. Rzaquluzadə M. Bakı (şe'r). Ədəbiyyat, 9 aprel 1940.
95. Rzaquluzadə M. Beşbarmaq (poemadan kompozisiya). Azərbaycan, 1969, №10.
96. Rzaquluzadə M. Bizim borcumuz (şe'r). Azərbaycan müəllimi, 26 oktyabr, 1961.
97. Rzaquluzadə M. Bizim yay (şe'r). Göyərçin, 1963, №7.
98. Rzaquluzadə M. Qaragöz (hekayə). Azərbaycan pioneri, 1968, №17.
99. Rzaquluzadə M. Qırx altıncı yaylım atəşi.
100. Rzaquluzadə M. Qorxaq Aslan (olmuş hadisə), (şe'r). Göyərçin, 1969, №6.
101. Rzaquluzadə M. Qu gölü (hekayə) Azərbaycan gəncləri, 1954, №16.
102. Rzaquluzadə M. Daha da yüksəklərə (şe'r) Bakı, 13 oktyabr, 1964.
103. Rzaquluzadə M. Dəniz nağılı. Pioner, 1967, №8.
104. Rzaquluzadə M. Əski Bakı. Ədəbiyyat, 8 yanvar, 1936.
105. Rzaquluzadə M. Zər yazılı mərmər kitab (şe'r). Göyərçin, 1967, №10.
106. Rzaquluzadə M. İki bulvar, Qağayı, Mirvari: uşaq, oyuncaq at və həyat.
107. Rzaquluzadə M. İki dünyanın uşaqları. Bakı, 31 may, 1961.
108. Rzaquluzadə M. İki güllə (hekayə). Azərbaycan, 1954, №12.
109. Rzaquluzadə M. İstək (pionerlər üçün kiçik hekayə). Pioner, 1948,№2.
110. Rzaquluzadə M. Yaxşı ovçu. Pioner, 1954, №3.
111. Rzaquluzadə M. Yıxılan heykəl ("Mahnigar" adlı tarixi poemadan bir parça). İnqilab və mədəniyyət, 1929, №7-8.
112. Rzaquluzadə M. Görüşlər (S.Vurğun haqqında xatirələr). Azərbaycan, 1967, №3.
113. Rzaquluzadə M. Məhəllə yoldaşları (hekayə). Göyərçin, 1964, №1.
114. Rzaquluzadə M. Orxan (şe'r). Göyərçin, 1970, №1.
115. Rzaquluzadə M. Padşah və alim (hekayə). Pioner, 1947, №9.
116. Rzaquluzadə M. Sədaqət (3 pərdə, 4 şəkildə mənzum pyes). Vətən uğrunda, 1943,№7-8.
117. Rzaquluzadə M. Səhər şəfəqi (hekayə). Pioner, 1952, №1.
118. Rzaquluzadə M. Sirli saz (Nizaminin "İqbalnamə" poeması üzrə). Pioner, 1953,№12.
119. Rzaquluzadə M. Süngü və qələm (Cəbhə məktublarına

cavab) Ədəbiyyat, 24 fevral, 1944.

120. Rzaquluzadə M. Ürəkdə izlər, İnsan ürəyi. Axşam günəşi (şe'rlər). Ədəbiyyat və incəsənət, 2 noyabr, 1968.

121. Rzaquluzadə M. Xəzri-gilavar (şe'r). Göyərçin, 1968, №8.

122. Rzaquluzadə M. Haqqın zəfəri (şe'r). Ədəbiyyat, 10 may, 1945.

123. Rzaquluzadə M. Füzüli din haqqında. Revolyusiya və kultura, 1941, №5.

124. Rzaquluzadə M. Satira. Ədəbiyyat, 9 iyun, 1941.

125. Rzaquluzadə M. Maraqlı tamaşa. Ədəbiyyat, 25 oktyabr, 1944.

126. Rzaquluzadə M. Ədəbiyyat və tərbiyə. Ədəbiiya, 12 fevral, 1947.



## AZƏRBAYCAN DÖVLƏT ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT ARXİVİNDƏ SAXLANILAN ƏLYAZMALARI: fond [1]621, siyahı [1]1.

**I Şe'rləri**

1. Göy-göl. Mənim çiçəyim. Dənizdən çıxan günəş -1926-1938
2. İnam. Şairin ölümü. Daha da yüksəklərə - 1930-1939
3. Səadət və zəfər. Günəş. Bənövşələr açılanda -1944
4. Haqqın zəfəri. Ağ dana, Azərbaycan - 1945.
5. Ayrılıq nəğməsi. Uzun və böyük. E'tiraf -1947.
6. Nəğmə. Təbrizli dostuma. Düşüncələr - 1947.
7. Bəxtiyar -1950.
8. Dağ gəlinin heykəli. Döyüşən sərçələr -1955.
9. Quşlarla nə işim var. Adam-alim -1958.
10. Ağ göyərçin və qara quzğun. Tozalan. Saat -1959.
11. Bizim yay. Yuxu -1963.
12. İlk addımlar, Qar yağanda. Tovuz və dəniz -1966.
13. Aytac və yoldaşları. Həmişə hazır-1964.
14. Hər yerim gözəl-göyçək. Eynulla babaya, Dozanqurdu və sair həşərat. -1967
15. Canavarlar. Bulud-günəş. -1970.
16. Əl-ələ. Eşq olsun. Adam var ki, -1972.
17. Odlar yurdu. Hərəkət. Ataların bayramı.-1974.
18. Xoş gördük. Yaz bayramı, Bənövşələr açılanda-1976.
19. Mərc. Tə'rifnamə. Qələm və qılınc.-1978
20. Qışın qarı, ilin varı. Ucalıq.
21. Məktublar... Solmazdan atasına, Gürcüstan.-

**II Poemaları**

22. "Mahnigar"-avtoqraf -1926-35-ci illər
23. "Qan sarayı"-makina yazısı - 1927-68-ci illər
24. "Nizami"-avtoqraf - 1930
25. "Ovçu Elişlə Aytəkin nağıllları" -1955
26. Naxışlar -1956
27. Qoşa çinar - avtoqraf -1977
28. Şərqə mayak -1977-79

**III Mənzum nağılları**

29. Arılarda ayılar . Tayqulaq dovşanla acgöz canavar-1952
30. Çoxlar-azlar, toxlar-aclar - 1971
31. Qız-quş. Bir otaqda nənə ilə nəvə. Ayılarla arılar -1973.
32. Yaxşılığa yamanlıq. Dəcəl çəpişin nağılı. Ayının payı -1973.
33. Dildən-dilə, ildən-ilə. Pişik nağılı. Qaranquş yuvası - 1974
34. Şirin bulaq. Bal quşu. Nağıl -1974
35. Qış nağılı. Nağıl -1978
36. Şanapipiyin nağılı. Yarasanın nağılı, Qoçaq dovşan -1979
37. Hədiyyələr. Tülkü, Ləzzət, Ayı payı - 1980

**IV Hekayələri**

38. Ulduzlu gecə. Qaranquş yuvası. Şahin -1942.
39. Canavarın zarafatı. Qabiliyyət və səadət. Mişkanın ölümü.
40. El gücü. Çənlibel.
41. Dəli Ozan. Dədə Qorqud -1947
42. Ovda. Yaralı göyərçin.
43. İşıqlar yandı. Cinayət və cəza. Vahimə-1951
44. Sultan Toğrulun elçiləri -1952
45. Gözəlliyin keşiyində. Boş qorxular -1954
46. Balaca balıqçılar. Braziliyalı ovçusu -1956
47. Tufandan sonra. Təzə şəhər, köhnə şəhər-1963
48. Alagöz. Rəngarəng duyğular -1968
49. Yaralı ceyran -1971
50. Adil və Amir. Səlim qəfəsdə. Atlas köynək, tirmə araxçın.-1971.
51. Qaragöz-Alagöz. Quş dili bilən Orxan -1971
52. Tilsimli bağ. Qış bayramı. Ana ürəyi.

**V Povestləri**

53. Zəhərli ox -1959
54. Salam Adil - 1965
55. Bağdad şəfəqləri -1965

**VI Pyesləri**

56. Sədaqət-3 pərdə, 5 şəkil -1951
57. Sevinc. 6 şəkildə-1951



58. "Arşın mal alan" filmi üçün mahnı mətnləri-1944
59. Xurşidbanu. Libretto və mətn-1950
60. Döyüş qardaşlığı, montaj-1951
61. Göyərçin ürəyi, montaj -1954.

**VII Məqalələri**

62. Pedaqokaya aid məsələlər -1927
63. "Maarif işçisi"məcmuəsinə məktublar-
64. Ədəbiyyat və tərbiyə -1932
65. M.F. Axundov və Azərbaycan ədəbi dili -1938
66. Henrix Heyne - 1939
67. Поэзия Советского Азербайджана-1940
68. Yeddi gözəl. -1943
69. Nəsrimizdə kiçik hekayə-1940
70. Tənqid və uşaq ədəbiyyatı məsələsi-1940
71. Şe'rimizin yolu -1940
72. M.Füzuli, M.P. Vaqif-1940
73. İqbalnamənin əsas motivləri -1940
74. Şe'rimizdə satira -1941
75. Şe'rimizdə məzmun və şəkil uyğunluğu. Bədii ifadə vasitələri-1944
76. Ədəbi dilimizin ifadə qüdrəti və bədiiliyi uğrunda -1944
77. Azərbaycanda uşaq və gənclik ədəbiyyatı-1944
78. Azərbaycanda uşaq ədəbiyyatının vəziyyəti - 1945
79. Şe'rimizdə yeni keyfiyyətlər -1945
80. Azərbaycan sovet şe'rinin nailiyyətləri-1945
81. Şərəfli yaradıcılıq yolu -1956
82. Şair vətəndaş-1957
83. Azərbaycan ədəbiyyatında seçilmiş hekayələr-1958
84. Gənc iste'dadlara diqqət və qayğı, "Ədəbiyyat və məktəb"-1961
85. Ədəbiyyat və gənclik-1963
86. Azərbaycan sovet ədəbiyyatının nəsr sahəsində vəziyyəti və vəzifələri -
87. Azərbaycan sovet uşaq ədəbiyyatını yaxşılaşdırmaq tədbirləri -1969
88. İndiki şe'rimizdə vəzn məsələsi -1970
89. Azərbaycan uşaq ədəbiyyatının inkişaf yolları. Monoqrafiya, Latın əlifbasında -1935
90. Vahidin yaradıcılığı-1974

**VII Çıxışları**

91. Ədəbi-bədii qiraətin tərbiyəvi əhəmiyyəti. Naxçıvan təranələri, Əziz balalar.-1960
92. Borcumuzu ödəyək. S.Vurğunun dünya poeziyasından tərcümələri, Abbas Səhhət -20 dekabr, 1965.
93. Şeksprin sonetləri, Nazim Hikmət -3 fevral, 1966
94. Faust, İzahlar -1968.
95. Pol Elüar, Şekspir şair-14 dekabr, 1968
96. Hafiz Şirazi, Ömər Xəyyam -10 mart 1968
97. Petrus Brovka -1969
98. Görüş. Sizin üçün, gənc dostlar. Bizim uşaqlar- 11 iyul 1972.
99. Suallara cavab. Qurultayqabağı-14 fevral, 1984.

**IX Xatirələri**

100. Son görüş. S.Vurğun haqqında-1956
101. Görüşlər -17 sentyabr, 1966
102. Ayrılarmı könül candan -1966
103. Sayrışan ulduzlar -1967
104. S.Vurğun haqqında -1967
105. A.Şaiq, M.Seyidzadə haqqında -1972
106. M.Hüseyn haqqında. Mart kimi - 17 aprel 1979

**X Tərtib etdiyi dərslik və proqramlar**

107. Uşaq ədəbiyyatı -1945
108. Azərbaycan sovet ədəbiyyatı tarixi (1917-1952)1963
109. Azərbaycan sovet uşaq ədəbiyyatında mövzu və keyfiyyət məsələsi
110. Azərbaycan sovet uşaq ədəbiyyatının nəsr sahəsində vəziyyəti və vəzifələri -1955
111. N.Gəncəvi "İqbalnamə" poeması -1941



## MÜNDƏRİCAT

**Zəngin yaradıcılıq yolu.** (Q.Namazov)....3
**Giriş**....5
**Poeziyası**
Lirik şe'rləri....8
Satirik şe'rləri....26
Uşaq şe'rləri....35
Poemaları....43

**Bədii nəsri və publisistikası**
Hekayələri....61
Xatirələri....75
Ədəbi-tənqidi məqalələri....83

**M.Rzaquluzadə və xalq yaradıcılığı**....98
**Nəticə**....119
**Ədəbiyyat**....121

**Rəhmanova İradə Fərzəli qızı.**
**Mikayıl Rzaquluzadənin yaradıcılığı.**

Nəşriyyatın direktoru: ***Əziz Ələkbərli***
Kompüterdə yığdı: ***Ruhəngiz Əfəndiyeva***
Kompüter tərtibatçısı: ***Baxşəli Süleymanov***
Korrektoru: ***Mahmud Allahmanlı***

Yığılmağa verilmişdir: 17.05.2001
Çapa imzalanmışdır: 19.07.2001
Kağız formatı: 84/108 32/1
Mətbəə kağızı: №1
Həcmi: 132 səh.
Tirajı: 500

Kitab Azərbaycan EA Dədə Qorqud adına "Folklor" Elmi-Mədəni Mərkəzinin Kompüter Mərkəzində yığılmış, "Nurlan" NPM-də çap edilmişdir.